# QURANDA SƏDAQƏT

Möminlərin içərisində Allaha etdikləri əhdə sadiq qalan kişilər vardır. Onlardan kimisi əhdini yerinə yetirib şəhid olmuş, kimisi də şəhid olmasını gözləyir. Onlar əhdlərini əsla dəyişdirməyiblər.

## HARUN YƏHYA

# MÜNDƏRİCAT

**Giriş**

**YARADILIŞ HƏQİQƏTİ**

**CAHİL CƏMİYYƏTİN YANLIŞ SƏDAQƏT ANLAYIŞI**

-Sözlərinə və andlarına sadiq deyillər

-Atalarının dininə sadiqdirlər

-Sədaqət göstərmək üçün mütləq üstünlük görmək istəyərlər

-Sədaqət göstərə bilmələri müəyyən şərtlərə bağlıdır

**SƏDAQƏTİN ƏHƏMİYYƏTİ**

**SƏDAQƏTİN AÇARI:**

**ALLAH SEVGİSİ VƏ ALLAH QORXUSU**

-Allah sevgisi

-Allah qorxusu

**MÖMİNLƏRİN SƏDAQƏTLƏRİ**

-Möminlər Allaha sadiqdirlər

Möminlər Allahın razılığını qazanmaq üçün infaq edərlər

Allah yolunda "doğru" istiqamətdədirlər

Allaha ibadət etməkdə qətiyyət göstərərlər

Axirət üçün "ciddi bir səy" göstərərlər

-Peyğəmbərə sadiqdirlər

Peyğəmbərin Allahın elçisi olduğuna iman edərlər

Peyğəmbərə itaət edərlər

-Qurana sadiqdirlər

-Dövlət və millətə sadiqdirlər

## QURANDA MÖMİNLƏRİN GÖSTƏRDİKLƏRİ SƏDAQƏT NÜMUNƏLƏRİ

-Kəhf əhli

-Fironun ailəsində imanını gizlədən insan

Hicrət edən möminlər

## NƏTİCƏ

## DARVİNİZMİN SÜQUTU

# OXUCUYA

Bu kitabda və digər işlərimizdə təkamül nəzəriyyəsinin süqutuna xüsusi yer ayrılmasının səbəbi bu nəzəriyyənin hər cür din əleyhdarı olan fəlsəfənin təməlini meydana gətirməsidir. Yaradılışı və dolayısilə, Allahın varlığını inkar edən darvinizm 150 ildir ki, bir çox insanın imanını itirməsinə və ya şübhəyə düşməsinə səbəb olmuşdur. Buna görə də, bu nəzəriyyənin yalan olduğunu gözlər önünə gətirmək əhəmiyyətli imani bir vəzifədir. Bu əhəmiyyətli xidmətin bütün insanlığa çatdırılması isə zəruridir. Bəzi oxucularımız ola bilər ki, yalnız bir kitabımızı oxumaq imkanı tapa bilər. Bu səbəblə, hər kitabımızda bu mövzuya xülasə də olsa yer ayrılması uyğun hesab edilmişdir.

Qeyd edilməsi lazım olan başqa bir xüsus da bu kitabların məzmunu ilə əlaqədardır. Yazıçının bütün kitablarında imani mövzular Quran ayələri yönündə izah edilir və insanlar Allahın ayələrini öyrənməyə və yaşamağa dəvət edilirlər. Allahın ayələri ilə əlaqədar bütün mövzular oxucuda heç bir şübhə və ya sual buraxmayacaq şəkildə açıqlanmışdır.

Bu mövzuda istifadə edilən səmimi, sadə və səlis üslub isə kitabların hamı tərəfindən rahat başa düşülməsini təmin edir. Bu təsirli və sadə izah sayəsində kitablar "bir nəfəsə oxunan kitablar" ibarəsinə tam uyğun gəlir. Dini qəti şəkildə rədd edən insanlar belə bu kitablarda bildirilən həqiqətlərdən təsirlənir və yazılanların doğruluğunu inkar edə bilmirlər.

Bu kitab və yazıçının digər əsərləri oxucular tərəfindən şəxsən oxuna biləcəyi kimi, qarşılıqlı söhbət şəraitində də oxuna bilər. Bu kitablardan istifadə etmək istəyən bir qrup oxucunun, kitabları bir yerdə oxumaları mövzu ilə əlaqədar öz təfəkkür və təcrübələrini də bir-birlərinə ötürmək baxımından faydalıdır.

Bununla belə, yalnız Allahın razılığı üçün yazılan bu kitabların tanınmasında və oxunmasında iştirak etmək də böyük xidmətdir. Çünki yazıçının bütün kitablarında isbat və razı salıcı yön son dərəcə güclüdür. Bu səbəblə, dini izah etmək istəyənlər üçün ən təsirli üsul bu kitabların digər insanlar tərəfindən də oxunmasının təşviq edilməsidir.

Kitabların arxasına yazıçının digər əsərlərinin təqdimatının əhəmiyyətli səbəbləri vardır. Bu sayədə kitabı nəzərdən keçirən şəxs yuxarıda yazılan xüsusiyyətləri daşıyan və oxumaqdan xoşlandığını ümid etdiyimiz bu kitabla eyni xüsusiyyətlərə sahib daha bir çox əsərin olduğunu görər, imani və siyasi mövzularda faydalana biləcəyi zəngin bir qaynağın mövcudluğuna şahid olacaq.

Bu əsərlərdə digər bəzilərində görülən, yazıçının şəxsi qənaətlərinə və şübhəli qaynaqlara əsaslanan izahlara, müqəddəsata qarşı lazım olan ədəb və hörmətə diqqət yetirilməyən üslublara, şübhəli və həmçinin incidici yazılara rast gələ bilməzsiniz.

# YAZIÇI VƏ ƏSƏRLƏRİ HAQQINDA

Harun Yəhya təxəllüsündən istifadə edən yazıçı Adnan Oktar 1956-cı ildə Ankarada anadan olmuşdur. İbtidai və orta təhsilini Ankarada almışdır. Daha sonra İstanbul Memar Sinan Universitetinin İncəsənət fakültəsində və İstanbul Universitetinin Fəlsəfə bölməsində təhsil almışdır. 1980-ci illərdən bu yana imani, elmi və siyasi mövzularda bir çox əsər hazırlamışdır. Bununla yanaşı, yazıçının təkamülçülərin saxtakarlıqlarını, iddialarının əsassızlığını və darvinizmin qanlı ideologiyalarla olan qaranlıq əlaqələrini ortaya qoyan çox əhəmiyyətli əsərləri vardır.

Harun Yəhyanın əsərləri təxminən 30.000 şəklin olduğu cəmi 45.000 səhifəlik külliyyatdır və bu külliyyat 60 fərqli dilə tərcümə edilmişdir.

Yazıçının təxəllüsü inkarçı düşüncəyə qarşı mübarizə aparan iki peyğəmbərin xatirəsinə hörmət olaraq adlarını yad etmək üçün Harun və Yəhya adlarından götürülmüşdür. Yazıçı tərəfindən kitabların üz qabığında Rəsulullahın (səv) möhürünün olmasının simvolik mənası isə kitabların məzmunu ilə əlaqədardır. Bu möhür Qurani-kərimin Allahın son kitabı və son sözü, Peyğəmbərimizin (səv) xatəmül-ənbiya olduğunun rəmzidir. Yazıçı bütün yayımlarında Quranı və Rəsulullahın sünnəsini özünə rəhbər etmişdir. Bu surətlə, inkarçı düşüncə sistemlərinin bütün təməl iddialarını bir-bir ortadan qaldırmağı və dinə qarşı yönələn etirazları tam susduracaq son sözü söyləməyi əsas almışdır. Böyük hikmət və kamal sahibi olan Rəsulullahın möhüründən bu son sözü söyləmək niyyətinin duası olaraq istifadə edilmişdir.

Yazıçının bütün işlərindəki ortaq hədəf Quranın təbliğini dünyaya çatdırmaq, beləliklə, insanları Allahın varlığı, birliyi və axirət kimi təməl imani mövzular üzərində düşünməyə sövq etmək və inkarçı sistemlərin əsassız təməllərini və azğın tətbiqlərini gözlər önünə çəkməkdir.

Necə ki, Harun Yəhyanın əsərləri Hindistandan Amerikaya, İngiltərədən İndoneziyaya, Polşadan Bosniya-herseqovinaya, İspaniyadan Braziliyaya, Malayziyadan İtaliyaya, Fransadan Bolqarıstana və Rusiyaya qədər dünyanın əlavə bir çox ölkəsində sevilərək oxunur. İngilis, fransız, alman, italyan, ispan, portuqal, urdu, ərəb, alban, rus, boşnaq, uyğur, İndoneziya, Malay, benqal, serb, bolqar, Çin, Danimarka və İsveç dili kimi bir çox dilə tərcümə edilən əsərlər xaricdə geniş oxucu kütləsi tərəfindən izlənilir.

Dünyanın dörd tərəfində fövqəladə təqdir toplayan bu əsərlər bir çox insanın iman etməsinə, bir çoxunun da imanında dərinləşməsinə vəsilə olur. Kitabları oxuyub araşdıran hər kəs bu əsərlərdəki hikmətli, dolğun, asan aydın olan və səmimi üslubun, ağıllı və elmi yanaşmanın fərqində olar. Bu əsərlər sürətli təsir etmə, qəti nəticə vermə, etiraz və təkzib edilə

bilinməyən xüsusiyyətləri daşıyır. Bu əsərləri oxuyan və üzərində ciddi şəkildə düşünən insanların artıq materialist fəlsəfəni, ateizmi və digər azğın görüş və fəlsəfələrin heç birini səmimi olaraq müdafiə etmələri mümkün deyil. Bundan sonra müdafiə etsələr də, ancaq romantik inadla müdafiə edəcəklər. Çünki fikri dayaqları aradan götürülmüşdür. Dövrümüzdəki bütün inkarçı cərəyanlar Harun Yəhya külliyyatı qarşısında fikirlə məğlub olmuşlar.

Şübhəsiz, bu xüsusiyyətlər Quranın hikmət və ifadə təsirliliyindən qaynaqlanır. Yazıçı bu əsərlərə görə öyünmür, yalnız Allahın hidayətinə vəsilə olmağa niyyət etmişdir. Bundan başqa, bu əsərlərin çap və nəşrində hər hansı bir maddi qazanc güdülmür.

Bu həqiqətlər göz önünə gətirildikdə insanların görmədiklərini görmələrini təmin edən, hidayətlərinə vəsilə olan bu əsərlərin oxunmasını təşviq etməyin də çox əhəmiyyətli xidmət olduğu ortaya çıxır.

Bu qiymətli əsərləri tanıtmağın yerinə insanların zehinlərini bulandıran, fikri qarışıqlıq meydana gətirən, şübhə və tərəddüdləri aparmaq və imanı qurtarmaq üçün güclü və iti təsiri olmadığı ümumi təcrübə ilə sabit olan kitabları yaymaq isə əmək və zaman itkisinə səbəb olar. İmanı qurtarmaq məqsədindən çox, yazıçının ədəbi gücünü vurğulamağa yönələn əsərlərdə bu təsirin əldə edilə bilməyəcəyi məlumdur. Bu mövzuda şübhəsi olanlar varsa, Harun Yəhyanın əsərlərinin tək məqsədinin dinsizliyi yox etmək və Quran əxlaqını yaymaq olduğunu, bu xidmətdəki təsir, müvəffəqiyyət və səmimiyyətin açıq şəkildə göründüyünü oxucuların ümumi qənaətindən anlaya bilərlər.

Bilmək lazımdır ki, dünyadakı zülm və qarışıqlıqların, müsəlmanların çəkdiyi əziyyətlərin təməl səbəbi dinsizliyin fikri hakimiyyətidir. Bunlardan xilas olmağın yolu isə dinsizliyin fikirlə məğlub edilməsi, iman həqiqətlərinin ortaya qoyulması və Quran əxlaqının insanların qavrayıb yaşaya biləcəkləri şəkildə izah edilməsidir. Dünyanın gündən-günə daha çox büründüyü zülm, fəsad və qarışıqlıq mühiti diqqətə alındığında bu xidmətin mümkün qədər sürətli və təsirli şəkildə edilməsinin lazım olduğu aydındır. Əks halda, çox gec ola bilər.

Bu əhəmiyyətli xidmətdə öndərliyi üzərinə götürən Harun Yəhya külliyyatı Allahın izni ilə 21-ci əsrdə dünya insanlarını Quranda təsvir edilən hüzur, sülh, düzgünlük, ədalət, gözəllik və xoşbəxtliyə daşımağa vəsilə olacaq.

# Giriş

Quran əxlaqından uzaq yaşayan bəzi insanlar doğru yol onlara göstərilsə də, bu dəvətdən imtina edirlər. Lakin belə davranmaları onların həyatları boyu Allahın Quranda bildirdiyi üstün əxlaqdan məhrum qalmalarına və bunun maddi-mənəvi zərərlərinə qatlaşmalarına səbəb olur. Kədər, sıxıntı, bədbinlik, ümidsizlik, eqoistlik, mübahisə, dava, ikiüzlülük, lağ etmək, mənfəətpərəstlik... Cəmiyyətin çox hissəsinə hakim olan bu və buna bənzər mənfi davranışlar, əslində, insanların Allahın Quranla bildirdiyi haqq dindən, gözəl əxlaq anlayışından uzaqlaşmalarının nəticəsidir.

Halbuki, bəzi insanlar bu vəziyyətin fərqində belə deyillər. Üstəlik, məntiqləri də bu yanlışları normal qarşılayacaq qədər pozulub. Bu vəziyyətə düşmələrinin səbəbi, Allahın haqq dinini tərk etmələridir. Allah Quranın **"Peyğəmbər: "Ey Rəbbim! Qövmüm bu Quranı tərk etdi!"- deyəcək".** (Furqan surəsi, 30) ayəsi ilə insanların bu rəftarını bizə bildirir.

Bu kitabda bəhs olunan "sədaqət" anlayışı Quran əxlaqından uzaq yaşayan insanların tamamilə yanlış və səhv dəyərləndirdikləri, hətta bəzilərinin həqiqi mənasını heç bilmədikləri və yaşamadıqları bir xüsusiyyətdir. Hər mövzuda olduğu kimi, sədaqət mövzusunda da iman gətirənlərlə inkar edənlər arasında böyük anlayış fərqi var. Cahil cəmiyyətdəki sədaqət anlayışını "insanın sevdiyi və yaxın bildiyi, ya da mənfəət umduğu insanlara bağlanması, hansı şərtlər altında olursa-olsun, tamamilə o insanların əmr və arzularını yerinə yetirməsi" kimi açıqlaya bilərik. Cahillik inanclarını mənimsəyən insanların sədaqət anlayışı həqiqi mahiyətindən uzaqlaşıb və müxtəlif dünyəvi mənfəətlərlə əlaqələndirilən sədaqət növünə çevrilib.

İnkar edənlər Allaha iman gətirmədikləri və Onun ucalığını layiqincə təqdir edə bilmədikləri üçün Allaha sədaqət göstərmək şərəfindən də məhrum qalırlar. Allaha sədaqət göstərərək yaşayarlarsa, dünyəvi zövq və ehtiraslarından məhrum qalacaqlarını düşünür, Allaha bağlanmaqdan və Ona sadiq qalmaqdan çəkinirlər. Halbuki, Allah səmimi qəlblə Ona bağlanan sadiq qulları üçün dünyada və axirətdə nemətlərin və zövqlərin ən gözəllərinin olduğunu bildirib. Ancaq inkar edənlər bu həqiqətin şüurunda deyillər.

Bunun yerinə, inkar edənlər fərqli yöndən dərin sədaqət hissi içərisindədirlər. Bu sədaqət iman gətirməyən insanların nəfslərinə və şeytana qarşı göstərdikləri sədaqətdir. Şeytanın və nəfsin istəklərinə qapılan bu insanlar həyatları boyu bu iki aldadıcıya sadiq qalırlar. Onları addım-addım izləyirlər. Halbuki, şeytana və nəfsə göstərilən sədaqətin axirətdəki qarşılığı əbədi əzabdır.

Möminlər isə inkar edənlərdən fərqli olaraq, Allahın onlara verdiyi ağıl ilə doğru düşünən, Allahın gücünü və elmini layiqincə təqdir etməyə çalışan insanlardır. Bu səbəbdən,

tərifə layiq olanın yalnız Allah olduğunun şüurundadırlar. Allahın Quranla bildirdiyi əxlaqdan bir an belə uzaqlaşmadan yaşayarlar. Göndərilən elçilərin yoluna heç bir şübhəyə qapılmadan sədaqət göstərərək tabe olarlar. Baş verən çətinliklərə səbir edər və hər işlərində daima Allaha yönələrlər. Allahın yardımını və rəhmətini istəyərlər. Heç bir qorxu və narahatlığa qapılmadan daima Allahın razılığını qazanmağa çalışırlar. Olduqca çətin imtahan mühitində olsalar da, Allaha olan sədaqətlərində ən kiçik azalma belə baş vermir. Əksinə, Allaha olan bağlılıqları, yaxınlıqları və sədaqətləri həmişə qat-qat artar. Uca Rəbbimiz Allah bu gözəl davranışlarının qarşılığında iman gətirənlərə Allah qatında bağışlanma və böyük mükafat olduğunu vəd edib:

**"Həqiqətən, müsəlman kişilər və müsəlman qadınlar, mömin kişilər və mömin qadınlar, müti kişilər və müti qadınlar, doğru danışan kişilər və doğru danışan qadınlar, səbrli kişilər və səbrli qadınlar, (Allaha) baş əyən kişilər və baş əyən qadınlar, sədəqə verən kişilər və sədəqə verən qadınlar, oruc tutan kişilər və oruc tutan qadınlar, ismətlərini qoruyan kişilər və (ismətlərini) qoruyan qadınlar, Allahı çox zikr edən kişilər və qadınlar üçün Allah bağışlanma və böyük mükafat hazırlamışdır".** (Əhzab surəsi, 35)

# Cahil cəmiyyətin yanlış sədaqət anlayışı

## Sözlərinə və andlarına sadiq deyillər

Cahil cəmiyyətindəki insanların sədaqət anlayışını formalaşdıran əsas ünsür mənfəətdir. Bu yanlış düşüncəni mənimsəyən insanlar mənfəətləri üçün kimə və ya nəyə sədaqət göstərilməlidirlərsə, bunu sevərək yerinə yetirərlər. Halbuki bu, tamamilə saxta və səmimiyyətsiz sədaqət növüdür. Sədaqətlərinin dərəcəsi əldə edəcəkləri mənfəətin dəyərindən və ölçüsündən asılıdır. Əgər mənfəətlərinə çatmağın tək yolu sədaqətli və itaətli davranmaqdırsa, bunu çətinlik çəkmədən zövqlə yerinə yetirərlər.

Bununla yanaşı, insanlar arasında yaranan anlaşılmazlıq və münaqişələrin böyük hissəsi isə onların bir-birlərinə verdikləri sözlərini tutmamalarından irəli gəlir. Bunun əsas səbəbi, yuxarıda izah edildiyi kimi, bu insanların mənfəətpərəst olmalarıdır. İman gətirməyən insan hər zaman mənfəət əldə etmək istədiyi üçün qarşısındakı insandan da istifadə etməyə və əsil niyyətini gizlətməyə çalışır. Bunun ən gözəl yolunu isə qarşısındakı insanın etibarını qazanmaqda görür. Beləliklə, qarşısındakının etibarını qazanaraq həm o insanın özü haqqında müsbət düşünməsini təmin edəcək, həm də ona hiss etdirmədən rahatlıqla məqsədinə çata biləcəyi bir mühit yaradacaq. Məhz bu yanlış düşüncədə olan insanlar bəhsi keçən "etibarlı mühiti" təmin etmək və mənfəət əldə etmək üçün həmişə yalandan and içir və tutmayacaqları vədlər verirlər. Quranda bildirilən şeytanın hz. Adəmi aldatmaq üçün and içməsi də pis niyyətli insanların etibar qazanmaq və insanları aldatmaq üçün bu yola baş vurduqlarını göstərən nümunədir. Allah bu hadisəni Quranda belə bildirir:

**"Şeytan onların bir-birindən gizli qalan ayıb yerlərini özlərinə göstərmək üçün onlara pıçıldayıb dedi: "Rəbbiniz sizə bu ağacı yalnız ona görə qadağan etmişdir ki, siz mələk və ya (Cənnətdə) əbədi qalanlardan olmayasınız". (Üstəlik) onlara: "Şübhəsiz ki, mən sizin nəsihətçilərinizdənəm"- deyə and içdi. (Əraf surəsi, 20-21)**

Şeytan bu yalanın doğruluğuna hz. Adəmi inandırmaq və onun etibarını qazanaraq aldatmaq üçün dediklərinin ardınca and içmişdir. Allah Quranın bir çox ayəsində insanların müxtəlif mənfəətlər əldə etmək üçün bu cür hərəkət etdiklərini bildirir.

Allah Quranda "münafiq" adlandırılan, qəlblərində xəstəlik olan insanların da imanlarının zəifliyini gizlətmək və möminləri səmimi insanlar olduqlarına inandırmaq üçün and içmə üsuluna üz tutduqlarına diqqət çəkmişdir. Allah üçün ən doğru yola yönəlmək, Quran əxlaqına ən gözəl şəkildə tabe olmaq və insanları haqq dinə dəvət edərkən

qarşılaşdığı çətinliklərə səbir etmək ancaq Allaha güclü iman və sədaqət hissi ilə mümkündür. Buna görə də, səmimi imandan məhrum olan münafiq xarakterli insanların Allahın razılığını qazanmaq üçün ciddi səy göstərmələri və peyğəmbərlərin yolunu izləmələri mümkün deyil. Bunun şüurunda olan bu səmimiyyətsiz insanlar da peyğəmbərləri və saleh möminləri aldada bilmək üçün Allah adından and içərlər. Ancaq qarşılaşdıqları hər hansı bir çətinlikdə də verdikləri bu andları və Allaha qarşı verdikləri sözləri pozmaqdan çəkinmirlər. Allah Quranda iman gətirənlərlə birlikdə hərəkət edəcəklərinə dair söz verib and içən, ancaq Peyğəmbərimiz (s.ə.v)-lə birlikdə döyüşmək məsələsi ortaya çıxdıqda verdikləri bu sözdən geri dönən insanların vəziyyətini belə bildirir:

**“(Münafiqlər) Allaha çox möhkəm and içdilər ki, əgər sən onlara əmr etsən, onlar mütləq (döyüşə) çıxacaqlar. De: “And içməyin! İtaətiniz bəllidir. Şübhəsiz ki, Allah nə etdiklərinizdən xəbərdardır”. (Nur surəsi, 53)**

**“Əgər səfəriniz gəlir gətirən və yüngül bir yürüş olsa idi, onlar mütləq sənin ardınca gedərdilər. Lakin əziyyətli yol onlara çətin gəldi. Onlar: “Əgər taqətimiz olsa idi, biz də sizinlə bərabər çıxardıq!”(- deyə) Allaha and içəcəklər. Onlar özlərini həlak edirlər. Çünki Allah onların yalançı olduqlarını bilir”. (Tövbə surəsi, 42)**

Bu insanlar pis niyyətlərini gizlətmək və Peyğəmbərimiz (s.ə.v)-in etibarını qazana bilmək üçün Allah adına and içirlər. Bu şəkildə sədaqətsizliklərini və qəlblərindəki həqiqi niyyəti gizlədə biləcəklərini və özlərinə mənfəət əldə edə biləcəkləri mühitlər yarada biləcəklərini düşünürlər. Halbuki, göstərdikləri rəftar onların həqiqi niyyətlərini aşkar şəkildə ortaya qoyur və ifşa olmalarına şərait yaradır. Çünki bir insanın Allaha olan sədaqət və bağlılığının ən açıq dəlillərindən biri Onun razılığını qazana bilmək üçün lazım gələrsə, hər cür fədakarlığı sevə-sevə edə bilməsidir. Bu bağlılığı və sədaqəti hiss etməyən insanlar isə fədakarlıqdan qaçmaq üçün əsassız bəhanələr uydurur və insanları bu bəhanələrin doğru olduğuna inandırmaq üçün Allah adına and içirlər.

Bu insanların yalan yerə and içmələrinin bir səbəbi də iman edənlərin səmimiyyətlərindən istifadə edərək onlardan mənfəət əldə etmək istəmələridir. Bu cür davranaraq fədakar, yardımsevər və mərhəmətli əxlaqa sahib möminlərin yaşadığı hüzurlu həyatı özlərinin də yaşaya biləcəklərinə və heç bir səy göstərmədən onların sahib olduqları nemətləri əldə edə biləcəklərinə inanırlar. Allahın həqiqi niyyətlərini ortaya çıxardığı anda isə aralarından ayrılmalı olacaqlarından qorxaraq möminlərlə birlikdə olmaq üçün yalandan and içirlər. Allah bu səmimiyyətsiz insanların xarakterlərini Quranın Tövbə surəsində bizlərə belə tanıdır:

**“Qarşınızda and içəcəklər ki, onlardan razı qalasınız. Siz onlardan razı olsanız da, Allah fasiq camaatdan razı qalmaz”. (Tövbə surəsi, 96)**

**“Onlar sizinlə həmrəy olduqlarına and içirlər. Halbuki onlar sizdən deyildirlər. Əslində, onlar qorxaq adamlardır”. (Tövbə surəsi, 56)**

Ancaq bu insanların and içmələrinin yeganə səbəbi həqiqi niyyətlərini gizlədərək özləri üçün mənfəət əldə etmək deyil. Digər bir hədəfləri də iman gətirənləri Allah yolundan uzaqlaşdırmağa çalışmaqdır. Eynilə şeytanın hz. Adəmi və xanımını and içərək aldatmağa və Allahın əmrinə uymalarına mane olmağa çalışması kimi, bu insanlar da şeytanın məntiqi ilə hərəkət edirlər. Yanındakı möminləri doğru yoldan azdırmaq və ya ən azından onlara zərər verə bilmək üçün şeytanın tətbiq etdiyi “and içmə” üsulundan istifadə edirlər. Allah bir ayədə bu insanların andlarını “sipər” kimi istifadə etdiklərini belə xəbər verir:

**“Onlar andlarını özlərinə sipər edib (insanları) Allah yolundan döndərdilər. Onları alçaldıcı bir əzab gözləyir”. (Mücadilə surəsi, 16)**

Ancaq Allahın ayədə bildirdiyi kimi, qəlblərində xəstəlik olan bu insanların möminlərə yönəlmiş bu pis niyyətli təşəbbüsləri Allahın izni ilə hər dəfə boşa çıxır və onlar üçün əzaba çevrilir.

Andlarını pozaraq və sözlərində durmayaraq möminlərin arasında fitnə-fəsad salmağa çalışmaları, bu insanların içlərində gizlətdikləri sədaqətsizliyin açıq göstəricisidir. Bu əxlaqı mənimsəyən insanlar verdikləri sözlərlə, etdikləri böyük andlarla ətraflarındakı insanlarda olduqca sadiq olduqlarına dair təəssürat yaratdıqlarını zənn etsələr belə, sədaqətlərini sübut etmələri tələb edilən bir vəziyyətlə qarşılaşdıqda həqiqi niyyətlərini dərhal ortaya qoyurlar. Allah bu insanların əxlaqlarını Quranda belə bildirir:

**“Onlar Allaha çox möhkəm and içdilər ki, özlərinə qorxudan (bir peyğəmbər) gəlsə, hər hansı ümmətdən daha çox doğru yolda olacaqlar. Onlara qorxudan (peyğəmbər) gəldikdə isə bu, onların ancaq nifrətini artırdı”. (Fatir surəsi, 42)**

Quranda diqqət çəkilən bu insanlar göndərilən elçiyə itaət edəcəklərinə Allaha and içmişlər. Ancaq onlara bir elçi göndərildikdə bəslədikləri nifrət, verdikləri sözə sədaqətsiz olduqlarını açıq şəkildə göstərmişdir.

Bu insanlar **"Həqiqətən də, Allahla olan əhdlərini və andlarını ucuz qiymətə satan kəslər üçün axirətdə heç bir pay yoxdur. Allah onları danışdırmayacaq, Qiyamət günü onların üzünə baxmayacaq və onları təmizə çıxarmayacaqdır. Onlar üçün üzücü bir əzab vardır"** (Ali-İmran surəsi, 77) ayəsi ilə Allahın bildirdiyi kimi andlarını "az bir dəyər" qarşılığında satmışlar. Bu səbəbdən, Allah axirət günü onları mərhəmətindən məhrum edəcək. Allah bu insanların qiyamət günü Allahın hüzuruna çıxdıqlarında Allahın əzabından da yenə and içərək xilas olacaqlarını zənn etdiklərini Quranda belə xəbər verir:

**"Allah onların hamısını dirildəcəyi gün onlar sizə and içdikləri kimi, Ona da and içəcək və nə isə əldə etdiklərini güman edəcəklər. Əslində, onlar əsl yalançılardır". (Mücadilə surəsi, 18)**

Bu cür yaşamağı özlərinə prinsip hesab edən insanlar eyni rəftarı öz aralarında bağladıqları andlaşma və müqavilələrdə də göstərirlər. İnsanların bir-birlərinin haqlarını tanımamaları və verdikləri sözə uyğun davranmamaları göstərəcəkləri sədaqətin maraqlarına tərs düşməsindən irəli gəlir. Bu səbəbdən, bu düşüncədə olan insanlarla bağlanan müqavilələr, demək olar ki, sədaqətsizliklə nəticələnir. Allahın, **"Onların əksəriyyətini vədə xilaf çıxan gördük. Onların çoxunu günahkar gördük"** (Əraf surəsi, 102) ayəsi ilə bildirdiyi kimi, bu insanlar verdikləri sözlərə heç bir bağlılıqları olmadığı üçün verdikləri andları ilk fürsətdə pozmağa çalışırlar. Allah bu insanların vəziyyətini Quranda belə təsvir etmişdir:

**"Onlar əhd bağladığın kimsələrdir ki, sonra hər dəfə öz əhdlərini pozur və (heç nədən) çəkinmirlər." (Ənfal surəsi, 56)**

Bundan başqa, Allah münafiq xarakterli bu səmimiyyətsiz insanların, əvvəlcə, Allahın razılığını qazana bilmək üçün fədakarlıqdan qaçmayacaqlarına dair Allaha söz verdiklərini, lakin sözlərinin üstündə durmadıqlarını bildirmişdir:

**"Baxmayaraq ki, onlar bundan əvvəl (cihaddan) boyun qaçırmayacaqlarına dair Allaha söz vermişdilər. Onlar Allaha verdikləri sözə görə sorğu-sual olunacaqlar". (Əhzab surəsi, 15)**

Bu əxlaqa sahib insanlar həyatları boyunca Allaha, elçilərinə və ətraflarındakı digər insanlara xəyanət edirlər. Şeytanın ikiüzlü rəftarı bu cür insanların əxlaqını ortaya qoyan mühüm nümunələrdən biridir. Şeytan insanlara saxta vədlər vermiş, ancaq daha sonra bu vədlərinin yalan olduğunu açıqlamışdır. Allah Quranda şeytanın bu ikiüzlü əxlaqını bizlərə belə bildirir:

**“O zaman şeytan onların əməllərini özlərinə gözəl göstərib: “Bu gün insanlardan heç kəs sizə qalib gələ bilməz. Axı mən sizə (yardım edən bir) qonşuyam!”- demişdi, iki dəstə bir-birini gördükdə isə geri çəkilib: “Mən sizdən uzağam. Mən sizin görmədiklərinizi görürəm. Mən Allahdan qorxuram. Çünki Allah şiddətli cəza verəndir!”- demişdi.” (Ənfal surəsi, 48)**

Bu pis əxlaqı mənimsəyən insanların Allaha və elçilərə qarşı səmimi bağlılıq hiss edə bilmələri və  rastlaşdıqları çətinlik və sıxıntılara səbir edə bilmələri mümkün deyil. Azğın niyyətlərini və sədaqətsizliklərini gizlətmək, iman gətirənlərlə birlikdə olub onların hər cür imkan və vasitələrindən faydalana bilmək üçün hər fürsətdə and içərək söz verirlər. Ancaq səmimiyyətsizlikləri o qədər böyükdür ki, hər dəfə andlarını pozmalarına və içlərində gizlədikləri düşmənçiliyin açığa çıxarmalarına səbəb olur. Buna görə də verdikləri sözlərlə, andlarla möminləri nə qədər aldatmağa çalışsalar da, Allah bu insanların səyini həmişə boşa çıxarır və onların həqiqi niyyətlərini səmimi insanlara göstərir.

Bu insanların bu cür ağılsız və şüursuz davranmalarının bir səbəbi də, Allahın qəlblərini sərtləşdirmiş olmasıdır. Allah Quranda verdikləri sözləri pozmaları səbəbindən bu əxlaqı mənimsəyən insanları lənətlədiyini bildirmiş və iman edənləri onların niyyətləri barədə xəbərdar etmişdir:

**“(İsrail oğulları) verdikləri əhdi pozduqlarına görə Biz onları lənətlədik və qəlblərini sərtləşdirdik. Onlar (Kitabda olan) kəlmələrin yerlərini dəyişdirirlər. Onlar (özlərinə) öyrədilmiş şeylərin bir hissəsini unutdular. İçərilərindən az bir qismi istisna olmaqla, sən onlardan daim xəyanət görəcəksən. Onları əfv et və (təqsirlərindən) keç. Şübhəsiz ki, Allah yaxşılıq edənləri sevir”. (Maidə surəsi, 13)**

Allahın Quranda bildirdiyi bu yanlış düşüncədə olan insanların sədaqətdən nə qədər xəbərsiz olduqları açıq şəkildə aydın olur. Verdikləri andları davamlı pozmaları, verdikləri sözləri tutmamaları, bağladıqları müqavilələrə riayət etməmələri bu insanların sədaqət anlayışlarını açıq şəkildə göstərir.

## Atalarının dininə sadiqdirlər

İnsanlar həyatlarını ətraflarından öyrəndikləri məlumatlara və yaşadıqları cəmiyyətdə tətbiq olunan adət-ənənələrə görə nizamlayırlar. Etdiklərinin yanlış olduğu onlara göstərildikdə və doğrular izah edildiyi halda, bəzi insanlar həyatlarını, fikirlərini və davranışlarını yenə də bu prinsiplərinə görə formalaşdırmağı seçirlər. Sahib olduqları yanlış dünya görüşü isə bu insanları yeniliklərə üz çevirən, hətta bunlara şiddətlə qarşı çıxan insanlar halına gətirir. Keçmişdən qalan bəzi qaydaların, fikir və düşüncələrin, deyilən sözlərin, tətbiq olunan müxtəlif adət-ənənələrin yanlış və mənasız olduğunu bilmələrinə baxmayaraq, bunları müdafiə edib, bunlara bağlı qalmaqda israr edirlər. Keçmişdən gələn bütün qaydaların daha məqbul və etibarlı olduğuna özlərini inandırmışlar. Yaşadıqları mühit, uyğunlaşmaq məcburiyyətində olduqları qaydalar və dəyərləndirmələr nə qədər dəyişsə də, bəzi insanlar bütün bu dəyişiklikləri "pislik" gözü ilə qiymətləndirirlər. Bu səbəbdən, həmişə bunların və bunlara bağlı olaraq da müsbət olan hər hərəkətin əleyhində olurlar. Həmişə atalarını nümunə götürür, qarşılaşdıqları hər şeyi atalarının tətbiqlərinə görə qiymətləndirir və onlara görə hərəkət edərlər. Bu səbəbdən, qədimdən qalan mədəniyyət və inanclarına əks olan hər düşüncəni böyük təhlükə hesab edirlər. Onlara inandıqlarından daha doğrusu gətirilsə belə, bunu heç anlamadan və ya anlamağa çalışmadan, hətta dinləmədən imtina edirlər. Özlərinə izah edilənləri böyük qəzəblə qarşılamaları və dinləməyi şiddətlə rədd etmələri bu insanların batil dinlərinə kor-koranə bağlandıqlarını açıq şəkildə göstərir. Allahın, Şüəra surəsində bildirdiyi kimi, cəmiyyətin öndə gələnlərinin onları Allaha iman gətirməyə çağıran hz. İbrahimə verdikləri cavab bu insanların ata-babalarına kor-koranə bağlandıqlarını göstərən nümunələrdəndir. Allah bu mövzunu Quranda belə bildirir:

**"Onlara İbrahimin əhvalatını da oxu. Bir zaman o, öz atasına və tayfasına: "Nəyə ibadət edirsiniz?"- demişdi. Onlar dedilər: "Biz bütlərə ibadət edir və onlara tapınmaqda davam edirik". O dedi: "Onlara yalvardığınız zaman sizi eşidirlərmi? Yaxud sizə xeyir və ya zərər verirlərmi?" Onlar dedilər: "Xeyr, amma biz öz atalarımızın belə etdiklərini gördük". O dedi: "Siz nəyə ibadət etdiyinizi görürsünüzmü – həm siz, həm də ulu babalarınız?" (Şüəra surəsi, 69-76)**

Quranda bəhs edilən bu hekayə insanların heç bir məlumata əsaslanmadan atalarına şüursuz şəkildə inandıqlarını göstərir. İbadət etdikləri bütlərin əsil mahiyyətini izah etdikdə etiraz etmələri və bu cür hərəkət etmələrinin tək səbəbinin də, ataları olduğunu irəli sürmələri, onların bütlərinə olan sadaqətlərinin tamamilə boş bir inancdan ibarət olduğunu ortaya qoyur.

Göründüyü kimi, batil sədaqət hissi bu insanların Allahın hökmlərinə qarşı çıxmalarına, bunları inkar etmələrinə, hətta din əxlaqını mənimsəyib yaymağa çalışan insanlara düşmən gözü ilə baxmalarına səbəb olur. Allah atalarının batil dininə qarşı duyduqları sədaqətə görə bu düşüncədə olan insanların hətta Peyğəmbərimiz (s.ə.v)-dən Quranın dəyişdirilməsi tələbində olduqlarını da bildirir:

**"Açıq-aydın ayələrimiz onlara oxunduğu zaman Bizimlə qarşılaşacaqlarına ümid etməyənlər deyərlər: "Bizə bundan başqa bir Quran gətir və ya onu dəyişdir!" De: "Mən onu öz istəyimlə dəyişdirə bilmərəm. Mən yalnız mənə vəhy olunana tabe oluram. Əgər Rəbbimə asi olsam, böyük günün əzabından qorxaram". (Yunis surəsi, 15)**

Bu insanlar öz batil dinlərini yıxdığına görə Peyğəmbərimiz (s.ə.v)-dən Quranı "yeniləşdirməsini" və ya "dəyişdirməsini" tələb etmişlər. Öz batil dinlərinə qarşı duyduqları sədaqət onları Allahın ayələrinə itaət etməkdən yayındırmışdır. Buna görə də, əsrlər boyunca Allahın dinini təbliğ edib yayması üçün göndərilmiş elçilər qövmlərinin bu batil inanclarına olan sədaqətləri və qəzəbli davranışları ilə qarşılaşmışlar. Yalnız doğru və gözəl olana çağırdıqları üçün onların düşmənçiliyini qazanmış, müxtəlif təhdid və böhtanlara məruz qalmışlar. Elçilərə göstərdikləri mənfi reaksiyalar bu insanların "batil" dinlərinə çox ciddi şəkildə bağlandıqlarını və bu bağlılıqda da israrlı olduqlarını ortaya çıxarır. Allah bu insanları onları haqq dinə itaət etməyə çağıran elçilər üçün, **"... Bu ancaq sizi atalarınızın ibadət etdiklərindən döndərmək istəyən bir adamdır!...." (Səba surəsi, 43)** deyərək onların yolundan üz çevirdiklərini bildirmişdir:

**Onlara: "Allahın nazil etdiyinə tabe olun!"- deyildikdə, onlar: "Xeyr, biz atalarımızın tutduğu yolu tutacağıq!"- deyirlər. Bəs ataları bir şey anlamayıb doğru yola yönəlməyiblərsə necə? (Bəqərə surəsi, 170)**

Cahillik inanclarını tətbiq etməkdə qətiyyət göstərən bu insanların başqa bir azğın rəftarları isə atalarının dininə itaət etmələrini özlərinə Allahın əmr etdiyini irəli sürmələridir. (Allahı tənzih edirik) Doğru olmadığını bilərək etdikləri çirkin davranışların "Allahın əmri" olduğunu söyləyərək atalarının azğın dininə əməl etmələrini məqbul hala gətirməyə çalışırlar. Ancaq əlbəttə, bu səmimiyyətsizliklərinə özləri də şahiddirlər. Əsil məqsədləri Allahın razılığını qazana bilmək deyil, nəfslərinin istəklərinə və maraqlarına uyğun həyat yaşaya bilməkdir. Bu səmimiyyətsizliklərini gizlətmək və öz cahil sistemlərini davam etdirə bilmək üçün bu cür azğın bəhanə irəli sürərlər. Yoxsa əlbəttə ki, özləri də Allahın əmr etdiyi əxlaqdan çox uzaq yaşadıqlarını və etdiklərini Allahın əmri olduğu üçün deyil, yalnız atalarının dini əmr etdiyi üçün tətbiq etdiklərini bilirlər.

Bu insanların düşüncələri din əxlaqını əsil qaynağından öyrənmədikləri, dillərini əyib-bükdükləri və atalarının adət-ənənələrindən qopa bilmədikləri üçün çox qarışıqdır. Buna görə də Allahın qadağan etdiyi və çirkin qarşıladığı bir davranışın məqbul olduğunu iddia edirlər. Allah bu insanların bu cür səmimiyyətsiz davranışlarını Quranda belə bildirmişdir:

**"Onlar yaramaz əməl etdikləri zaman: "Atalarımızı belə gördük. Allah da bizə bunu əmr etmişdir"- deyirlər. De: "Allah yaramaz əməlləri əmr etməz. Yoxsa Allaha qarşı bilmədiyinizi danışırsınız?" (Əraf surəsi, 28)**

Bu fikirdə olan insanlar başlarına gələn hər hadisəni atalarını nümunə alaraq həll etməyə çalışdıqları üçün Allahdan və haqq dindən daima uzaqlaşarlar. Allah Quranda insanların bu yanılmasını belə açıqlayır:

**Sonra pisliyi yaxşılıqla əvəz etdik. Nəhayət onlar firavanlıq içində yaşayarkən: "Atalarımıza da belə qıtlıq və bolluq üz vermişdi"- dedilər. Biz də onları heç özləri də hiss etmədən qəflətən yaxaladıq. (Əraf surəsi, 95)**

Allah bu insanları sınamaq məqsədilə onların üzərindən pisliyi və çətinliyi qaldırmış və onlara rəhmətini çatdırmışdır. Ancaq bunun qarşılığında, səhvlərini anlayıb Allaha yönələcəkləri və şükür edəcəkləri halda, nankorluq edərək başlarına gələnləri keçmişdəki atalarının vəziyyətləri ilə müqayisə etmişlər. Çətinliyi üzərlərindən qaldırıb özlərinə nemət verənin Allah olduğunu təqdir edə bilməmiş, bunun ata-babalarından davam edən bir nizamın davamı olduğunu irli sürərək azğın rəftar göstərmişlər.

Onların bu cür yanlış düşüncəyə sahib olmalarının və bunun nəticəsində də həqiqi sədaqət anlayışı ilə hərəkət edə bilməmələrinin səbəbi, Allahın **"Məgər (kafirlər) bu Söz (Quran) haqqında düşünmürlərmi? Yaxud onlara ulu babalarına gəlməyən bir şey mi gəldi?"** (Muminun surəsi, 68) ayəsi ilə açıqladığı kimi, Quran ayələri ilə düşünməmələri və buna görə də Quranın özlərinə qazandıracağı həqiqi ağıldan məhrum qalmalarıdır.

## Sədaqət göstərmək üçün mütləq üstünlük görmək istəyərlər

Quran əxlaqından uzaq yaşayan cəmiyyətlərdə insanların çox əhəmiyyət verdikləri, həyatları boyunca əldə etmək üçün böyük səy göstərdikləri bəzi sosial dəyərlər və ölçülər var. Bunlardan ən mühüm olanları karyera sahibi olub cəmiyyətdə nüfuzlu mövqeyə sahib olmaq, bütün insanların tanıdığı, izlədiyi nümunəvi insan olmaq və zəngin olub lüks həyata

sahib olmaqdır. Bunlara sahib olan insanlar cəmiyyət tərəfindən təqdir edildiyi üçün hər kəs bu xüsusiyyətlərə sahib olmaq və insanlar arasında yaxşı mövqe əldə etmək məqsədini güdür. Çünki bu düşüncəyə görə ən məqbul insan ən zəngin insandır, ən ağıllı insan karyera qurmuş insandır, ən təqdir ediləcək insan hər kəs tərəfindən tanınan və bəyənilən insandır. Bu yanlış düşüncə tərzinin nəticəsində də bir qisim insanlar aralarındakı münasibətləri, bir-birlərinə olan fikirlərini, hörmət və bağlılıq anlayışlarını bütün bu sadaladığımız dəyərlər üzərində qururlar. Buna görə də bir insanı qiymətləndirərkən, ümumiyyətlə, ilk nəzər yetirilən şeylər, o insanın nə qədər pulu və ya var-dövləti olduğu və ya etibar sahibi bir insan olub-olmamasıdır. Bu səbəbdən, cəmiyyətdə bunlara ən çox kim sahibdirsə, ən çox hörmət edilən, təqdir edilən, hər mövzuda söz sahibi olan və ən çox qorunan da o insan olur.

Bütün bu sadaladıqlarımıza sahib olan bir insan digər insanlar tərəfindən hər yerdə hörmətlə qarşılanır və marağa səbəb olur, sözləri və ya düşüncələri yanlış olsa belə, doğru qəbul edilir. Buna görə də, bu insanlara xüsusi hörmət, sevgi və bağlılıq hissi duyulur. Bu insan ideya insanıdırsa, hər kəs onun əsərlərini oxuyur. Onun söylədiklərini və yazdıqlarını araşdırmadan, sorğulamadan dərhal qəbul edirlər. Böyük hörmətlə qarşılanır, müdafiə edilir və izlənilir. Bu insana heç bir məlumata əsaslanmadan mənasız bağlılıq və sədaqət duyulur. Tanınmış və şöhrətli insanlar üçün də eyni şey keçərlidir. İnsanların böyük qismi onlara heyrandır. Onlar hara getsələr, heç vaxt tək qalmır, hər zaman dəstək görürlər.

Bütün bu izah edilənləri bir yerə topladıqda qarşımıza belə bir mənzərə çıxır; cəmiyyətdə öndə gedən, insanların çox əhəmiyyət verdikləri, mal-mülk, şan-şöhrət və müəyyən vəzifə sahibi insanlar və onları dəstəkləyib müdafiə edən və heç bir zaman tək buraxmayan bir çox insan. Bunun səbəbi isə, insanların sədaqət duyub bağlanmaları üçün qarşılarındakı insanlarda mütləq özlərinə görə bir üstünlük ünsürü görmək istəmələridir. Əsrlər boyunca insanların bu yanlış düşüncələri heç dəyişməyib. Guya soylu olan və maddi gücünə görə hörmət görən insanlar dikbaş və zalım xarakterə sahib olsalar belə, cəmiyyətlərini idarə etməyi bacarmışlar. Sədaqət və bağlılıq anlayışları bir neçə müvəqqəti dünyəvi dəyərə görə formalaşmış bəzi insanlar üçün mühüm olan doğrunu və gözəli tapmaq deyil, yalnız bu maddi dəyərləri əldə edə bilməkdir. Bu səbəbdən, bu dəyərlərə sahib olanlar hər kəs tərəfindən ən bilikli, ən ağıllı, ən qabiliyyətli, qısacası, ən ideal insanlar olaraq qəbul edilirlər.

Məhz Allahın insanlara yol göstərici olaraq göndərdiyi peyğəmbərlər də yaşadıqları cəmiyyətləri Allahın yoluna tabe olmağa dəvət edib onları Allaha və elçilərinə sədaqət göstərməyə çağırdıqda inkar edənlərin çirkin və üsyankar davranışları ilə qarşılaşmışlar. Bu, cahil düşüncədə olan insanların elçilərə böyük vəzifənin verilməsində zənginlik, var-dövlət, etibar və ya mövqe sahibi olmaq kimi üstünlük ünsürü axtarmalarından irəli gəlir. Elçilərin

sözlərinə inanmaq və çağırıldıqları haqq dinə tabe olmaq üçün üstünlük ünsürü olaraq onlardan möcüzələr istəmişlər. Allah inkar edənlərin bu gözləntilərini Quranda belə bildirir:

**Onlar dedilər: "Bizə yerdən bir bulaq çıxarmayınca sənə iman gətirməyəcəyik; və ya ortasından şırıl-şırıl çaylar axıdacağın xurma və üzüm bağın olmayınca; yaxud, iddia etdiyin kimi, göyü parça-parça üstümüzə yağdırmayınca; və ya Allahı və mələkləri qarşımıza gətirməyincə; yaxud qızıldan bir evin olmayınca; və ya göyə qalxmayınca (biz sənə inanmayacağıq). Əgər bizə oxuyacağımız bir kitab endirməsən, göyə qalxmağına da inanmayacağıq". De: "Rəbbim pak və müqəddəsdir! Mən isə yalnız elçi (göndərilmiş) bir insanam". (İsra surəsi, 90-93)**

Allah Quranda Peyğəmbərimiz (s.ə.v)-in, iman gətirməmək üçün bəhanələr axtaran bu səmimiyyətsiz insanların onlardan istədikləri möcüzələr qarşısında belə cavab verdiyini bildirir:

**"...sizə demirəm ki, Allahın xəzinələri mənim yanımdadır. Mən qeybi də bilmirəm. Mən sizə demirəm ki, mən mələyəm. Mən yalnız mənə vəhy olunana tabe oluram..." (Ənam surəsi, 50)**

Göründüyü kimi, bu insanlar sözlərini təsdiqləmələri üçün peyğəmbərlərdən bir insanın güc yetirə bilməyəcəyi möcüzələri tələb etmişlər. Öz yararsız məntiqlərinə görə, kiməsə tabe olmaları və onun sözünü dinləmələri üçün həmin insanın cahillik ölçüləri baxımından özlərindən mütləq daha üstün olması lazımdır. Bu səbəbdən, Allahın **"Onlar dedilər: "Nə üçün bu Quran iki şəhərdən birinin böyük bir adamına nazil edilmədi?"** (Zuxruf surəsi, 31) ayəsi ilə bildirdiyi kimi, özlərinə göndərilən elçilərə bu cür böyük məsuliyyət verilməsini "təəccüb"lə qarşılamışlar. Sadəcə buna görə, Allahın peyğəmbərlərini inkar etmiş və çətinlik yaradaraq onların insanları doğru yola çatdırmalarına mane olmağa çalışmışlar. Allah Quranda insanların bu rəftarları ilə bağlı belə bir nümunə vermişdir:

**Peyğəmbərləri onlara dedi: "Allah Talutu sizə hökmdar təyin etdi!" Onlar dedilər: "O necə bizə hökmdar ola bilər ki, biz hökmdarlığa ondan daha çox layiqik və ona heç böyük var-dövlət də verilməmişdir". O dedi: "Allah sizin üzərinizə onu (hökmdar) seçdi, elm və bədəncə onun gücünü artırdı. Allah Öz mülkünü istədiyi kəsə verir. Allah (hər şeyi) Əhatə edəndir, Biləndir". (Bəqərə surəsi, 247)**

Bu insanlar onları idarə idarə edəcək peyğəmbərlərdə cahillik dəyərlərinə görə üstünlük ünsürü axtarırlar. Bu da onların Allahın peyğəmbərlərə verdiyi "elm və bədən üstünlüyü"nü görüb anlamalarına mane olmuşdur. Peyğəmbərlərin nə qədər dəyərli və üstün insanlar olduqlarını qavraya bilmədikləri üçün onların çağırışlarına həmişə üz çevirmişlər. Allah aşağıdakı ayədə bu insanların peyğəmbərlərə sadəcə bu səbəblə inanmadıqlarını belə bildirmişdir:

**"İnsanlara doğru yolu göstərən rəhbər gəldiyi zaman onların iman gətirməsinə ancaq: "Allah bir insanı mı elçi göndərdi?"- demələri mane oldu." (İsra surəsi, 94)**

Bu insanlar peyğəmbərlərə inanmayıb onların yolundan getməmiş və onları mənfəət dalınca qaçmaqla da günahlandırmışlar. Heç bir üstünlüyə sahib olmadığını düşündükləri birinin onun özünə sadiq qalmasını və uyulmasını istəməsi onların fikrinə görə, ancaq üstünlük əldə etmə niyyətindən irəli gəlir. Bu səbəbdən də, inkar edən qövmün zəngin və tanınmış "öndə gələnləri" peyğəmbərləri üstünlük və mənfəət əldə etməyə çalışmaqla günahlandırmış və hər fürsətdə onları haqsız yerə tənqid etmişlər. Fironun, onu Allaha qulluq etməyə dəvət edən hz. Musa və qardaşı hz. Haruna verdiyi reaksiya bu yanlış düşüncədə olan insanların rəftarını ortaya qoyan nümunələrdəndir. Allah bununla bağlı Fironun hz. Musaya yönəlmiş danışıqlarını Quranda belə bildirir:

**Onlara Bizim tərəfimizdən haqq gəldikdə: "Şübhəsiz ki, bu, açıq-aydın bir sehrdir!"- dedilər. Musa dedi: "Əcəba, sizə haqq gəldikdə: "Bu sehrdirmi?" deyirsiniz? Halbuki sehrbazlar uğur qazanmazlar". Onlar dedilər: "Gəlmisiniz ki, bizi atalarımızın tutduğu yoldan döndərəsiniz və yer üzündə böyüklük etmək ikinizə qalsın? Biz sizə iman gətirən deyilik". (Yunis surəsi, 76-78)**

İnkar edənlərin onları doğru və gözəl olana çağıran peyğəmbərlərə verdikləri reaksiya də məhz Fironunkundan fərqli deyil. Sədaqət göstərmələri üçün üstünlük axtarışları bu insanların ağıllarını örtərək onları dünyada və axirətdə qurtuluşa yönəldəcək peyğəmbərlərin çağırışlarını qavramalarına və doğru yola yönəlmələrinə mane olmuşdur.

Həqiqi üstünlük isə ancaq Allaha aiddir. İnsanların ətraflarında gördükləri hər şeyin həqiqi sahibi Allahdır. Əsil sədaqət duyulacaq və səmimi sevgi ilə bağlanılacaq tək varlıq Allahdır. Allah dilədiyi zaman dilədiyi şəkildə göndərdiyi elçilərinə Öz fəzlindən və

rəhmətindən bol-bol vermiş və onları zəngin edərək insanların çoxundan üstün etmişdir. Allah hz. Davud və hz. Süleymanı digər insanlardan üstün etdiyini belə bildirir:

**“Biz Davuda və Süleymana elm verdik. Onlar dedilər: “Bizi Öz mömin qullarının çoxundan üstün tutan Allaha həmd olsun!” (Nəml surəsi, 15)**

İnkar edənlərin bu yanlış düşüncələri əsrlər boyunca onları həmişə Allahın yolundan döndərmişdir. Halbuki, həqiqi sədaqət yalnız Allaha və Onun elçilərinə qarşı duyulan sədaqətdir. Bu batil düşüncədə olan insanlar olduqları vəziyyəti bir an əvvəl tərk etməli, Allahın gücünü və ucalığını təqdir etməyə çalışmalı və əsil sədaqətin ancaq Allaha göstərilməli olduğunu qavramalıdırlar.

## Sədaqət göstərə bilmələri müəyyən şərtlərə bağlıdır

Keçmişə dönüb baxdıqda bir çox insan həyatı boyunca müxtəlif problem və çətinliklərlə qarşılaşdığını xatırlayacaq. Allah dünya həyatını kimin daha gözəl davranacağını sınamaq üçün çətinlik və asanlıqla birlikdə yaratmışdır. Buna görə də, insanın həyatı boyunca heç bir maneə və ya çətinliklə qarşılaşmaması mümkün deyil. Ancaq Allahın yaradışındakı bu hikmətlərdən xəbərsiz olan insanlar həyatın bu çətinliklərini “həyat mübarizəsi” adlandırırlar. Halbuki, bütün bunlar insanların Ondan başqa sığınılacaq və kömək istəniləcək bir güc olmadığını görərək doğru yolu tapmaları üçün Allahın hikmətlə yaratdığı hadisələrdir.

İnsanların duyğuları, düşüncələri, niyyətləri və buna uyğun davranışları qarşılaşdıqları bir-birinə zidd iki vəziyyətdə, yəni çətinlik və asanlıq anlarında fərqlənir. İnsanlar çətinlik anlarında qəlblərində saxladıqlarını gizlədə bilmirlər. Çətinliklər qarşısında göstərdiyi səbir bir insanın Allaha olan bağlılığını, səmimiyyətini və sadiqliyini ortaya qoyar. Bu səbəbdən, bir insanın daxili aləmini ən yaxşı və ən doğru şəkildə ortaya çıxaran anlar insanın keçirdiyi çətinlik və sıxıntılı anlardır. Bu baxımdan, bir insanın məqsədinə çatmasındakı istək və cəhdinin nə qədər ciddi, öz inancına olan sədaqətinin isə nə qədər güclü olduğunu bu kimi hallarla rastlaşdıqda göstərəcəyi rəftarlardan görmək olur.

Cahil cəmiyyətində bu mövzuya verilən ən bariz nümunələrdən biri evlilikdir. Evlilik çox müqəddəs bir qurum olmasına baxmayaraq, bəzi insanlar tərəfindən mənfəət əldə etməyə çevrilir. Bu düşüncədə olan insanlar üçün evlilikdəki sədaqət və bağlılıq müəyyən şərtlərə bağlıdır. Buna görə də, zamanla ortaya çıxan çətinliklər və problemlər bu insanlar

arasında yavaş-yavaş böyük müzakirələrə və bədbəxtliyə çevrilə bilir. Müəyyən bir müddət sonra isə artıq tərəflərin bir-birlərindən ala biləcəkləri bir şey qalmır və ayrılıq zəruri hala gəlir.

Bu vəziyyət cahillik əxlaqını yaşayan insanların müxtəlif hadisələr qarşısında yaşadığı psixologiyadır. Bəzi insanlar səbir edilməli bir hadisə ilə rastlaşdıqda, asan olanı seçib dərhal bundan qaçmağı prinsip halına gətirmişlər. Allaha qəlbən bağlı və Ona güclü sədaqət hissi duyan möminlərlə kafirlər arasındakı fərq məhz bu cür vəziyyətlərdə açıq şəkildə ortaya çıxır. İnkar edənlər Allaha və axirət gününə iman etmədikləri üçün qarşılaşdıqları çətinliklərlə mübarizə aparacaq gücü və səbri özlərində tapa bilmirlər. Yaşadıqları ən kiçik bir problemdə və ya qarşılarına çıxan bir maneədə dərhal geri çəkilir, reallaşdırmaq istədikləri işdən imtina edərək asan olanı seçirlər. Allah Quranda hz. Loğmanın səbir mövzusunda oğluna verdiyi nəsihəti bizlərə belə bildirir:

**“Oğlum! Namaz qıl, yaxşı işlər görməyi əmr et, pis işləri qadağan elə. Başına gələn çətinliklərə səbir et. Həqiqətən, bu, əzm (tələb edən) əməllərdəndir”. (Loğman surəsi, 17)**

İnkar edənlərin belə gücsüz xarakterə sahib olmalarının səbəbi həqiqi mənada sədaqət duyğusundan və bunun özlərinə gətirəcəyi güc və əzmdən məhrum olmalarıdır. İnkarçılar həyatları boyunca şirk içində yaşayır və bir çox saxta ilahlara itaət edirlər. Həyatları boyunca yalnız bunlara bağlı qalır və bu bağlılığın tələbinə uyğun yaşayırlar. Ancaq ilah kimi sitayiş etdikləri bu varlıqlar onlara çətinlik anlarında səbir edəcək və mübarizə aparacaq gücü və köməyi verə bilmədiyindən, saxta ilahlarına qarşı duyduqları bu batil sədaqət və bağlılıq duyğusu da dərhal yox olur. Buna görə də, çətinlik və sıxıntılı vəziyyətlər bu cür insanların həqiqi şəxsiyyətlərini tanımaq baxımından çox böyük əhəmiyyət kəsb edir.

İnsanların çətin vəziyyətlər qarşısındakı psixologiyaları qəlblərində xəstəlik olan münafiq xarakterli insanların Allaha olan bağlılıqlarının və səmimiyyətlərinin saxtalığını də ortaya çıxarır. Bu insanlar Allaha qarşı həqiqi mənada sədaqət və bağlılıq hissi duymadıqları üçün Allahın rizası üçün hər hansı bir çətinliyə qarşı səbir göstərə bilmirlər. Bu səbəbdən də, özlərinə çətin gələcək mühitlərdən qaçmaq üçün daim bəhanələr irəli sürərlər. Allah Quranda bu kimi çətin vəziyyətlə qarşılaşdıqda Peyğəmbərimiz (s.ə.v)-dən izin istəyərək qaçmağa çalışan insanların səmimiyyətsizliklərini xəbər vermişdir. Allah bu xarakterdəki insanların sözlərini və həqiqi niyyətlərini bir ayədə belə bildirmişdir:

**“Əgər səfəriniz gəlir gətirən və yüngül bir yürüş olsaydı, onlar mütləq sənin ardınca gedərdilər. Lakin əziyyətli yol onlara çətin gəldi. Onlar: “Əgər taqətimiz olsaydı, biz də**

**sizinlə bərabər çıxardıq!"(- deyə) Allaha and içəcəklər. Onlar özlərini həlak edirlər. Çünki Allah onların yalançı olduqlarını bilir". (Tövbə surəsi, 42)**

Bu insanlar Allaha qəti olaraq iman gətirmədikləri üçün fədakarlıq tələb olunan anlarda Allaha və Onun Elçisinə qarşı sədaqət və bağlılıq göstərə bilməmişlər. Allaha və Onun Peyğəmbərinə sadiq qalmağın və Allahın razılığına uyğun davranmağın dünyada və axirətdə gətirəcəyi böyük qazancı və qurtuluşu görə bilməmişlər. Dünya həyatının keçiciliyinə aldanmış, Allahın rizası üçün səbir etməkdən qaçmışlar. Allah Nisa surəsində imanı lazımınca yaşamayan insanların çətinliklərə səbir edə bilmədikləri üçün möminlərdən uzaq durmağı seçdiyini bildirmişdir:

**"İçərinizdə elələri də var ki, (cihada çıxdıqda) (özlərini) yubandırar və sizə bir müsibət üz vermiş olduqda: "Allah mənə mərhəmət göstərdi ki, mən onlarla birlikdə (bəlaya düçar) olmadım"- deyər." (Nisa surəsi, 72)**

Allah bu ayə ilə bu insanların içində olduqları vəziyyətin əhəmiyyətini və ciddiliyini heç cür qavraya bilmədiklərini xəbər verir. Özlərinə Allahın razılığını qazandıracaq fədakarlıqlardan qaçmağı "nemət" olaraq görmələri bu insanların necə yanlışlıq içərisində olduqlarını açıq şəkildə ortaya qoyur.

Bu cür insanların digər səmimiyyətsiz rəftarları isə istədikləri mənfəətləri əldə etdikdə və xoşladıqları şərtlər təmin olunduqda çox sadiq olmalarıdır. İstədiklərinə qovuşduqda rahat və hüzurlu həyat yaşadıqları üçün belə vəziyyətlərdə Allaha və elçisinə sədaqət göstərməkdə tərəddüdə düşməz və bunda çətinlik çəkməzlər. Ancaq xoşlarına gəlməyən və ya maraqlarına zidd olan bir şey etmələri lazım olduqda dərhal içlərində gizlətdikləri səmimiyyətsizliyi üzə vurarlar. Allah Quranda bu insanların rəftarlarına belə diqqət çəkir:

**"Aralarında hökm vermək üçün Allahın və Onun Elçisinin yanına çağırıldıqları zaman onlardan bir dəstə üz çevirir. Onlar haqlı olsa idilər, itaət edib onun yanına gələrdilər". (Nur surəsi, 48-49)**

İkiüzlü xarakterdə olan bu insanların əxlaqı saleh möminlərin Allahın rizası üçün göstərdikləri səbir və fədakarlıqdan çox uzaqdır. Bu insanların -səmimi qəlblə iman etmədikləri müddətcə- həyatlarının hər anında yalnız Allahın razılığını axtarmaları, Allahın əmr və qadağanlarına qeyd-şərtsiz tabe olmaları və peyğəmbərlərə inanıb-güvənmələrindən

danışmaq olmaz. Bütün bunlar ancaq Allaha sadiq olan həqiqi iman sahiblərinin göstərə biləcəyi davranışlardır. Səmimiyyətsiz insanlar isə içlərində saxladıqları saxta sədaqətlərini sonsuza qədər gizlədə bilməyəcəklər. Allah bu ikiüzlü insanları sadiq və təslimiyyətli olan möminlərdən daim ayıracaq və möminlərə onların həqiqi üzlərini görüb tanıya biləcəkləri mühitlər meydana gətirəcək.

# Sədaqətin əhəmiyyəti

Sədaqət səmimi qəlbdən Allaha iman gətirən möminlərin ən əsas xüsusiyyətlərindən biridir. Möminlərin səmimi sədaqətləri onların ixlaslı insanlar olduqlarını göstərir. Çünki bir insanın Allaha iman gətirməsi, hər hansı dünyəvi mənfəət güdmədən yaşaması, həyatı boyunca uca Allahın rizasını qazanmaq üçün cəhd etməsi, sahib olduğu və sevdiyi hər şeyi Onun rizası üçün istifadə etməsi, başına gələn çətinliklərə səbir edə bilməsi üçün güclü sədaqət və bağlılıq hissinə ehtiyacı var. Yalnızca Allaha qarşı olan sevgi və bunun səbəb olduğu güclü bağlılıq və sədaqət hissi insana bu yolda irəliləmə gücünü və istəyini qazandıra bilər.  Allaha qarşı olan bağlılıq və təslimiyyət nə qədər səmimi və güclü olarsa, insan Allaha o qədər yaxınlaşma imkanı əldə edəcək və Onun rizasını qazanmaq üçün göstərdiyi cəhdi və şövqü də artacaq. Buna görə də mömini digər insanlardan ayıran ən vacib xüsusiyyətlərdən biri sədaqətdir. Həyatının sonuna qədər Allahın əmr və qadağalarına tabe olan mömin, Allahın izni ilə, Onun rəhməti və cənnəti ilə qarşılığını alacaq.

Sıxıntı və çətinlik anları, inkarçıların sədaqətsizliklərini və səmimiyyətsizliklərini ifşa edərkən, möminlərin də Allaha və elçilərə olan sədaqətlərini ortaya çıxarır. Möminlər, qarşılaşdıqları çətinlik anlarında, **"... Bu, Allahın və Rəsulunun bizə vəd etdiyi şeydir; Allah və Onun Elçisi doğru söyləmişlər ..."** (Əhzab surəsi, 22) deyərək, Allaha qarşı olan itaətlərini və bağlılıqlarını dilə gətirmişlər. Allah bir Quran ayəsində, "**Onlar səbir edənlər və yalnız Rəbbinə təvəkkül edənlərdir."** (Nəhl surəsi, 42) şəklində bildirərək, möminlərin bu gözəl əxlaqını tərifləmişdir. Məhz möminlərin ortaya qoyduqları sədaqətin gücü, Quran əxlaqını yaşayarkən göstərdikləri şövq və istəklə özünü müəyyən edir.

Çətinliklərlə qarşılaşdıqda nümayiş etdirdiyi təvəkküllü və təslimiyyətli davranışı ilə bütün müsəlmanlara nümunə olan peyğəmbərimiz hz. Məhəmməd (s.ə.v) çətin anlarda Allaha qarşı sədaqətdə qətiyyətli davranmaq lazım olduğunu möminlərə belə xatırlatmışdır:

*"... Bir şey istədikdə Allahdan istə. Yardım gözləyirsənsə, Allahdan dilə. Çünki qullar Allahın yazmadığı bir şeydə sənə yardım etmək üçün bir yerə gəlsələr də, bunu edə bilməzlər. Allah yazmadığı bir zərəri sənə vurmaq üçün bir yerə gəlsələr, buna da müvəffəq ola bilməzlər." (*Kütüb-i Sitte, Muhtasarı Tercüme ve Şerhi, Prof. Dr. İbrahim Canan, 16-cı cild, Akçağ nəşrləri, Ankara, 1992, s. 314*)*

Sədaqətin bir başqa əhəmiyyəti də, möminləri həmişə bir yerdə tutan əhəmiyyətli xüsusiyyət olmasından qaynaqlanır. Buna görə də sədaqət, fitnə salmağa, saleh əməllərə mane olmağa və möminləri bir-birindən ayırmağa çalışan pis niyyətli insanların möminlərin

içində olmasını çətinləşdirir. Möminlərin Allaha və peyğəmbərlərə qarşı olan səmimi sədaqətlərini və bağlılıqlarını təqlid etmək mümkün deyil. Bu, yalnızca möminlərə xas olan əxlaqi xüsusiyyətdir. Möminlərin arasına zərər vermək məqsədiylə girən kəslər, özlərini nə qədər gizləməyə çalışsalar da, möminlərin təslimiyyətini təqlid edə bilmədikləri üçün, bu məqsədlərini heç bir zaman reallaşdıra bilməzlər. Allaha qarşı duyulan güclü bir sədaqət və təslimiyyət, saleh möminlərlə ürəklərində xəstəlik olan kəsləri bir-birindən ayırd edib ortaya çıxaracaq. Bu sədaqət hissi eyni zamanda güclü bir bağlılıq vəzifəsi görərək, möminləri həyat boyu birlikdə də tutacaq. Möminlər, duyduqları güclü sədaqət ilə özlərinə zərər və pislik vermək istəyən pis niyyətli kəsləri rahatlıqla analiz edib, onlara qarşı lazım olan tədbirləri ala bilərlər. Ayrıca, bir-birlərinin səmimiyyətinə və bu yoldakı əzminə şahid olduqları üçün, bir-birlərinə olan sevgiləri və etibarları daha da artacaq. Bu şəkildə Allah, bu pis niyyətli kəslərdən möminləri təmizləyərək onları hər zaman hüzurlu, güclü və kamil iman sahibi kəslər edəcək.

Allah, iman edirmiş kimi görünmələrinə baxmayaraq, möminlərə kömək etmələri lazım gəldiyində bitərəf qalan və beləcə, Allaha olan sədaqətsizlikləri ortaya çıxan bu kəslərin rəftarlarını Quranda belə xəbər verir:

**İman gətirib xeyirxah işlər görənlərə gəldikdə isə, Allah onların mükafatlarını tam verəcək və Öz lütfündən onlar üçün istədiyi qədər artıracaqdır. Allaha ibadət etməyi özlərinə ar bilənləri və təkəbbürlük göstərənlərə gəlincə, Allah onları ağrılı-acılı bir əzaba düçar edəcəkdir. Onlar Allahdan başqa özlərinə nə bir himayədar, nə də bir yardımçı tapacaqlar. (Nisa surəsi, 173)**

Möminlər Allaha qarşı güclü təslimiyyət və qərarlı olduqları üçün, ən çətin anlarda belə Allahın razılığına ən uyğun olan qərarı verib, ona görə hərəkət edərlər. Onlar, Allahın **"... Halbuki, onlara övla (olan): İtaət və maruf (gözəl) sözdü. Lakin iş, qətilik və qərarlılıq tələb edən zaman, əgər Allaha sədaqət göstərsəydilər, sözsüz ki, onlar üçün daha xeyirli olardı."** (Məhəmməd surəsi, 20-21) ayələriylə bildirdiyi kimi, hər şərtdə Allaha sadiq qalmağın, özləri üçün "xeyirli" olduğunun şüurundadırlar. Allah bu ayələrdə ayrıca, güclü bir sədaqətin, insanın haqq olan bir şey qarşısında tərəddüdə qapılmasına maneə törətdiyini və insana qərarlı bir rəftar qazandırdığını da xəbər verir. Əgər insan güclü iman və təslimiyyətə sahibsə, bu qəlbən sədaqət hissi, onun qərarsızlığa düşməsinin qarşısını alacaq və nəfsini məğlub etməkdə ona daim kömək edəcək. Beləcə, insan necə bir vəziyyətlə qarşılaşırsa qarşılaşsın, Allaha duyduğu sədaqəti və təslimiyyətiylə, nəfsinə çətin gələn bir şeyin rahatlıqla öhdəsindən gələ biləcəkdir.

Sədaqətin möminlərə qazandırdığı bir başqa əhəmiyyətli xüsusiyyət də, bir-birlərinə olan "güvən və sevgi" ləridir. İman edənlərin bir-birlərinə qarşı duyduqları sevgi və güvən, tamamilə onların Allah yolunda göstərdikləri "ciddi" səyə görə şəkillənir. Allahın razılığını qazana bilmək üçün sahib olduğu hər şeyini xeyir üçün istifadə edən, bu yolda "doğru" bir istiqamət tutan mömin, digər müsəlman qardaşlarının sevgisini qazanacaq və onlara ən gözəl şəkildə nümunə olacaq. Məhz möminlərin Allah yolunda onlara üz verən hər bir hadisədə göstərəcəkləri səmimi sədaqət, bir-birlərinə qarşı olan sevgi, bağlılıq və güvənlərinin də artmasına səbəb olacaq.

Sədaqət möminə, Allah yolunda etdiyi bütün saleh əməllər və Allahı razı edəcək gözəl əxlaqı göstərməkdə "davamlılıq" da qazandırar. Ürəklərində xəstəlik olan münafiqlər, şeytanın yalanları nəticəsində, ibadətlərində və gözəl əxlaqda bu davamlılığı göstərə bilmirlər. Nəfslərinə tərs gələn bir mövzuda ya da qarşılaşdıqları ən kiçik bir çətinlikdə dərhal etdikləri xeyirli işlərdən imtina edə bilirlər. Göstərdikləri səy və istək zəif olduğu üçün də, hədəflərinə heç cür çata bilməzlər. Bu vəziyyət, ürəklərində etdikləri işə qarşı həqiqi mənada sədaqət və bağlılıq hiss etməmələrindən qaynaqlanar. Bu sədaqət və bağlılığı hiss etmədikləri üçün, bunların özlərinə qazandıracağı "davamlılıqdan" da məhrum qalırlar. Allaha könüldən bağlanmış olan möminlər isə, Allaha qarşı duyduqları bu qəlbən sədaqət sayəsində, Quran əxlaqını tətbiq etməkdə və Allahın razılığını qazanmada həyatlarının sonuna qədər "davamlılıq" göstərə bilirlər. Allah, möminlər üçün xeyirli və gözəl olanın "davamlı" saleh əməllər etmək olduğunu Quranda belə bildirir:

**Var-dövlət və övladlar dünya həyatının bərbəzəyidir. Əbədi qalan yaxşı əməllər isə Rəbbinin yanında savab və ümid baxımından daha əfzəldir. (Kəhf surəsi, 46)**

Möminlərin sahib olduğu səmimi sədaqət, onların hərəkətlərinə də əks olunaraq, əzmlərini və Allaha olan təslimiyyətlərini artırır və daha da güclənmələrinə vəsilə olur. Buna qarşılıq Allah, münafiq xarakterli kəslərin ürəklərindəki "xəstəliklərini" ortaya çıxarır. Allah Quranda, inkara meyilli olan bu zəif imanlı kəslərin, möminlərə və elçiyə müxtəlif maneələr çıxararaq onları çətin vəziyyətdə buraxmaq və onlara zərər vermək istəyəcəklərini bildirir. Bu səbəblə, Allah möminlərə, Allah yolunda hicrət edənlərə, Allaha və Onun elçisinə olan sədaqətlərini və səmimiyyətlərini açıq şəkildə göstərmədikcə, münafiq xarakterli kəsləri dost etməmələrini nəsihət etmişdir:

**İman gətirib xeyirxah işlər görənlərə gəldikdə isə, Allah onların mükafatlarını tam verəcək və Öz lütfündən onlar üçün istədiyi qədər artıracaqdır. Allaha ibadət etməyi özlərinə ar bilənləri və təkəbbürlük göstərənlərə gəlincə, Allah onları ağrılı-acılı bir əzaba düçar edəcəkdir. Onlar Allahdan başqa özlərinə nə bir himayədar, nə də bir yardımçı tapacaqlar. (Nisa surəsi, 173)**

**Onlar özləri küfr etdikləri kimi, sizin də küfr edib onlarla eyni olmanızı istəyərlər. Onlar Allah yolunda hicrət etməyincə onlardan özünüzə dost tutmayın... (Nisa surəsi, 89)**

# Sədaqətin açarı: Allah sevgisi və Allah qorxusu

## Allah sevgisi

Bir insanın hər hansı bir şəxsə və ya varlığa sadiq qalması, bütün həyatını onun istək və razılığı üzərində qura bilməsi yalnız ona güclü və dərin sevgi bəsləməsi ilə mümkün ola bilər. Bir-birlərini saxta sevgi ilə sevən insanlar isə həqiqi sədaqəti əsla yaşaya bilməzlər. Amma burada çox önəmli bir məqam var; bu insanlar bir-birlərini sevib bağlansalar da, bu bağlılıqları cahil cəmiyyətin meyarlarına görə formalaşdığı üçün Allahın Quranda bildirdiyi həqiqi sədaqət və sevgi duyğusundan yenə də çox uzaqdır.

Həqiqi sevgi və bağlılıq insanın ancaq Allahın böyüklüyünü və imanı qavraması ilə yaşana bilər. İnsan dərin sevgi və sədaqəti əsas olaraq Rəbbimizə yönəltməlidir. Allaha qarşı bu dərin sevgi və bağlılığı duyan insanlar Onun razı qalacağı əxlaqı yaşayan insanlara qarşı da çox dərin və səmimi sevgi bəsləyərlər. Beləcə, həqiqi sevgi də ancaq Allahdan qorxan, Ona qarşı dərin sevgi və hörmət bəsləyən insanlar arasında yaşanır. İnkar edənlərin sevgi anlayışları isə tamamilə dünyəvi dəyərlər üzərində qurulduğu üçün möminlərin yaşadığı dərinlikdən və daimilikdən çox uzaqdır.

Möminlərlə inkar edənlərin sevgi anlayışları kimi, sədaqət anlayışları da bir-birindən tamamilə fərqlidir. İnkarçılar Allahın **"Onlar Allahı lazımınca qiymətləndirmədilər. Şübhəsiz ki, Allah Qüvvətlidir, Qüdrətlidir!" (Həcc surəsi, 74)** ayəsi ilə açıqladığı kimi, Allahın sonsuz gücünü və ucalığını, Onun insanlar üzərindəki rəhmətini və mərhəmətini lazımınca qavraya bilmədikləri üçün qəlblərini Allaha bağlamazlar. Allaha sevgi və sədaqətlə bağlanmayan insanlar isə nə özləri həqiqi mənada sadiq ola bilər, nə də başqaları onlara sadiq olar. Buna görə güclü sədaqət üçün mütləq güclü Allah sevgisinə ehtiyac var. Allaha qarşı dərin sevgi bəsləyən insanlar isə yalnızca möminlərdir. Allah iman gətirənlərin bu xüsusiyyətini Quranda belə xəbər verir:

**...İman gətirənlərin isə Allaha olan sevgisi daha güclüdür... (Bəqərə surəsi, 165)**

İman edənlərin güclü bir sədaqət və təslimiyyətə sahib olmalarını təmin edən bir çox səbəb vardır. Möminlər həyatları boyu qarşılaşdıqları hər hadisədə Allahın yardımını, qorumasını və rəhmətini görə bilən insanlardır. Allahın **"De: "Həmd olsun Allaha! O Öz dəlillərini sizə göstərəcək, siz də onları tanıyacaqsınız. Rəbbin sizin etdiyiniz əməllərdən xəbərsiz deyildir!"** (Nəml surəsi, 93) ayəsi ilə açıqladığı kimi, Allah möminlərin qəlblərini gücləndirmək, onların Özünə olan sevgi və bağlılıqlarını artırmaq üçün nəfslərində və

ətraflarında meydana gələn hər şeyin haqq olduğunu onlara göstərəcəyini vəd etmişdir. Bu ayənin hökmünə görə, möminlər həyatları boyu başlarına gələn hər şeyin Allahın onlara olan vədinə əsasən reallaşdığını bilərək hərəkət edərlər. Allaha olan imanları, sevgiləri və buna bağlı olaraq da itaət və sədaqətləri hər zaman artar. Allahın hər zaman möminlərin dostu və vəlisi olduğunu, bütün dualarına qarşılıq verdiyini bilir və böyük şövq və həyəcanla Allahın rizasını qazanmaq üçün cəhd edirlər. Başlarına nə gəlirsə-gəlsin, Allaha olan bağlılıq və sədaqətlərində azalma olmaz. Çətinliklər qarşısında Allahın rizasını qazana bilmək üçün Ona itaət edərək səbir edər, Allahı Vəkil bilər və Ona sığınarlar. Bu, möminlərin, həqiqətən də, güclü sədaqət duyğusuna sahib olduqlarının ən gözəl dəlillərindəndir. Allah Quranda möminlərin güclü bağlılıqlarını və itaətkar olduqlarını belə bildirir:

**...Yurdlarından qovulmuş və mallarından məhrum olunmuş yoxsul mühacirlər...Onlar Allahın mərhəmətini və razılığını qazanmağa can atır, Allaha və Onun Elçisinə kömək edirlər. Doğru olanlar da məhz onlardır. (Həşr surəsi, 8)**

Allaha güclü sevgi və sədaqətlə bağlı olan möminlər Allahın onlara rəhbər olaraq göndərdiyi elçilərə dərin sevgi, hörmət və sədaqət göstərərlər. Bu bağlılıqlarının qaynağı da yenə Allaha qarşı bəslədikləri sevgi və sədaqətdir.

Peyğəmbərlər Allaha qarşı duyulan sevginin özü ilə bərabər səmimi bağlılığı və itaətkarlığı da gətirəcəyini açıqlayaraq insanları Allaha dərin sevgi ilə bağlanmağa çağırmışlar:

**De: "Əgər siz Allahı sevirsinizsə, mənim ardımca gəlin ki, Allah da sizi sevsin və günahlarınızı bağışlasın. Allah Bağışlayandır, Rəhmlidir". (Ali İmran surəsi, 31)**

Möminlər Allaha və Onun elçisinə qarşı səmimi sevgi bəslədikləri üçün həm Quran əxlaqını yaşamaqda böyük qətiyyət göstərir, həm də bundan böyük zövq və xoşbəxtlik duyurlar.

## Allah qorxusu

Allah sevgisi sədaqətin yaşanması üçün çox önəmli xüsusiyyətdir, amma yalnız bu xüsusiyyət yetərli deyil. Allah sevgisi ilə yanaşı mütləq ki, Allah qorxusu da yaşanmalıdır. Allah qorxusu insanın Allahın əmr və qadağalarına qarşı olduqca ciddi olmasını, Onun

bəyənməyəcəyi davranışlardan qətiyyətlə uzaq durmasını, şeytanın və nəfsinin təlqinlərinə qarşı güclü və iradəli olmasını təmin edir.

İnsan zəif olaraq yaradılmışdır. Allah bu həqiqəti **"Allah sizin üçün (şəriət hökmlərini) yüngülləşdirmək istəyir, çünki insan zəif yaradılmışdır."** (Nisa surəsi, 28) ayəsi ilə insanlara bildirir. Nəfs və şeytan insana hər zaman pisliyi əmr edər. Bu şeytani təlqinlərə uymamaq üçün isə güclü iradə və qətiyyət lazımdır. Məhz Allah qorxusu insanın iradəsini daha güclü və möhkəm edir. Allah möminlərə Özündən qorxmalarını Quranda belə əmr edir:

**Ey iman gətirənlər! Allahdan qorxun! Hər kəs sabahı üçün nə etdiyinə baxsın. Allahdan qorxun! Həqiqətən, Allah nə etdiklərinizdən xəbərdardır. (Həşr surəsi, 18)**

Allah qorxusu insanı həyatının hər anında Allahın istədiyi kimi davranıb, Onu razı etmək üçün çalışmağa, şeytanın və nəfsin istəklərinə, onların hiylə və oyunlarına qarşı diqqətli və tədbirli olmağa sövq edir. Bu da insana bitməyən istəklərini həyata keçirməyə çalışan nəfsin və şeytanın bütün hiylələrini boşa çıxarır.

Buna görə şeytan və nəfs insanı əvvəlcə Allah qorxusundan uzaqlaşdırmağa çalışır. Allah qorxusu əvəzinə, əsas önəmli olanın qəlb təmizliyi olduğu kimi yanlış təlqinlərlə insanın Allahdan qorxub çəkinməsinə mane olmaq istəyər. Halbuki, Quranı oxuyub anlayan şüurlu bir insan şeytanın bu cür təlqinlərinin yalan olduğunu, tamamilə aldatma məqsədli olduğunu asanlıqla görər. Çünki Allah Quranda möminlərə Özündən qorxmalarını əmr etmişdir. Bu əmr Quranın bir çox ayələrində bildirilir. Allahın bildirdiyi bu ayələrdən bəziləri belədir:

**...Allahdan qorxun və bilin ki, Allah şiddətli cəza verəndir. (Bəqərə surəsi, 196)**

**... Allahdan qorxun və bilin ki, Onun hüzuruna toplanılacaqsınız. (Bəqərə surəsi, 203)**

Allah qorxusu möminin Allaha dərin sədaqətlə bağlanmasına səbəb olar. Allahın sevgisinin və razılığının ən çoxunu qazanmaq istədikləri, əks təqdirdə, Allahın əzabı ilə qarşılaşa biləcəklərini bildikləri üçün iman gətirənlərin bu sədaqətləri də daimi olur.

# MÖMİNLƏRİN SƏDAQƏTİ

## Möminlər Allaha sadiqdirlər

### Allahın rizasını qazanmaq üçün infaq edərlər

Allah Quranın bir çox ayəsində infaq etməyin möminlərin məsul olduğu ibadətlərdən biri olduğunu bildirir. İnfaq etmək möminin Allahın verdiyi hər neməti Onun yolunda və Onun rizasını qazanmaq üçün xərcləməsidir.

İnfaq etməyin möminin Allaha olan sədaqətinin göstəricisi olduğunu iman etməyən və ya münafiq xarakterli insanların bu mövzuya münasibətini müqayisə edərək də anlamaq olar. Qəti iman etməyən səmimiyyətsiz kimsələr üçün sahib olduqları maddi sərvətlər çox dəyərlidir. Onlar sahib olduqları bu dəyərli şeyləri öz inanclarına görə qəti olaraq inanmadıqları və ya şübhə etdikləri bir şey uğrunda əsla xərcləməzlər. Allaha və axirətə tam iman gətirmədikləri üçün də Allaha və elçisinə sadiq olmaz və bu yolda sahib olduqlarını sevərək xərcləməzlər. Bu səbəbdən, Allah yolunda infaq etməyə çağrıldıqları zaman bundan qaçaraq xəsislik edərlər. Allah qəlblərində xəstəlik olan bu insanların səmimiyyətsiz davranışlarını belə bildirmişdir:

**Budur, siz Allah yolunda malınızdan xərcləməyə dəvət edilirsiniz. Aranızda isə simiclik edənlər də tapılır. Kim simiclik etsə, ancaq öz əleyhinə etmiş olar. Allah Zəngin, siz isə kasıbsınız. Əgər üz çevirsəniz, yerinizə sizin tayınız olmayan başqa insanlar gətirər. (Məhəmməd surəsi, 38)**

Qəlblərində xəstəlik olan bu insanların bir başqa çirkin davranışları da dinə zərər vermək və möminlərin bir-birilərinə olan bağlılıqlarını qırmaq üçün Allahın **"Məhz onlar: "Allahın Elçisi yanında olanlara bir şey verməyin ki, dağılıb getsinlər!"- deyirlər. Halbuki göylərin və yerin xəzinələri Allahındır, lakin münafiqlər anlamırlar"** (Münafiqun surəsi, 7) ayəsində də bildirildiyi kimi, başqalarının da möminlərə köməyinin qarşısını almaqdır. Öz aralarındakı sədaqət anlayışı yalnız pul və mala bağlı olduğundan möminlərin bir-birilərinə bağlılıqlarını da ancaq bu yöndən qiymətləndirərlər. Bu cür hərəkət etdikləri zaman iman gətirənlərin dağılacaqlarını düşünərlər. Halbuki, möminlərin öz aralarındakı birliyi maddi dəyərlər üzərində qurulmayıb. Onları bir arada saxlayan Allaha olan imanları, sədaqətləri və Allah qorxularıdır. Bu səbəbdən, münafiq xarakterli insanların bu məqsədlə etdiklərinin bir nəticəsi olmaz.

Münafiq xarakterli insanların göstərdikləri bu əxlaq sayəsində möminlərin mallarını Allahın rizası üçün infaq etmələrinin əhəmiyyəti aydın olur. İnfaq saleh bir möminlə inkar edən ya da münafiq xarakterli bir insanı bir-birindən ayırd edən ən vacib ibadətlərdən biridir. İnkar edənlərin, möminləri Allah yolundan azdırmaq üçün öz mallarından sərf etmələri isə, bu kəslərin ağılsız davranışlarının bir başqa nümunəsidir. Allah, bu kəslərin bu məqsədlə etdikləri xərclərinin özlərinə "ürək acısı" olaraq geri dönəcəyini Quranda belə bildirmişdir:

**Şübhəsiz ki, kafir olanlar insanları Allah yolundan sapdırmaq üçün öz mallarını sərf edirlər. Onlar onu sərf edəcək, sonra bunun peşmançılığını çəkəcək, daha sonra isə məğlub ediləcəklər. Kafir olanları cəhənnəmə toplayacaqlar. (Ənfal surəsi, 36)**

Bu insanlar infaq etməyin nə demək olduğunu, dəyərini, bu dünyada və axirətdə özlərinə verəcəyi qazancın fərqində deyillər. Sahib olduqları hər şeyin Allaha aid olduğunun şüurunda olmadıqları üçün bunları Allah yolunda xərcləməkdən daim çəkinərlər. Çəkinməsələr belə, etdikləri infaqı Allah rizası üçün yox, sadəcə öz mənfəətləri üçün və göstəriş məqsədi ilə edərlər. Bu kimsələr Allaha və Rəsuluna sevgi və bağlılıq göstərməli olduqları halda, Allahın özlərinə infaq etmələri üçün verdiyi maddi şeylərə bağlanırlar. Bu kimsələrdəki mal və zənginlik sevgisinin nə qədər güclü olduğunu özlərinə infaq etmələri xatırladıldıqda verdikləri cavabdan da aydın olur. Allah Quranda inkar edənlərin bu mövzudakı düşüncələrini belə bildirilmişdir:

**Onlara: "Allahın sizə verdiyi ruzidən sərf edin!"- deyildikdə kafirlər möminlərə deyirlər: "Allahın istədiyi təqdirdə yedirdəcəyi kimsəni bizmi yedirdəcəyik? Siz ancaq açıq-aydın azğınlıq içindəsiniz". (Yasin surəsi, 47)**

Yuxarıda təsvir edilən çoxlu mal yığma psixologiyası insanı sahib olduqlarını Allah yolunda xərcləmək kimi çox dəyərli bir ibadətdən uzaqlaşdırır. Digər tərəfdən infaq etmək iman gətirənlərin Allaha olan sədaqət və bağlılıqlarının göstəricisidir. Allah Quranda bağlılıqlarının çox güclü olması səbəbindən Allah yolunda infaq edəcək bir şey tapmayıb göz yaşı axıdan möminlərin əxlaqını örnək vermişdir:

**"Sizin üçün minik tapa bilmirəm"- dediyin zaman xərcləməyə bir şey tapa bilmədiklərindən ötrü kədərlənib gözləri dolmuş halda geri dönənlərin də heç bir günahı yoxdur. (Tövbə surəsi, 92)**

Allaha dərin sevgi və sədaqət duyan bir insan sahib olduğu və ya olacağı hər şeyi bu yolda sevərək və istəyərək xərcləyər. Bu səbəbdən də, infaq etmək Allahın **"O kəslərə ki, Allah anıldığı zaman qəlbi qorxuya düşər, başına gələnə səbir edər, namaz qılar və onlara verdiyimiz ruzidən Allah yolunda xərcləyərlər"** (Həcc surəsi, 35) ayəsi ilə bildirildiyi kimi, möminin ən mühüm xüsusiyyətlərindəndir. Möminlər Allahın özlərinə infaq etmələri üçün verdiyi bütün nemətləri Onun rizasını qazanmaq üçün xərcləyərək Allaha olan bağlılıqlarını və təslimiyyətlərini ən gözəl şəkildə göstərməyə çalışırlar.

Bununla yanaşı, möminlər üçün infaq etmək o ankı şərtlərə bağlı bir ibadət deyil. İnsan zənginlik içində olub infaq edəcək mal-mülkə sahib olduğunda bu ibadəti yerinə yetirməklə nə qədər məsuldursa, maddi imkanları məhdud olduğunda da eyni dərəcədə məsuldur. Ancaq Allah Özünə qəlbən bağlı olub xeyirə çağıran, ancaq infaq üçün bir şey tapa bilməyən möminlər üçün heç bir günahın olmadığını bu ayə ilə bildirmişdir:

**Allaha və Onun Elçisinə sadiq qalacaqları təqdirdə acizlərə, xəstələrə və vuruşmağa vəsait tapa bilməyənlərə evdə qalmaqda heç bir günah yoxdur. Yaxşı işlər görənləri danlamağa əsas da yoxdur. Allah Bağışlayandır, Rəhmlidir. (Tövbə surəsi, 91)**

Möminlər nə qədər çətin vəziyyətdə olsalar belə, əgər infaq edəcək bir şeyləri varsa, bunu sevə-sevə verərlər. Hansı şəraitdə olursa-olsun, bu məsuliyyətlərini mütləq yerinə yetirməyə çalışarlar. Bu səbəbdən, Allah bir ayədə möminlərdən **"O müttəqilər ki, bolluq zamanı da, qıtlıq zamanı da mallarından Allah yolunda xərcləyir..."** (Ali İmran surəsi, 134) deyə bəhs etmişdir. Başqa bir ayədə isə Allah düşdükləri vəziyyətdən asılı olmayaraq möminlərin infaq etməkdə qətiyyətli davrandıqlarını, gizli ya da açıq olaraq bu ibadəti yerinə yetirdiklərini bildirmişdir:

**Mallarını gecə və gündüz, gizli və aşkar xərcləyənlərin öz Rəbbi yanında mükafatı vardır. Onlara heç bir qorxu yoxdur və onlar kədərlənməyəcəklər. (Bəqərə surəsi, 274)**

İnfaq etməyin möminlərə qazandırdığı bir başqa gözəllik də bu ibadətin Allaha yaxınlaşmağa səbəb olmasıdır. Allah bir ayədə infaq etməyin bu hikmətini belə bildirmişdir:

**Bədəvilərdən eləsi də vardır ki, Allaha və Axirət gününə inanır, xərclədiyini Allah dərgahında yaxınlıq və Peyğəmbərin dualarına nail olmaq üçün vasitə sayır. Həqiqətən də,**

**bu, onlar üçün yaxınlaşmağa bir vasitədir. Allah onları Öz mərhəmətinə qovuşduracaqdır. Həqiqətən, Allah Bağışlayandır, Rəhmlidir. (Tövbə surəsi, 99)**

Möminlərin bu ibadətlərini "Allaha yaxınlaşmaq, elçinin dua və bağışlanma diləməsinə bir yol" olaraq görmələri nə qədər səmimi və təslimiyyətli olduqlarını göstərir. Möminlər sahib olduqları malları Allahın rizasını qazana biləcəkləri saleh əməllər üçün xərcləyər və bu yolla Allah şükür edib yaxınlaşmağa çalışarlar. Buna görə, infaq etmək həm Allaha olan sədaqətlərinin gücünü göstərərək imanlarını, həm də Allaha daha da yaxınlaşdıraraq təslimiyyətlərini artırır. Allah bir ayədə möminlərin mallarını "**Allahın razılığını qazanmaq və nəfslərini təmizləmək**" məqsədilə infaq etdiklərini bildirərək onların bu gözəl əxlaqını tərifləmişdir.

İnkar edənlərin dünya həyatında çox dəyər verdikləri, böyük sevgi və şəhvətlə bağlandıqları malları möminlər üçün Allahın rizasını qazanmaq üçün umduqları bir nemətdir. Sahib olduqları hər şeyin həqiqi sahibinin Allah olduğunu bildikləri üçün bu ibadəti yerinə yetirməkdə heç bir çətinlik çəkməzlər. Bütün bu nemətləri yalnız Allahın rizasını qazanmaq üçün böyük şövqlə xərcləmələri və infaq etməyi Allaha yaxınlaşmaq üçün bir vasitə görmələri möminlərin sədaqətlərinin ən gözəl təzahürüdür.

## Allah yolunda "doğru" istiqamətdədirlər

İnsanların düşüncələri və həyat tərzləri məqsədlərinə və hədəflərinə görə dəyişə bilir. Hər kəsin öz həyatından müəyyən gözləntiləri olduğundan, hər insan bunları əldə edə biləcəyi həyat tərzini mənimsəyir.

Məsələn, böyük bir şirkətin müdiri olmaq istəyən bir insan bu məqsədini reallaşdıra bilmək üçün universitetin idarəetmə fakültəsinə daxil olmalı və müdir olmaq üçün lazımi məlumatları bilməli və təcrübə qazanmalıdır. Həyatı boyu bu peşəni davam etdirəcəyindən, bu peşənin gətirəcəyi həyat tərzini mənimsəyəcək. Universitet professoru olmaq istəyən bir insan çox çalışacaq, bəlkə də, xaricdə illərlə yaşayıb təhsilini davam etdirəcək, hətta bunun üçün öz gəncliyindən, zövq və istəklərindən keçməli olacaq. Qısacası, insanlar öz məqsədlərinə uyğun həyat tərzi seçərək bütün həyatlarını bu məqsədlər üzərinə qururlar.

Əlbəttə, insanın dünya həyatında özünə bir sıra hədəflər seçməsi və bunlara çatmaq üçün cəhd etməsində heç bir yanlışlıq yoxdur. Yanlış olan bütün hədəflərinin sadəcə dünyəvi istəklərini qarşılayacaq olması və axirətini heç düşünməməsidir. İnsanın hədəfi yalnız dünyadırsa, həyatı yuxarıda təsvir etdiyimizdən fərqli olmayacaq. Allaha iman gətirməyən və axirət həyatından xəbərsiz yaşayan bir insan özü üçün planlaşdırdığı dünyəvi hədəflərə çatmaq üçün çalışacaq.

Məhz möminlərlə inkar edənlər arasındakı ən mühüm fərqlərdən biri də budur. Möminlər inkarçılardan fərqli olaraq bu dünyanın dəyərsizliyini və keçiciliyini çox yaxşı qavradıqları üçün heç bir halda dünyaya bağlanmazlar. Əlbəttə, dünya nemətlərindən ən gözəl şəkildə yararlanarlar. Ancaq möminlərin bu dünyadakı məqsədi Allaha qulluq etmək, Onun rizasını və rəhmətini qazanıb cənnətinə qovuşmaqdır. Bu səbəbdən, möminlər həyatlarını onlara Allahın rizasını qazandıracaq saleh əməllər etmək və Quran əxlaqını yaşamaqla keçirərlər. Allahın **"... Kim Allaha möhkəm bağlanarsa, həqiqətən də, doğru yola yönəlmiş olar"** ayəsi ilə də bildirildiyi kimi, Allaha çox möhkəm bağlandıqları üçün Allah onları Öz haqq yoluna yönəldər.

Möminlərin həyatı boyu yalnız Allahın onlara göstərdiyi yolu izləyən və **"...Ancaq Allahın haqq yolu doğru yoldur! Bizə əmr edilmişdir ki, aləmlərin Rəbbinə təslim olaq** (Ənam surəsi, 71) deyərək bu yolda "doğru" istiqamətdə olan insanlardır. "Doğru istiqamətdə olmaq" möminlərin həyatları boyu Allahın özlərinə göstərdiyi doğru yoldan əsla ayrılmadıqlarını ifadə edir. Şübhəsiz ki, bir insanın heç bir dünyəvi qazanc hədəfləmədən, özünü yalnız Allahın razılığını və sevgisini qazanmağa həsr etməsi, bu insanın Allaha olan güclü sədaqətini və bağlılığını çox açıq bir şəkildə ortaya qoyur. Allah Quranda möminlərin bu üstün əxlaqını örnək göstərərək mələklər tərəfindən cənnətlə müjdələndiklərini xəbər vermişdir:

**Həqiqətən də: "Rəbbimiz Allahdır!"- deyib sonra düz yol tutan kəslərə mələklər nazil olub (deyirlər:) "Qorxmayın və kədərlənməyin! Sizə vəd olunan Cənnətlə sevinin! (Fussilət surəsi, 30)**

**Həqiqətən də: "Rəbbimiz Allahdır!"- deyib sonra düz yol tutanlara heç bir qorxu yoxdur və onlar kədərlənməyəcəklər. (Əhqaf surəsi, 13)**

Möminlər Allahın rizasını hər şeydən üstün tutduqları üçün - Allahın diləməsi istisna olmaqla - doğru yoldan azmaları mümkün deyil. **"Allah onların qəlbinə imanı yazmış və onları Özündən bir ruhla dəstəkləmişdir"** (Mücadilə surəsi, 22). Möminlər Allahın onlara göstərdikləri bu yolla irəliləməkdən əsla geri çəkilməzlər. Buna bağlı olaraq duyduqları güclü sədaqət və təslimiyyət duyğusu ilə Allahın **"De: "Şübhəsiz ki, mənim namazım da, qurbanım da, həyatım da, ölümüm də aləmlərin Rəbbi olan Allaha məxsusdur"** (Ənam surəsi, 162) ayəsi ilə bildirildiyi kimi, bütün həyatlarını Allahın rizasını qazanmaq üçün yaşayarlar. Gördükləri hər işdə Allahı anar və o işi Allahın rizasını qazanmaq niyyəti ilə edərlər.

Bununla yanaşı, möminlər üzləşdikləri çətinliklərə qarşı ən gözəl tərzdə səbir edərək, daim Allaha dua edərək Allahdan yardım diləyərlər. Onlar üçün həyatları boyu bu yolda irəliləmək və Allahı razı edəcək əməllər və davranışlar göstərmək çox vacibdir. Möminlərin bu yoldakı istəkləri, şövqləri, gücləri, qətiyyətləri onların Allaha duyduqları dərin sədaqətin və təslimiyyətin göstəricisidir.

## Allaha ibadət etməkdə qətiyyət göstərərlər

Qətiyyət, hər hansı bir məqsədə çatmaq üçün maneə və çətinliklərə baxmayaraq, əzmli şəkildə edilməli olanları əksiksiz yerinə yetirməkdir. Bu mənada qətiyyət möminlərin həyatları boyu ehtiyac duyduqları və onlara Allahın rizasını qazandıran əsas əxlaqi xüsusiyyətlərdən biridir. Allah aşağıdakı ayədə möminləri ibadətlərində qətiyyətli olmaları barədə xəbərdar etmişdir:

**O, göylərin, yerin və onların arasında olanların Rəbbidir! Elə isə yalnız Ona ibadət et və Ona ibadətdə səbrli ol! Heç Ona oxşarını tanıyırsanmı?! (Məryəm surəsi, 65)**

Allah Quranda, Ona inanan möminlərin həyatları boyu uymaları lazım olan bütün əmr və qadağaları bildirmiş və dünya həyatında yaşamalı olduqları imani kamilliyi və əxlaqi xüsusiyyətləri onlara açıqlamışdır. Hər müsəlman Qurandan məsul olduğunu və Allahın rizasını qazanmanın vacibliyini bildiyi üçün Allahın ona endirdiyi bütün əmr və qadağalara tabe olar və bu dünyada cənnətə layiq bir əxlaqa çatmağa çalışar. Möminlər Allaha ən gözəl şəkildə qulluq edərək Allahın razı olacağını umduğu düşüncə və davranışlarda olar.

Allah Quranın bir çox ayəsində möminlərin etməli olduqları ibadətləri bildirmişdir. Möminlər bu barədə əsla tənbəllik göstərməzlər. Bütün ibadətləri sevərək və şövqlə ən gözəl tərzdə yerinə yetirərlər. Allah möminlərin bu mövzudakı qətiyyətlərini Quranda belə xəbər vermişdir:

**O kəslər ki, nə ticarət, nə də alış-veriş onları Allahı zikr etməkdən, namaz qılmaqdan və zəkat verməkdən yayındırmır. Onlar qəlblərin və gözlərin çevriləcəyi bir gündən qorxurlar. (Nur surəsi, 37)**

Möminlər Allahın **"Onların nə əti, nə də qanı, Allaha çatmaz. Ona yalnız sizin təqvanız çatar. Sizi doğru yola yönəltdiyinə görə Onu uca tutasınız deyə, bu heyvanları sizə beləcə ram etdi. Sən isə yaxşılıq edənləri müjdələ!** (Həcc surəsi, 37) ayəsində bildirildiyi kimi,

etdikləri ibadətləri Allah qatında əsl dəyərli edənin onların qəlblərindəki niyyət olduğu bildirilir. Bu səbəbdən də, ixlas və səmimiyyətlə hərəkət etməyə çox diqqət edirlər.

Möminlər ibadətlərindəki bu qətiyyəti Allahın razı olduğu və ayələrdə tərif etdiyi üstün əxlaqa çatmaq üçün göstərirlər. Möminlərin bu barədə göstərdikləri qətiyyət və qərarlılıq gözəl əxlaqı yaşaya bilmək üçün öz nəfslərinə qarşı verdikləri səmimi mübarizədən də aydın olur.

Allah dünya həyatındakı imtahanın tələbi olaraq insana iki yol göstərmişdir: doğru və yanlış yol. Möminlər həyatları boyu gözəl əxlaq göstərə bilmək üçün nəfslərindəki bu yanlış yola düşməkdən çəkinirlər. Məsələn, mömin əsəbləşəcəyi hər hansı bir halla qarşılaşdıqda qətiyyət göstərərək əsəbini boğar və bağışlayıcı olar. Təkəbbürlü biri ilə qarşılaşdığında ona eyni tərzdə qarşılıq verməz, qətiyyət göstərər və təvazökarlığını qoruyar. Rəbbimiz Quranda **"Doğrusu, nəfslər qısqanclıq və eqoistlik etməyə hazırdır"** (Nisa surəsi, 128) deyə buyurmuş və nəfsimizin eqoist istəklərinə qarşı diqqətli olaraq gözəl əxlaqda qətiyyət göstərməyimizi əmr etmişdir. Allahın bildirdiyi əxlaqı yaşayan insan comərd, paylaşmağı sevən və özündən çox insanları düşünən birinə çevrilər. Hər şəraitdə qətiyyətini qoruyar və ətrafındakılara hər zaman sözün ən gözəlini söyləyər.

Möminlər Quran əxlaqına böyük hörmətlə bağlıdırlar. Həyatları çətinlik və sıxıntı içində keçsə də, bolluq və rifah içində yaşasalar da, Quran əxlaqından əsla geri addım atmazlar. Allah Quranda **"O kəslər ki, onlara bir müsibət üz verdikdə: "Biz Allaha məxsusuq və Ona da qayıdacağıq!"-deyirlər** (Bəqərə surəsi, 156) ayəsi ilə bildirdiyi kimi, Allaha olan bağlılıqlarını və təslimiyyətlərini heç bir zaman itirməzlər. Möminlərin bu şəkildə hərəkət etmələri onlara güclü xarakter qazandırdığı kimi, imanlarını da kamilləşdirir. Allah Quranda iman edənlərin bu üstün əxlaqını və Allaha olan sədaqət və təslimiyyətlərini bu şəkildə tərifləmişdir:

**Yaxşı işlər görərək Allaha təslim olan və hənif olaraq İbrahim dininin ardınca gedən şəxsdən din baxımından daha gözəl kim ola bilər? Allah İbrahimi sevimli dost tutmuşdur. (Nisa surəsi, 125)**

Allah Quranda dininə təslim olan hz. İbrahimi tərifləmiş və onun dostu olduğunu bildirmişdir. Allah möminlərin hər şəraitdə dəyişməyən təslimiyyətli davranışları və Ona bağlılıqlarını Quranda belə xəbər vermişdir:

**Əgər onlara yer üzündə hökmranlıq versək, onlar namaz qılar, zəkat verər, yaxşı işlər görməyi əmr edib, pis işlər görməyi qadağan edərlər. Bütün işlərin aqibəti Allaha aiddir. (Həcc surəsi, 41)**

Möminlərin Quran əxlaqını yaşamadakı qətiyyətlərini göstərən bir digər əlamət də Allah rizasını qazanmaqda qətiyyətli davranmalarıdır. Möminlər daim Allahın rizasını qazanmağı düşünür və bunun üçün saleh əməllər edirlər. Allahın sevdiyi və rəhmət etdiyi bir qul olmağı qəlbən arzulayırlar. Həyatları boyu Allahı vəkil tutar, din əxlaqını yalnız Allah üçün yaşayarlar. Möminlərin heç bir zəifliyə qapılmadan daim imanlarını artırmağa çalışmaları Allaha duyduqları sədaqətin onlara böyük qətiyyət qazandırdığını göstərir.

## Axirət üçün "ciddi səy" göstərərlər

Möminlərin Allahın rizasını və cənnətini qazanmaq üçün həyatları boyu "ciddi səy" göstərmələri onların Allaha olan sədaqətlərinin sübutudur. Rəbbimiz Quranda möminlərə Allahın rizasını və axirətini qazanmaq üçün "ciddi səy" göstərməklə məsul olduqlarını buyurmuşdur. Möminlər həm öz nəfslərini imani cəhətdən kamilləşdirmək, həm də Allahın Quranda təsvir etdiyi gözəl əxlaqı insanlara anlatmaq üçün "ciddi səy" göstərərlər. Möminlərin göstərdikləri cəhd onların Allaha olan təslimiyyətlərinin verdiyi güc və əzm sayəsində ortaya çıxır. Allaha qarşı duyduqları iman nə qədər güclü olarsa, Allahın onların qəlblərinə verəcəyi şövq və həyəcan da o qədər qüvvətli olacaq. Allah Quranda möminlərə Onun yolunda ciddi səy göstərmələrini belə bildirmişdir:

**Kim də Axirəti istəsə, mömin olaraq bütün qəlbi ilə ona can atsa, onların səyi məmnuniyyətlə qəbul olunar. (İsra surəsi, 19)**

Beləliklə, möminlər öz nəfslərini Allahın razı olacağı hala salmaq üçün ciddi səy göstərərlər. İnkar edən bir kimsənin iman etmədiyi müddətcə öz nəfsi ilə mübarizə aparması və bunda həyatı boyu qərarlı olub ciddi səy göstərməsi mümkün deyil. İnsanların bir qismi həyatlarını Quran əxlaqından uzaq, tamamilə öz istək və həvəslərinə görə yaşayarlar. İçlərindəki bu istəkdən əsla əl çəkmədikləri üçün Allahın rizasına görə həyat yaşamağa çalışmazlar.

Nəfsin, iman etməyən insanlar üzərindəki məcburedici təsirinin olduğunu bildikdən sonra möminlərin öz nəfsləri ilə apardıqları mübarizənin böyüklüyü də ortaya çıxır. İnkar edənlər öz nəfslərinin istəklərinə məğlub olduqları halda, möminlər Allaha iman gətirdikləri

və Ona qəlbən bağlı olduqları üçün nəfsləri ilə ən gözəl şəkildə mübarizə aparacaq güc və istəyə sahibdirlər. İnsanın öz həvəs və istəklərinə görə yox, sadəcə Allahın istədiyi şəkildə hərəkət etməyə çalışması, şübhəsiz ki, sadəcə Rəbbimizə qarşı qəlbən duyulacaq bağlılıqla mümkündür. Möminlər, Allahın **"Ey iman gətirənlər! Nəfslərinizi qorumaq sizin borcunuzdur."** (Maidə surəsi, 105) ayəsinin hökmünə əsasən, dünyadakı ən böyük məsuliyyətlərindən birinin öz nəfsələrini tərbiyə etmək olduğunun fərqindədirlər. Həyatları boyu daim pisliyi əmr edən və Allahın rizasından uzaqlaşdırmağa çalışan bu azğın güclə mübarizə aparırlar. Nəfslərinin aldanışlarına qarşı diqqətləri tam açıq olduğundan Allahın rizasına uyğun olmayan hərəkətlərdən şiddətlə çəkinərlər. Məqsədləri Allahın rizasını qazanmaq olduğundan Allahın, "**İnsanların eləsi də var ki, Allahın razılığını qazanmaq üçün canını da verər. Allah Öz qullarına qarşı şəfqətlidir**" (Bəqərə surəsi, 207) ayəsi ilə bildirildiyi kimi, öz nəfslərini arxa planda tutaraq daima Allahın rizasına uyğun hərəkət edərlər. Möminlərin nəfslərini Allahın razı olacağını umduqları bir hala gətirmək üçün göstərdikləri bu səmimi və təslimiyyətli səy Allaha qarşı bir ömür boyu qətiyyətlə göstərdikləri sədaqətin gözəl nümunəsidir. Möminlər bu yolda hər zaman qazanclıdırlar. Allah onları öz rəhməti və köməyi ilə dəstəkləyir və hər işlərini də xeyirlə sonlandırır.

Möminlər nəfslərinə qarşı göstərdikləri ciddi səylə yanaşı Allahın seçib bəyəndiyi, insan üçün ən uyğun həyat tərzi olan İslam əxlaqını insanlara anladaraq yaymaq və beləliklə, dünya üzərində fitnə və fəsadın sona çatması üçün də böyük cəhd göstərərlər.

Tarix boyu inkar edənlər haqq dinlərə, bu səbəbdən də, möminlərə və peyğəmbərlərə qarşı olmuşlar. Onların fəaliyyətlərinin qarşısını almağa və müxtəlif böhtanlar ataraq onları insanların gözündə alçaltmağa çalışmışlar. Hətta onlara fiziki hücumlar etmiş və güc tətbiq etməkdən də geri qalmamışlar. İman gətirənlər və peyğəmbərlər yer üzündə sülh və əmin-amanlığı bərqərar etmək, inkar edənlərin fikri və fiziki hücumlarının qarşısını almaq üçün çox böyük cəhd göstərmiş və bu yolda çətinlik və əks hücumlara məruz qalmışlar. Müxtəlif böhtanlar atılaraq olduqları şəhərdən sürgün edilmişlər. Ancaq bütün bu çətinliklərə baxmayaraq, Quran əxlaqını yaşamaqdan əsla geri dönməmiş, qınanmaqdan qorxmamış və haqsız yerə edilən təyziqlərdən təsirlənməmişlər.

Çətinliklər iman edənləri heç bir zaman zəiflətməmiş, əksinə, daha şövqlü və güclü hala gətirmişdir. Onlar Allahın "**Yer üzü islah olunduqdan sonra orada fəsad törətməyin. Allaha qorxu və ümidlə yalvarın. Həqiqətən, Allahın mərhəməti yaxşılıq edənlərə yaxındır**" (Əraf surəsi, 56) ayəsi ilə bildirdiyi kimi, yer üzündə ədalət, hüzur və xoşbəxtliyin bərqərar olması üçün heç bir fitnə və fəsada yer olmadığının fərqindədirlər. Bunun sadəcə Quran əxlaqının yaşanması ilə reallaşa biləcəyini bildikləri üçün Quran əxlaqını insanlara anlatmaq üçün səmimi şəkildə cəhd edərlər.

Peyğəmbərimiz də "Möminin tərəzisində ən ağır basacaq şey gözəl əxlaqdır. Mütləqdir ki, Allah Təala işi və özü çirkin olan və həyasızca danışan kimsəni sevməz" (G. Ahmed

Ziyaüddin, Ramuz El Hadis, 1-ci cild, Gonca Nəşriyyat, İstanbul, 1997, 15/9) və "Ruhumu qüdrəti altında saxlayan Rəbbimə and olsun ki, cənnətə sadəcə gözəl əxlaq sahibləri girər" (Tirmizi; Huccetü'l İslam İmam Gazali, İhya'u Ulum'id-din, 2-ci cild, Tərcümə: Dr. Sıtkı Gülle, Huzur Nəşriyyat, İstanbul 1998, s.792) hədisi ilə gözəl əxlaqın əhəmiyyətinə diqqət çəkmiş və möminləri bu barədə səmimi cəhd etməyə dəvət etmişdir.

Allahın və Peyğəmbərimiz (s.ə.v)-in gözəl əxlaq barədə tövsiyələrini bilən möminlər həm öz nəfslərinə qarşı mübarizə aparmaq, həm də Quran əxlaqını insanlara anlatmaq üçün ciddi qətiyyət göstərirlər. Onların bu yolda bütün həyatlarını və sahib olduqları hər şeyi fəda edə biləcək qətiyyət göstərmələri ancaq Qurana möhkəm sarılmaları və Allaha qarşı sədaqət və bağlılıq duyğusu içində olmaları ilə mümkün ola bilər. Allah Quranda möminlərin Allaha verdikləri sözü tutaraq Ona olan sədaqətlərini sübut etdiklərini belə bildirir:

**Möminlərin içərisində Allaha etdikləri əhdə sadiq qalan kişilər vardır. Onlardan kimisi əhdini yerinə yetirib şəhid olmuş, kimisi də şəhid olmasını gözləyir. Onlar (əhdlərini) əsla dəyişdirməyiblər. (Bu ona görədir) ki, Allah doğru danışanları doğruluqlarına görə mükafatlandırsın, münafiqlərə də ya istəsə əzab versin, ya da onların tövbələrini qəbul etsin. Həqiqətən, Allah Bağışlayandır, Rəhmlidir. (Əhzab surəsi, 23-24)**

## Peyğəmbərə sadiqdirlər

### Peyğəmbərin Allahın elçisi olduğuna iman edərlər

Allah bütün dövrlərdə insanlara özlərinə dini təbliğ etməsi, bilmədiklərini öyrətməsi və onları təmizləyib paklandırması üçün Özündən rəhmət olaraq peyğəmbərlər göndərmişdir. Peyğəmbərləri digər insanlardan fərqləndirən şey onların Allahın xüsusi olaraq vəzifələndirdiyi, yəni seçdiyi insanlar olmalarıdır. Bu səbəbdən, peyğəmbərlər möminlər üçün çox dəyərli insanlardır. Möminlər Allaha qarşı bütün qəlbləri ilə bağlı olduqları üçün Allahın onlara rəhmət olaraq göndərdiyi peyğəmbərlərə qarşı da dərin sevgi və hörmət bəsləyir, onlara da güclü sədaqət və bağlılıq göstərirlər. Peyğəmbərlərlə əlaqədar söhbətlərində və davranışlarında çox sevgi və hörmət dolu üslub istifadə edərlər.

Həmçinin, möminlər Allahın elçilərinə iman gətirib sədaqət göstərmənin Allahın əmri olduğunu da bilirlər. Peyğəmbərlər, Allahın dinini təbliğ edən və iman gətirənlərin örnək aldıqları kimsələrdir. Özlərinə verilən bu böyük məsuliyyət peyğəmbərlərin imanlarının çox üstün və güclü olduğunu göstərir. Bu səbəbdən, möminlərin Allahın elçisinə sadiq qalmaları, onun tövsiyələrinə əməl etmələri onlara böyük qazanc gətirir. Allah Quranda Ona və Rəsuluna tabe olan kimsələrin axirətdə üstün qarşılıq görəcəklərini bildirmişdir:

**Allaha və Onun elçilərinə iman gətirənlər – məhz onlar doğru olanlardır. Şəhidlər isə öz Rəbbi yanındadırlar. Onların öz mükafatları və öz nurları vardır. Kafir olub ayələrimizi yalan sayanlara gəlincə onlar cəhənnəm sakinləridir. (Hədid surəsi, 19)**

Başqa bir ayədə isə Allah, Peyğəmbərimiz (s.ə.v)-ə sadiq qalaraq onun yolunu izləyən kimsələri belə müjdələmişdir:

**O kəslər ki, yanlarındakı Tövrat və İncildə haqqında yazılmış olduğunu gördükləri elçinin – yazıb-oxumaq bilməyən peyğəmbərin ardınca gedərlər. O peyğəmbər onlara yaxşı işlər görməyi buyurar, pis əməlləri isə qadağan edər, onlara pak şeyləri halal, murdar şeyləri isə haram edər. Onların ağır yüklərini yüngülləşdirər və onları buxovlardan xilas edər. Ona iman gətirən, onu dəstəkləyən, ona kömək edən və onunla göndərilmiş nurun ardınca gedənlər isə nicat tapanlardır". (Əraf surəsi, 157)**

Allahın Rəsuluna sadiq olan, onun yolunu izləyən möminlər dünyada böyük rahatlığa və hüzura qovuşacaqlar. Bu da onların güc və imanlarına iman qatıb artıracaq və -Allahın izni ilə- Allahın rəhmətini və cənnətini qazanmalarına səbəb olacaqdır.

## Peyğəmbərə itaət edərlər

İman edənlərin peyğəmbərlərə olan sədaqətlərinin ən önəmli göstəricilərindən biri onların Allahın elçiləri olduğunu bilərək sözlərinə ən gözəl şəkildə itaət etmələridir. Allah Quranın bir çox ayəsi ilə inanan kimsələri peyğəmbərlərə itaət etməyə çağırmışdır. Peyğəmbərlər isə hər dövrdə yaşadıqları cəmiyyətləri Allaha və özlərinə itaət etməyə dəvət etmiş, dünyada və axirətdə qurtuluşlarının yalnız bu əxlaqı göstərmələri ilə mümkün olacağını xatırlatmışdır.

Möminlərin Allaha və elçisinə qarşı itaətkar olmaları onların Allaha qarşı olan sədaqətlərinin nəticəsidir. Allah möminlərin, elçilərin hökmləri qarşısında Allaha təslimiyyətlərini belə dilə gətirdiklərini bildirmişdir:

**Aralarında hökm vermək üçün Allahın və Onun Elçisinin yanına çağırıldıqda möminlərin sözü ancaq: "Eşidirik və itaət edirik!"- demələridir. Nicat tapanlar da məhz onlardır. (Nur surəsi, 51)**

Bu səbəbdən, ancaq səmimiyyətlə yaşana bilən sədaqət də yenə sadəcə möminlərin göstərə biləcəkləri bir davranışdır. Allah Quranın bir çox ayəsində itaətin vacibliyini və bu əxlaqın möminlərə qazandırdığı gözəllikləri xəbər vermişdir. **“Allaha və Peyğəmbərə itaət edin ki, bəlkə, sizə rəhm olunsun”** ayəsi ilə Allah elçilərə olan itaətin möminlərə Allahın mərhəmətini qazandıracağını bildirmişdir. Bu səbəblə, möminlər üçün bu mövzu çox əhəmiyyətlidir. Allahın **“De: “Allaha və Elçiyə itaət edin!” Əgər üz döndərərlərsə, şübhəsiz ki, Allah kafirləri sevməz** (Ali İmran surəsi, 32) ayəsi ilə bildirildiyi kimi, bunun özlərinə Allahın rizasını qazandıracaq bir davranış olduğunu bilərək bu mövzuya çox diqqətlə yanaşırlar.

Allah Quranda möminlərin elçilərə olan sədaqətlərini və itaət barəsindəki qətiyyətlərini belə bildirmişdir:

**Möminlər ancaq Allaha və Onun Elçisinə iman gətirən kimsələrdir. Onlar ümumi bir işə görə Peyğəmbərlə bir yerdə olduqda ondan izin almamış heç yerə getmirlər. Səndən izin istəyənlər, sözsüz ki, Allaha və Onun Elçisinə iman gətirənlərdir. Əgər onlar bəzi işləri üçün səndən izin istəsələr, onlardan istədiyin kəsə izin ver və onlar üçün Allahdan bağışlanma dilə. Həqiqətən, Allah Bağışlayandır, Rəhmlidir. (Nur surəsi, 62)**

Allahın ayədə diqqət çəkdiyi kimi, möminlərin Onun Rəsulundan icazə almadan bir iş görməmələri Ona qarşı duyduqları dərin bağlılığın və sədaqətin açıq dəlillərindən biridir. Möminlərin göstərdikləri bu təslimiyyətli davranış onların Peyğəmbərimiz (s.ə.v)-in sözlərinə və Onun verəcəyi hökmə nə qədər əhəmiyyət verdiklərini və onun hər hansı bir mövzuda etdiyi dəvətə dərhal itaət etdiklərini göstərir. Allah digər bir Quran ayəsində möminlərə Peyğəmbərimiz (s.ə.v)-in özlərinə “həyat verəcək” şeylərə etdiyi dəvətə qarşılıq vermələrini buyurmuşdur:

**Ey iman gətirənlər! Peyğəmbər sizi həyat verəcək şeylərə çağırdığı zaman Allahın və Peyğəmbərinin çağırışına cavab verin. Bilin ki, Allah insanla onun qəlbi arasındadır və siz Onun hüzuruna toplanılacaqsınız. (Ənfal surəsi, 24)**

Allahın elçilərinə itaət möminlərə dünyada və axirətdə böyük qazanc və onları xeyirlərə çatdıran mühüm bir ibadətdir. Peyğəmbərimiz (s.ə.v)-in “Sizə iki şey buraxıram. Bunlara tabe olduğunuz müddətcə əsla azmayacaqsınız: Allahın kitabı və Rəsulun sünnəsi” hədisində də bildirildiyi kimi, müsəlmanların ən vacib iki yol göstəricisi Quran və Peyğəmbərimizin sünnəsidir. (Kütüb-i Sitte, Muhtasarı tərcümə və şərhi, Prof. Dr. İbrahim Canan, 2-ci cild, Akçağ Nəşrləri, Ankara, s. 328).

Dövrümüzdə Peyğəmbərimiz (s.ə.v)-ə itaət isə onun əxlaqını ən gözəl şəkildə örnək alıb tətbiq etmək və onun yolunu izləməklə mümkündür.

## Qurana sadiqdirlər

Allah müxtəlif dövrlərdə bir çox qövmə elçilər və peyğəmbərlər göndərmiş və Öz qatından haqq kitablar endirmişdir. Allah hz. Davuda Zəburu, hz. Musaya Tövratı, hz. İsaya İncili və son olaraq da hz. Məhəmməd (s.ə.v)-ə Quranı endirmişdir. Qurandan əvvəl endirilmiş kitablar təhrif edildiyinə görə Allah Quranı son kitab olaraq endirmiş və onun dəyişdirilməyəcəyini və onu qoruyacağını vəd etmişdir. Quran Allaha və rəsuluna iman edən hər insanın özünə rəhbər biləcəyi  tək kitabdır.

Möminlər Qurana görə hərəkət edərlər, ancaq Qurandan əvvəl endirilmiş haqq kitablara da inanar və hörmət edərlər. Çünki Allahın **"O, sənə Kitabı həqiqət olaraq ondan əvvəlkiləri təsdiqləməsi üçün nazil etdi"** (Ali İmran surəsi, 3) ayəsində bildirildiyi kimi, Quran daha əvvəl göndərilmiş ilahi kitabları təsdiq edir. Buna bağlı olaraq bir mömin göndərilən bütün elçilərə də inanaraq Allahın **"Ey iman gətirənlər! Allaha, Onun Elçisinə və Elçisinə nazil etdiyi Kitaba və ondan əvvəl nazil etdiyi kitablara iman gətirin!** (Nisa surəsi, 136) ayəsi ilə bildirildiyi kimi, heç birini digərindən ayırmaz. Ancaq möminlər Allahın qoruması altında olduğunu bildirdiyi Quranı özlərinə yol göstərici seçmişlər. Allah Quranda heç bir təhrifin olmadığını və qiyamətə qədər də qorunacağını bildirmişdir. Hicr surəsində Rəbbimiz belə buyurmuşdur:

**Şübhəsiz ki, Zikri Biz nazil etdik, əlbəttə, Biz də onu qoruyacağıq.  (Hicr surəsi, 9)**

Rəbbimizin mesaji olan Quran möminlər üçün çox əhəmiyyətlidir. Mömin Allahın özü üçün seçib bəyəndiyi dini və özünə əmr etdiyi məsuliyyətləri Qurandan öyrənir. Ehtiyac duyduğu ağıl üçün möminin bələdçisi yenə Qurandır. Həyatı boyu qarşısına çıxacaq bütün hadisələrdə hərəkətlərini Allahın Quranda bildirdiyi əmr və tövsiyələrə görə yönləndirir. Allah Quranın tək rəhbər olduğunu müsəlmanlara belə bildirmişdir:

**"...Biz Kitabı sənə hər şey üçün bir izah, müsəlmanlara da doğru yolu göstərən rəhbər, mərhəmət və müjdə olaraq nazil etdik". (Nəhl surəsi, 89)**

**"Bu (Quran), insanlar üçün bir bildirişdir. Qoy onunla həm qorxsunlar, həm Allahın Tək İlah olduğunu bilsinlər, həm də ağıl sahibləri düşünüb ibrət alsınlar. (İbrahim surəsi, 52)**

Möminlər Allahın özlərinə öyüd verdiyi əxlaqı, əmrləri, qiyamət günündə və axirət həyatında qarşılaşacaqları həqiqətləri sadəcə Qurandan öyrənib, məlumat sahibi olurlar. Allahın **"Biz bu Quranda insanlar üçün hər cür məsəli ətraflı izah etdik"** (Kəhf surəsi, 54) ayəsi ilə bildirildiyi kimi, bir möminin həyatı boyu ehtiyacı olan bütün məlumatlar Quranda mövcuddur. Buna görə də möminlər daim Quran oxuyar, Allahın ayələrinə iman gətirər və qarşılaşdıqları hər hadisəni Qurana görə dəyərləndirər. Allahın Quran ilə bildirdiyi hər şey möminlər üçün "**bir hikmətdir"** (Qamər surəsi, 5). Bu səbəbdən, möminlər Qurana "çox möhkəm sarılar" və Allahın bildirdiyi bütün hökmləri diqqətli şəkildə tətbiq etməyə çalışarlar. Allah möminlərin Qurana olan bu güclü bağlılıqlarını belə bildirmişdir:

**Kitab verdiyimiz kəslər onu layiqincə oxuyurlar. Onlar ona iman gətirənlərdir. Onu inkar edənlər isə ziyana uğrayanlardır. (Bəqərə surəsi, 121)**

**Kitabdan möhkəm yapışanlara və namaz qılanlara gəlincə Biz yaxşı işlər görənlərin mükafatını puç etmərik. (Əraf surəsi, 170)**

Allahın **"Rəbbinin kəlamı həm doğruluq, həm də ədalət baxımından tamamlanmışdır. Heç kəs Onun kəlmələrini dəyişə bilməz. O, Eşidəndir, Görəndir"** (Ənam surəsi, 115) ayəsi ilə bildirildiyi kimi, Quran doğruluq və ədalət baxımından əksiksizdir. Bu səbəbdən, Quranı özünə rəhbər edən möminlər həyatlarının hər anında olduqca ən gözəl, ən hüzurlu və ən xoşbəxt şəkildə yaşayarlar.

Möminlərin Allahın onlara "hidayət, öyüd və şəfa" olaraq endirdiyi Qurana möhkəm bağlanmaları, onların imanlarını və Allah qorxularını artırır və Allaha yaxınlaşdırır. Allah Quranda bu həqiqəti belə xəbər vermişdir:

**De: "İstər ona inanın, istərsə də inanmayın. Doğrudan da, ondan əvvəl özlərinə elm verilmiş kimsələrə, (ayələr) oxunduğu zaman üzüstə səcdəyə qapanır və: "Rəbbimiz pak və müqəddəsdir! Rəbbimizin vədi mütləq yerinə yetəcəkdir!"- deyirlər. Onlar üzüqoylu düşüb ağlayır və bu ayələr onların itaətini artırır. (İsra surəsi, 107-109)**

## Dövlətə və millətə sadiqdirlər

İman edən hər insanda olduğu kimi, ölkəmizdə də inanclı insanların dövlətimizə və millətimizə qarşı sadiq və itaətkar olmalarının əsas səbəbi Allahın Quranda bildirdiyi gözəl əxlaqı mənimsəmiş olmalarıdır. Quran əxlaqını yaşayan kimsələrin dövlətimizə bağlı olmalarının səbəbi də dövlətin bir parçası olmalarıdır.

Dövlət ortaq həyatı və mədəniyyəti olan bir cəmiyyəti formalaşdırmaq, qorumaq, rifah və hüzuru təmin etmək kimi məqsədləri olan və bu məqsədlərə çatmaq üçün ən ədalətli idarəetmə quruluşu olan qurumdur. Bu tərifdən də aydın olur ki, bir ölkədə olan insanların xoşbəxt, hüzurlu və rahat yaşaya bilmələri, milli birlik və bərabərliyin təmin edilməsi və nəticədə ölkədə nizamın və sakitliyin olması üçün dövlətin gücünə və nüfuzuna ehtiyac var. Dövlət ölkənin və millətin varlığı üçün ən önəmli qurumdur. İstər ölkənin təhlükəsizliyində, istər əmin-amanlıq və sülhün təmin edilməsində, istərsə də iqtisadi və sosial həyatda dövlətin rolu və əhəmiyyəti çox böyükdür.

Bu səbəblə, ölkəyə zərər vermək istəyən hər qrup əvvəlcə dövləti və dövlət hakimiyyətini hədəf alır. Tarix boyu parçalayıcı ideologiyaya sahib müxtəlif qruplaşma və kimsələr dövlətin mövcud nüfuzundan narahat olmuş və hər fürsətdə dövləti zəiflətmək və gücünü qırmaq üçün müxtəlif işlər görmüşlər.

Dövlətin fərqli sahələrdəki müdaxiləsindən və fəaliyyətlərindən narahat olan bu kimsələrin fikirlərini və məqsədlərini araşdırdıqda hamısının ortaq bir nöqtədə birləşdiyini görürük: Dini və dinin meydana gətirdiyi gözəl əxlaqı ortadan qadırmaq. Dövlət əleyhdarları olan bu kimsələr dövlətin unitar quruluşunu dağıdıb öz dinsiz ideologiyalarına görə formalaşdırdıqları bir sistemi yerləşdirməyə çalışırlar. Dinsizliyi mənimsədikləri üçün problemləri daim qəzəb və zorakılıqla həll etməyə çalışır və ölkədəki hüzuru və balansı pozmağı hədəfləyirlər. Şübhəsiz ki, bu vəziyyət həm ölkə, həm də ölkədə yaşayan insanlar üçün böyük təhlükə və təhdiddir. Bu səbəbdən, təhlükənin qarşısını almaq, sülh və hüzuru mühafizə etmək üçün hər vətəndaş dövlətə hörmət və bağlılıq göstərərək itaət etməlidir.

Ancaq bütün bunlardan daha vacib olan üzərində durulmalı bir nöqtə də var ki, bu da dövlətə itaətin, cəmiyyətdə görülən əxlaq anlayışına bağlı olmasıdır. Bir cəmiyyətdə mənfəətpərəstlik, üsyankarlıq, özbaşınalıq və hər şəraitdə ortaya çıxan "degenerasiya" qəbul edilsə, sevgi, şəfqət, fədakarlıq, ədalət və tolerantlıq kimi anlayışlar tərk edilsə, bu vəziyyətdə o cəmiyyətin vətəndaşlarının da dövlətə bağlı olduqları düşünülə bilməz. Bu səbəbdən də, dövlətə bağlılığın təməlində gözəl əxlaq dayanır. Quran əxlaqını yaşayan kimsələr bu həqiqətin şüurunda olan insanlardır. Mənəvi dəyərlərə bağlılıq və Quran əxlaqını yaşamaqla bərabər həm dövlət, həm də millətə bağlılığı gətirəcəyinin və nəticədə əhalinin həyat səviyyəsinin yüksələcəyinin fərqindədirlər.

Möminlər bu həqiqətin şüurunda olaraq böyük şövq və istəklə insanlara Quran əxlaqını anlatmağa çalışır və Quran əxlaqını yaşamağa dəvət edirlər. Belə bir cəhdin ölkənin və millətin xeyrinə olması onların bu mövzudakı istək və şövqlərinin əsas qaynağıdır.

Quran əxlaqının möminlərə və insanlara verəcəyi başqa bir gözəllik də itaətdir. Quran əxlaqı insanlara itaət xüsusiyyəti qazandırdığından Quran əxlaqının tətbiqi və insanlara izah edilməsi, dövlətin güclənməsində, əmin-amanlığın və hüzurun bərpa olunmasında çox əhəmiyyətlidir. Quran əxlaqının tətbiqi və yayılması dövlətin və millətin varlığı və birliyi üçün olduqca əhəmiyyətlidir. Bunun sayəsində, Quran əxlaqına görə yaşayan insanların yaratdığı cəmiyyət həm gözəl əxlaq göstərərək milli birliyi və bərabərliyi təmin edəcək, həm də dövlətə itaətin ən yüksək səviyyədə yaşandığı bir yerə çevirəcəkdir. İnsanlar daha mərhəmətli, şəfqətli, daha ədalətli və tolerant olacaq. Bu da milli birlik və bərabərliyi möhkəmləndirəcəkdir. Quran əxlaqının yayılması, hər bir vətəndaşın Quran əxlaqını yaşaması hər cür anarxiya, terror və əxlaqsızlığın ortaya çıxardığı degenerasiyanı aradan qaldıracaq və sülh, nizam və hüzur mühiti gətirəcəkdir. Allah Quranın bir çox ayəsində insanların formalaşdırdığı anarxiya və qarışıqlığı "fəsad" olaraq adlandırmış və insanların bundan çəkinmələrini əmr etmişdir:

**...Allahın sizə verdiyi ruzidən yeyin-için və yer üzündə fəsad yayıb pis işlərə qurşanmayın! (Bəqərə surəsi, 60)**

**O dönüb getdikdə yer üzündə fitnə-fəsad törətməyə, əkinləri və nəsilləri məhv etməyə çalışar. Allah isə fitnə-fəsadı sevmir. (Bəqərə surəsi, 205)**

**...Elə isə ölçüyə və çəkiyə tam riayət edin, insanların əşyalarını əksik verməyin və yer üzü islah olunduqdan sonra orada fəsad törətməyin. Əgər möminsinizsə, bu sizin üçün daha xeyirlidir. (Əraf surəsi, 85)**

Göründüyü kimi, iman edən kimsələr Quran əxlaqını yaşadıqları üçün dövlətə və millətə bağlı olan və böyük hörmət bəsləyən kimsələrdir. Dövlətin güclənməsi, milli birliyin və bərabərliyin təmin olunması üçün Quran əxlaqını insanlara izah edən və bu gözəl əxlaqı yaşamağa dəvət edən möminlər bundan böyük şərəf və xoşbəxtlik duyurlar.

# Quranda möminlərin göstərdikləri sədaqət nümunələri

## Kəhf əhli

Allah Quranda yer alan Kəhf hekayəsində, inkarçı qövmlərindən ayrılan iman sahibi gənclərin Allaha ibadətdə qətiyyət göstərərək ibadət etmək üçün yaşadıqları yerdən uzaqlaşıb mağaraya sığınmağı seçdiklərini bildirir. Kəhf hekayəsində bildirilən Kəhf əhli olaraq adlanan bu topluluğun Allaha olan güclü bağlılığının və sədaqətinin iki mühüm əlaməti diqqət çəkir. Bunlardan birincisi onların gənc olmalarıdır.

Bir çox insan üçün gənclik, bəlkə də, həyatında istədiyi hər şeyi edə biləcəyi, ən sağlam və fiziki baxımdan da ən gözəl və güclü olduğu dövrdür. Kəhf əhli də gənc olmalarına baxmayaraq, gəncliklərinin bütün imkanlarını Allahın razılığını qazanmaq üçün həsr etmişlər. Həyatlarının ən mühüm hissəsini Allahın razılığını qazana bilmək üçün könüllü Allaha həsr etmələri bu insanların dərin imana sahib olduqlarını göstərir. Sadəcə Allaha ibadət etmək üçün əllərindəki bütün imkanlardan imtina edərək mağaraya sığınmağı gözə almaları və Allaha ibadətdə belə qətiyyət göstərmələri Allaha olan güclü sevgiləri, bağlılıqları və sədaqətlərindən irəli gəlir. Allah Quranda Kəhf əhlinin Allaha olan güclü imanları və göstərdikləri təslimiyyətli davranışlarını belə bildirir:

**Yoxsa sən mağara və Rəqim əhlinin möcüzələrimizdən ən qəribəsi olduğunumu güman edirsən? Bir zaman gənclər mağaraya sığınıb: “Ey Rəbbimiz! Bizə Öz tərəfindən mərhəmət bəxş et və işimizdə bizə düz yol göstər!”- demişdilər. (Kəhf surəsi, 9-10)**

**Onlar (kafir hökmdarın qarşısında) durub: “Rəbbimiz göylərin və yerin Rəbbidir. Biz heç vaxt Ondan başqa tanrıya ibadət etməyəcəyik. Əks halda olduqca böyük bir (küfr) danışmış olarıq!”- deyərkən onların qəlbinə qüvvət verdik. (Kəhf surəsi, 14)**

**Madam ki, siz onları və Allahdan savayı ibadət etdiklərini tərk etdiniz, onda mağaraya sığının ki, Rəbbiniz sizə Öz mərhəmətini geniş etsin və işinizdə sizin üçün fayda hazırlasın. (Kəhf surəsi, 16)**

Allah Quranda “bu gənclərin qəlbinə səbri və qətiyyəti rəbt etdik" şəklində buyurmuşdur. Bundan başqa, bu gənclərin Allaha iman etmədə nə qədər qətiyyətli və səbirli olduqlarını xəbər vermişdir.

Başqa bir ayədə isə Fironun zülmünə baxmayaraq, Allaha təslim olaraq hz. Musaya iman gətirən gənclərin sədaqətlərinə belə diqqət çəkilir:

**Firon və onun əyanları tərəfindən özlərinə işgəncə veriləcəyindən qorxaraq Musaya öz qövmündən yalnız azsaylı bir nəsil iman gətirdi. Həqiqətən də, Firon yer üzündə qəddar hakim və həddi aşanlardan idi. (Yunis surəsi, 83)**

Firon dövründəki bu gənclər kimi Kəhf əhlinin də inkar edənlərin təzyiqlərinə qarşı çıxa bilmələri və Allahın razılığını qazanmaq üçün mağara kimi yaşanılması çətin olan bir yeri seçmələri bu insanların Allaha olan sədaqətlərini göstərən başqa bir gözəl davranışdır. Allaha olan güclü sədaqət və bağlılıqları onlara bu gücü və cəsarəti vermiş və bundan sonra qarşılaşdıqları çətinlik və əngəllərdə göstərdikləri səbirə də zəmin yaratmışdır. Eyni vəziyyət fironun zülmünə və qəddarlığına baxmayaraq, hz. Musaya iman gətirən gənclərə də aiddir. Bu gənclər firondan qorxmamış və hz. Musaya tabe olaraq Allaha sədaqətlərini göstərmişlər.

Bütün bunlar bizə göstərir ki, Allaha olan güclü sədaqət və bağlılıq mömünin hər zaman Allahın rizasına uyğun hərəkət etməsini təmin edir.

## Fironun ailəsində imanını gizlədən insan

Allah Quranın Mömin surəsindəki bir hekayədə bildirdiyi məlumatlar Allaha güclü sədaqət və bağlılığın insanı necə üstün əxlaqa yönəltdiyini bizlərə göstərir. Allah bu hekayədə hz. Musanın Firona təbliğ etdiyi zaman ortaya çıxaraq hz. Musaya dəstək olan və Fironun zülmünə qarşı çıxan birindən bəhs edir. Fironun hz. Musanın təbliğinə lovğalanaraq qarşı çıxması Quranda belə bildirilmişdir:

**Firon dedi: “Buraxın məni Musanı öldürüm! Qoy o da Rəbbinə yalvarsın. Çünki mən onun sizin dininizi dəyişdirəcəyindən, yaxud yer üzündə fəsad törədəcəyindən qorxuram”. Musa dedi: “Mən Hesablaşma gününə inanmayan hər bir təkəbbürlüdən həm mənim Rəbbim, həm də sizin Rəbbiniz (olan Allaha) sığınıram!” (Mömin surəsi, 26-27)**

Hz. Musanın Firona Allahın haqq dinini təbliğ etdiyi həmin vaxt Firon ailəsindən olan bu insan ortalığa çıxmış, Firona və onun tayfasına təbliğ edərək onlara hz. Musaya inanmalarını demişdir:

**Firon ailəsindən olub imanını gizlədən mömin biri dedi: "Siz bir adamı: "Rəbbim Allahdır!"- dediyinə görə öldürəcəksinizmi? Halbuki o, Rəbbinizdən sizə açıq-aydın dəlillər gətirdi. Əgər o, yalan danışırsa, onun yalanı ancaq öz əleyhinədir. Yox, əgər doğru danışırsa, onun vəd etdiyinin bəzisi sizə toxunar. Həqiqətən, Allah həddi aşanı, yalançını doğru yola yönəltməz. (Mömin surəsi, 28)**

İman gətirmiş bu insan Fironun qəzəbinə və Peyğəmbəri öldürməklə təhdid etdiyi bir anda ortaya çıxmış və hz. Musaya böyük dəstək olmuşdur. Həmin vaxt Firon kimi zalım və yer üzündə həddi aşmış birinə qarşı çıxmaq bu insanın imanını və Allaha olan güclü sədaqətini ortaya qoyur. O da hz. Musanın etdiyi kimi Fironun qarşına keçmiş və qövmünü Allahın yoluna tabe olmağa dəvət etmişdir. Göstərdiyi bu rəftar onun üstün əxlaq sahibi olduğunu göstərir. Mömin olan bu insan qəlbində daşıdığı güclü imanı ilə Firona qarşı durmaq cəsarətini göstərmişdir. Bu da onun Allaha olan güclü sədaqətini və Allahın razılığını qazanmaqda heç bir maneə və çətinlik tanımadığını göstərir.

Bu insanın Allaha nə qədər bağlı və sadiq olduğunu Fironun ailəsindən olmasına və Fironla birlikdə yaşamasına baxmayaraq, qərarlı, ağıllı və diqqətli şəkildə imanını gizlədə bilməsindən də aydın olur. Bu insan Firon kimi din düşməni olan birinin təhdidlərinə və tətbiq etdiyi zorakılığa baxmayaraq, iman gətirmiş və bu imanını da qoruya bilmişdir. Diqqət yetirilməli məqam da məhz budur. Çünki Allahın **"Ey iman gətirənlər! Əgər kafirlərə itaət etsəniz, onlar sizi geriyə qaytarar və siz də ziyana uğramış halda geriyə qayıdarsınız"** (Ali İmran surəsi, 149) ayəsində bildirdiyi kimi, inkar edən insanların sözünə tabe olmaq insanın imanına zərər verər. Məhz bu baxımdan, bu insanın təhlükəli yerdə imanını həm gizlədə bilməsi, həm də inkar edənlərə itaət etmədən qoruyub saxlaya bilməsi, həqiqətən də, onun güclü ağıla və Allaha sarsılmaz bağlılıq və sədaqət hissinə sahib olduğunu göstərir.

Allahın Quranda bildirdiyi bu nümunədən də göründüyü kimi, Allahın razılığını qazanmaq nə qədər çətin olursa-olsun, Allaha qarşı güclü sədaqət göstərməklə mümkündür.

## Hicrət edən möminlər

Möminlər Quran əxlaqını təbliğ etmək və insanları doğru və gözəl olana dəvət etmək üçün böyük səy göstərməkdə istəklidirlər. Ancaq Quran əxlaqının insanlara gətirəcəyi ədalət, sülh və bərabərlik kimi anlayışlar bəzi insanların maraqlarına mənfi təsir etdiyi üçün onlar Quran əxlaqından böyük narahatlıq duyarlar. Buna görə də Quran əxlaqını təbliğ etməyə çalışan və bu mövzuda istəkli olan möminlərə müxtəlif formalarda mane olmağa çalışırlar.

Bu insanların bu məqsədlə müraciət etdikləri üsullardan biri, möminləri yaşadıqları yerləri tərk etməyə məcbur etmələridir. İnkarçılar bu şəkildə hərəkət edərək möminlərin müqavimətlərini qıracaqlarını və öz ağıllarına görə möminləri zəiflədib onlar üzərində qəti zəfər çalacaqlarını zənn edirlər. Ancaq unutduqları əhəmiyyətli bir şey var, o da, möminlərin, Allahın onlara göstərdiyi doğru yolda irəliləmədə qətiyyətləri və Allaha olan güclü bağlılıqlarıdır. Möminlər Allaha duyduqları səmimi iman və sədaqətlərinə görə rastlaşdıqları çətinlik hər nə olursa-olsun, hədəflərindən əsla yayınmazlar. Onlar üçün yaşadıqları şəhərdən çıxarılmaq hicrət etmək deməkdir ki, bu da möminlərin Allaha olan itaətini göstərən hadisələrdən biridir. Belə bir vəziyyətlə qarşılaşan möminlər heç tərəddüd etmədən yaşadıqları mühiti, evlərini, mallarını və yaşayış yerlərini tamamilə geridə qoyarlar. Lazım olduqda heç bir plan qurmadan və hazırlıq görmədən yalnız Allahın razılığını qazana bilmək üçün çətin səfərə çıxarlar. Bu səbəbdən, bir mömінin hicrət etməsi Allahın razılığını qazanmaq və Quran əxlaqına uyğun yaşaya bilmək üçün sahib olduğu hər şeyi heç bir tərəddüd etmədən geridə qoyub getməsidir. Bu hadisə möminlərin bu yolda həqiqətən də səmimi və qətiyyətli olduqlarını göstərir. Allah hicrət etmənin və insanın sahib olduğu hər şeydən bu məqsədlə imtina edə bilmənin mömin xüsusiyyəti olduğunu Quranın bir çox ayəsində bildirmişdir.

Hicrət etmək, eyni zamanda insanın "seçdiyi batil yolu tərk edərək Allahın göstərdiyi doğru yola tabe olmasıdır". Hz. Lut hicrətin bu mənasını bu şəkildə dilə gətirmişdir:

**Lut Ona iman etdi və dedi ki: "Həqiqətən mən Rəbbimə hicrət edəcəyəm. Çünki şübhəsiz O, güclü və üstün olandır, hökm və hikmət sahibidir". (Ənkbut surəsi, 26)**

Möminlərin hicrətlərinə bu baxımdan baxdıqda həyatları boyunca Allahın haqq yolundan və Onun razılığını qazanmaqdan əsla uzaqlaşmadıqları və həyatlarını tamamilə Allahın razılığı üzərində qurduqlarını görmək olur. Möminlər "hicrət ruhunu" daşıyan, buna görə də həyatları boyunca Allaha sadiq qalan insanlardır. Allah Öz yolunda bu cür qətiyyət və əzm göstərən möminləri həm dünyada, həm də axirətdə "böyük dərəcələrlə" mükafatlandıracağını Quranda belə xəbər vermişdir:

**Zülmə uğradıldıqdan sonra Allah yolunda hicrət edənləri dünyada gözəl bir məskəndə sakin edəcəyik. Axirət mükafatı isə daha böyükdür. Kaş biləydilər! (Nəhl surəsi, 41)**

# Nəticə

Allah **“Səbir et! Sənin səbrin ancaq Allahdandır. Onlara görə kədərlənmə və qurduqları hiylələrdən ötrü də sıxılma.”** (Nəhl surəsi, 127) və **“Sən səbirli ol! Həqiqətən də, Allahın vədi haqdır. Qoy (axirətə) yəqinliklə inanmayanlar səni qeyri-ciddi olmağa (dindən dönməyə) sövq etməsinlər.”** (Rum surəsi, 60) ayələri ilə möminləri qarşılaşdıqları çətinliklər qarşısında ruhdan düşməmələri, kədərlənib təlaşlanmamaları və dindən dönməmələri barədə xəbərdar etmişdir. İman gətirən hər insan Allahın Quranda bildirdiyi bu ayələri heç unutmadan tətbiq etməklə və Allah üçün etdiyi xidmətdə qətiyyətli, səbirli və sadiq olmaqla məsuldur.

Güclü sədaqət hissi, özü güclü bir iman da gətirəcək və bu, möminə Allah yolunda ona üz verə biləcək hər cür çətinliyə qarşı səbir etmə şövqünü və gücünü verəcək. Həmin insanı daima Allaha yönələn, Allahı zikr edən, Ondan qorxub, Onu sevən və yalnızca Allahı Vəli bilən əməlisaleh qul halına gətirəcək. Allaha qarşı duyulan bu güclü bağlılığı sayəsində mömin bu yolda daima saleh əməllər edən və Allahın rizasını qazanmağa çalışan, üstün əxlaqlı və kamil iman sahibi dəyərli bir şəxs olacaq. Belə ki, Allaha və Onun Peyğəmbərinə qarşı duyulan sədaqət və bağlılıq möminləri iman gətirməyən insanlardan fərqləndirən, səmimiyyətlərini göstərən və onlara həyatlarının hər anında güc verən əhəmiyyətli mömin vəsfidir. Allah bir ayəsində **“O kəslər ki, Allaha verdikləri sözü yerinə yetirir və əhdi pozmurlar.” (Rad surəsi, 20)** şəklində buyuraraq möminlərin bu güclü sədaqətinə diqqət çəkir.

Allah yolunda qarşılarına çıxan maneələrdən heç vaxt təsirlənməyərək Quran əxlaqını yaşamağa və bu əxlaqı bütün insanlara yaymağa çalışmaları möminlərin Allaha qarşı olan sədaqətlərinin və bağlılıqlarının ən açıq dəlillərindən biridir. Allah möminlərin Ona olan səmimi itaətləri və sarsılmaz sədaqətlərinin qarşılığında onlara bu cür vəd edir:

**Kim Allahı, Onun Elçisini və iman gətirənləri (özünə) dost tutarsa, (bilsin ki,) qələbə çalanlar da məhz Allahın firqəsidir. (Maidə surəsi, 56)**

Mömin imtahanına uyğun olaraq həyatı boyu bəzi çətinliklərlə qarşılaşa bilər, amma Allahın vədinin haqq olduğunu bilərək “qələbə çalanların Allahın firqəsi olduğunu” heç vaxt unutmaz. Möminlərin cəsarətli, səbirli, güclü, fədakar əxlaq göstərə bilmələrinin və həyatlarının sonuna qədər sahib olduqları bu üstün əxlaqla yaşamalarının səbəbi Quran əxlaqına möhkəm sarılmaları və Allaha qarşı güclü itaət və sədaqətləridir. Allah Quranda hz. Nuhun sədaqətini bu mövzuda bütün möminlərə örnək göstərmiş, onun insanları gözəl əxlaqa dəvət etməsindəki qətiyyətindən və əzmindən təriflə bəhs etmişdir:

**O dedi: "Ey Rəbbim, mən xalqımı gecə də, gündüz də dəvət etdim. Amma dəvətim onların haqdan qaçmalarını daha da artırdı. Sən onları bağışlayasan deyə mən hər dəfə onları imana dəvət etdikdə, onlar barmaqlarını qulaqlarına tıxayır, paltarlarına bürünür, küfrlərində israr edir və ötkəm-ötkəm təkəbbürlənirdilər. Sonra mən onları aşkarcasına dəvət etdim. Sonra mən onlara həm uca səslə, həm də gizlicə bildirib dedim: "Rəbbinizdən bağışlanmağınızı diləyin! Həqiqətən, O, çox Bağışlayandır! (Nuh surəsi, 5-10)**

Allaha iman gətirən hər insan hz. Nuhun əxlaqında olduğu kimi sahib olduğu və Allahın rizasını və cənnətini qazandıracaq olan bu sədaqəti qəlbində çox güclü hiss etməlidir. Bütün möminlər Allahın onlara göstərdiyi bu doğru yolda davam edə bilmək və Allahın rizasını qazana bilmək üçün Allahın **"Mədinə əhalisinə və onların ətrafındakı bədəvilərə (döyüşdə) Allahın Elçisindən geri qalmaq, onun canından öncə öz canlarının hayına qalmaq yaraşmaz. Çünki Allah yolunda onlara üz verən elə bir susuzluq, yorğunluq və aclıq, kafirləri qəzəbləndirən elə bir atılmış addım, düşmən üzərində qazanılan elə bir uğur yoxdur ki, bunların müqabilində onlara yaxşı bir əməl yazılmasın. Həqiqətən, Allah yaxşı iş görənlərin mükafatını puç etməz. Allah onları etdikləri əməllərin ən gözəli ilə mükafatlandırsın deyə xərclədikləri elə bir kiçik və ya böyük məsrəf, keçdikləri elə bir vadi yoxdur ki, (buna görə) onlara (savab) yazılmasın." (Tövbə surəsi, 120-121)** ayələrinə əsasən, hər cür çətinliklərlə qarşılaşsalar da, həyatları boyu Allaha tam səmimi, bağlı qul ola bimək üçün cəhd etməyə davam etməlidirlər.

Möminlərin Allaha qarşı duyduqları bu səmimi bağlılıq onların dövlətə və millətə olan bağlılıqlarını və hörmətlərini də artırıb gücləndirir. Möminlər hər zaman Allahın rizasını qazandıracaq xeyirli işlər görməyə çalışdıqları üçün birlikdə yaşadıqları cəmiyyətə və insanlara da böyük fayda verəcəklər. Allah **"Beləlri Allaha, axirət gününə iman gətirir, yaxşı işlər görməyi buyurur, pis əməlləri qadağan edir və xeyirxah işlər görməyə tələsirlər. Məhz onlar əməlisalehlərdəndirlər." (Ali İmran surəsi, 110)** ayəsi ilə möminləri insanları pislikdən uzaqlaşdırıb, yaxşılığı əmr edən, insanları hər fürsətdə gözəl əxlaq göstərməyə dəvət edən əməlisaleh insanlar olaraq bildirmişdir. Möminlər bu cür gözəl əxlaq göstərərək insanlar arasında sülh və nizamı, birlik və bərabərliyi gücləndirərək cəmiyyətin əxlaqi və mədəni dəyərlərinin daimiliyini təmin edəcəklər. Beləcə, cəmiyyətin hər bir üzvü daha güclü, daha gözəl əxlaqlı, daha səmimi və daha çalışqan olacaq. Mömin Allaha və Onun elçisinə könüldən bağlı olduğu müddətcə qarşılaşdığı çətinliklər hər zaman asanlığa çevriləcəkdir. Həyatları boyu Allaha sadiq qalan möminlər hər zaman Allahın yardımı, qoruması və rəhməti ilə qarşılaşacaqlar:

**Yaxşı əməl sahibi olub özünü Allaha təslim edən şəxs ən möhkəm dəstəkdən yapışmış olar. Bütün işlərin sonu Allaha qayıdır. (Loğman surəsi, 22)**

# TƏKAMÜL YALANI

Darvinizm, yəni təkamül nəzəriyyəsi yaradılış həqiqətini inkar etmək məqsədilə irəli sürülmüş, ancaq uğursuzluqla nəticələnmiş elmdən kənar cəfəngiyatdan başqa bir şey deyil. Canlıların cansız maddələrdən təsadüfən əmələ gəldiyini iddia edən bu nəzəriyyə kainatda və canlılarda çox möcüzəvi nizam olduğunun elm tərəfindən sübut edilməsi ilə və təkamül prosesinin əsla baş vermədiyini göstərən 350 milyona yaxın fosilin tapılması ilə süqut etmişdir. Beləliklə, Allah'ın bütün kainatı və canlıları yaratdığı elm tərəfindən də sübut edilmişdir. Bu gün təkamül nəzəriyyəsini dirçəltmək üçün dünya səviyyəsində aparılan təbliğat sadəcə elmi həqiqətlərin təhrif olunmasına, tərəfli şərhinə, elm adı altında söylənilən yalan və saxtakarlıqlara əsaslanır.

Ancaq bu təbliğat həqiqəti gizlətmir. Təkamül nəzəriyyəsinin elm tarixində ən böyük xəta olması son 20-30 il ərzində elm dünyasında getdikcə daha ucadan dilə gətirilir. Xüsusilə 1980-ci illərdən sonra aparılan tədqiqatlar darvinist iddiaların tamamilə səhv olduğunu üzə çıxarmış və bu həqiqət bir çox elm adamı tərəfindən dilə gətirilmişdir. ABŞ-da biologiya, biokimya, paleontologiya kimi fərqli sahələrlə məşğul olan bir çox elm adamı darvinizmin əsassızlığını görür, canlıların mənşəyini artıq yaradılışla açıqlayırlar.

Təkamül nəzəriyyəsinin süqutundan və yaradılış dəlillərindən digər bir çox əsərimizdə bütün elmi təfərrüatları ilə bəhs etmişik və etməyə davam edirik. Ancaq əhəmiyyəti baxımından mövzudan burada da bəhs etməkdə fayda var.

## Darvini məhv edən çətinliklər

Təkamül nəzəriyyəsi tarixi qədim yunanlara gedib çıxan bir təlim olmasına baxmayaraq, XIX əsrdə hərtərəfli şəkildə irəli sürüldü. Nəzəriyyəni elm dünyasının gündəminə gətirən ən mühüm irəliləyiş Çarlz Darvinin 1859-cu ildə nəşr edilən "Növlərin mənşəyi" adlı kitabı idi. Darvin bu kitabda dünyadakı müxtəlif canlı növlərini Allah'ın ayrı-ayrı yaratdığına qarşı çıxırdı. Darvinin fikrincə, bütün növlər ortaq əcdaddan törəmiş və zaman ərzində kiçik dəyişikliklərlə müxtəlifləşmişdilər.

Darvinin nəzəriyyəsi heç bir konkret elmi tapıntıya əsaslanmırdı; özünün də qəbul etdiyi kimi, sadəcə bir məntiq yeritmə idi. Hətta Darvin kitabındakı "Nəzəriyyənin qarşısında duran çətinliklər" başlıqlı uzun bölmədə etiraf etdiyi kimi, nəzəriyyə bir çox mühüm suala cavab verə bilmirdi.

Darvin nəzəriyyəsinin qarşısındakı çətinliklərə inkişaf edən elmin üstün gələcəyinə, yeni elmi kəşflərin nəzəriyyəsini gücləndirəcəyinə ümid edirdi. Bunu kitabında tez-tez bildirirdi. Ancaq inkişaf edən elm Darvinin ümidlərinin tam əksinə, nəzəriyyənin əsas iddialarını bir-bir əsassız qoydu.

Darvinizmin elm qarşısındakı məğlubiyyətini üç əsas başlıq altında təhlil etmək olar:

Nəzəriyyə həyatın yer üzündə ilk dəfə necə ortaya çıxdığını əsla açıqlaya bilmir.

Nəzəriyyənin irəli sürdüyü təkamül mexanizmlərinin, əslində, təkamül xarakterinə malik olduğunu göstərən heç bir elmi tapıntı yoxdur.

Fosillər təkamül nəzəriyyəsinin iddialarının tam əksini göstərir.

Bu bölmədə bu üç əsas başlığı əsaslı təhlil edəcəyik.

## Keçilməz ilk pillə: həyatın mənşəyi

Təkamül nəzəriyyəsi bütün canlı növlərinin bundan təxminən 3.8 milyard il əvvəl dünyada fantastik şəkildə təsadüfən meydana gələn bircə canlı hüceyrədən törədiklərini iddia edir. Bircə hüceyrənin milyonlarla kompleks canlı növünü necə əmələ gətirməsi və əgər həqiqətən bu cür təkamül baş vermişsə, nə üçün izlərinin fosillərdə tapılmadığı nəzəriyyənin açıqlaya bilmədiyi suallardandır. Ancaq bütün bunlardan əvvəl iddia edilən təkamül prosesinin ilk pilləsi üzərində dayanmaq lazımdır. Həmin ilk hüceyrə necə ortaya çıxmışdır?

Təkamül nəzəriyyəsi cahilliklə yaradılışı inkar etdiyinə görə, həmin ilk hüceyrənin heç bir plan və nizam olmadan təbiət qanunları çərçivəsində təsadüfən meydana gəldiyini iddia edir. Yəni bu nəzəriyyəyə əsasən, cansız maddə kortəbii təsadüflər nəticəsində ortaya canlı hüceyrə çıxarmalıdır. Ancaq bu, məlum olan ən təməl biologiya qanunlarına zidd iddiadır.

## Həyat həyatdan gəlir

Darvin kitabında həyatın mənşəyindən heç bəhs etməmişdi. Çünki onun dövründəki ibtidai elm anlayışı canlıların çox sadə quruluşa malik olduqlarını fərz edirdi. Orta əsrlərdən bəri “spontane generation” adlı nəzəriyyəyə əsasən, cansız maddələrin təsadüfən birləşərək canlı varlıq əmələ gətirməsinə inanırdılar. Bu dövrdə həşəratların yemək artıqlarından, siçanların da buğdadan əmələ gəlməsi geniş yayılmış düşüncə idi. Bunu sübut etmək üçün qəribə təcrübələr aparılmışdı. Çirkli əsginin üstünə bir az buğda qoyulmuş və bir müddət sonra bu qarışıqdan siçanların əmələ gəlməsini gözləmişdilər.

Ətin qurdlanması da həyatın cansız maddələrdən törədiyinə dəlil hesab edilirdi. Lakin daha sonra məlum olacaqdı ki, ətin üstündəki qurdlar öz-özlərindən əmələ gəlmirlər, milçəklərin gətirib qoyduğu gözlə görülməyən sürfələrdən çıxırdılar. Darvin “Növlərin mənşəyi” adlı kitabını yazdığı dövrdə isə bakteriyaların cansız maddədən əmələ gəlməsi inancı elm dünyasında geniş şəkildə qəbul edilirdi.

Lakin Darvinin kitabının nəşr edilməsindən beş il sonra məşhur fransız bioloq Lui Paster təkamülə əsas verən bu inancı qəti şəkildə təkzib etdi. Paster apardığı uzun elmi fəaliyyət və təcrübələrdə gəldiyi nəticəni belə şərh etmişdi:

“Cansız maddələrin həyatı əmələ gətirməsi iddiası artıq qəti şəkildə tarixə gömülmüşdür”. *(Sidney Fox, Klaus Dose, Molecular Evolution and The Origin of Life, New York: Marcel Dekker, 1977, səh. 2)*

Təkamül nəzəriyyəsinin tərəfdarları Pasterin kəşflərinə uzun müddət qarşı çıxdılar. Ancaq inkişaf edən elm canlı hüceyrəsinin mürəkkəb quruluşunu üzə çıxardıqca həyatın öz-özünə əmələ gəlməsi iddiasının əsassızlığı daha da açıq şəkil aldı.

**XX əsrdəki nəticəsiz səylər**

XX əsrdə həyatın mənşəyi mövzusunu tədqiq edən ilk təkamülçü məşhur rus bioloq Aleksandr Oparin oldu. Oparin 1930-cu illərdə irəli sürdüyü bəzi tezislərlə canlı hüceyrəsinin təsadüfən meydana gələ biləcəyini sübut etməyə çalışdı. Ancaq bu fəaliyyətlər uğursuzluqla nəticələnəcək və Oparin bu etirafı etməli olacaqdı:

“Təəssüf ki, hüceyrənin mənşəyi təkamül nəzəriyyəsinin tamamilə əhatə edən ən qaranlıq nöqtədən ibarətdir”. *(Alexander I. Oparin, Origin of Life, (1936) New York, Dover Publications, 1953 (Reprint), səh. 196)*

Oparinin yolunu davam etdirən təkamülçülər həyatın mənşəyi problemini həll etmək üçün təcrübələr aparmağa çalışdılar. Bu təcrübələrin ən məşhuru amerikalı kimyaçı Stenli Miller tərəfindən 1953-cü ildə aparıldı. Miller ibtidai atmosferdə mövcud olduğunu iddia etdiyi qazları bir təcrübədə birləşdirdi və bu qarışığa enerji verərək zülalları təşkil edən bir neçə üzvi molekul (amin turşusu) sintezlədi.

O illərdə təkamüllə bağlı mühüm mərhələ kimi tanıdılan bu təcrübənin əsassız olduğu və təcrübədə tətbiq edilən atmosferin yer şərtlərindən çox fərqli olduğu sonrakı illərdə üzə çıxacaqdı. *(“New Evidence on Evolution of Early Atmosphere and Life”, Bulletin of the American Meteorological Society, c. 63, Kasım 1982,* səh. 1328-1330)

Uzun sükutdan sonra Millerin özü də tətbiq etdiyi atmosfer mühitinin həqiqi olmadığını etiraf etdi. *(Stanley Miller, Molecular Evolution of Life: Current Status of the Prebiotic Synthesis of Small Molecules, 1986, səh. 7)*

Həyatın mənşəyi problemini açıqlamaq üçün XX əsr boyu göstərilən bütün təkamülçü səylər uğursuzluqla nəticələndi. San Diyeqo Skrips İnstitutundan məşhur geokimyaçı Cefri Bada təkamülçü "Earth" jurnalında 1998-ci ildə dərc edilən bir məqalədə bu həqiqəti belə qəbul edir:

"Bu gün XX əsri arxada qoyarkən hələ də XX əsrin başlanğıcındakı ən böyük həll edilməmiş problemlə qarşı-qarşıyayıq: həyat yer üzündə necə başlayıb". *(Jeffrey Bada, Earth, Şubat 1998, səh. 40)*

**Həyatın kompleks quruluşu**

Təkamülçülərin həyatın mənşəyi ilə bağlı bu qədər çıxılmaz vəziyyətə düşməsinin başlıca səbəbi ən sadə hesab etdikləri canlıların bu qədər mürəkkəb quruluşa malik olmasıdır. Canlı hüceyrəsi insanın hazırladığı bütün texnoloji məhsullardan daha mürəkkəbdir. Belə ki, bu gün dünyanın ən qabaqcıl laboratoriyalarında belə cansız maddələr birləşdirilərək nəinki canlı hüceyrə, hətta hüceyrəyə aid bircə zülal da hasil etmək mümkün deyil.

Bir hüceyrənin meydana gəlməsi üçün lazımlı şərtlər əsla təsadüflərlə açıqlanmayacaq qədər çoxdur. Lakin bunu açıqlamağa heç ehtiyac yoxdur. Təkamülçülər hələ hüceyrə səviyyəsinə çatmadan çıxılmaz vəziyyətə düşürlər. Çünki hüceyrənin əsasını təşkil edən zülalların təsadüfən sintezlənmə ehtimalı riyazi cəhətdən sıfırdır.

Bunun ən əsas səbəbi budur ki, bir zülalın əmələ gəlməsi üçün başqa zülallar da olmalıdır. Bu səbəb bir zülalın təsadüfən əmələgəlmə ehtimalını tamamilə aradan qaldırır. Ona görə, təkcə bu fakt təkamülçülərin təsadüf iddiasını təkzib etmək üçün kifayətdir. Mövzunun əhəmiyyətini qısaca açıqlayaq:

**- Fermentlər olmasa, zülal sintezlənə bilməz, fermentlər də zülaldır.**

**- Bircə zülalın sintezlənməsi üçün 100-ə yaxın hazır zülal olmalıdır. Ona görə, zülalların olması üçün zülallar lazımdır.**

**- Zülalları sintezləyən fermentləri DNT hazırlayır. DNT olmasa, zülal sintezlənə bilməz. Ona görə, zülalların əmələ gəlməsi üçün DNT də lazımdır.**

**-Zülal sintezləmə prosesində hüceyrədəki bütün orqanoidlərin mühüm funksiyaları var. Yəni zülalların əmələ gəlməsi üçün tam funksional hüceyrə bütün orqanoidləri ilə birlikdə mövcud olmalıdır.**

Hüceyrənin nüvəsində yerləşən, genetik məlumat daşıyan DNT molekulu isə informasiya bankıdır. İnsan DNT-sindəki informasiyanı kağıza köçürmək istəsək, hər biri 500 səhifədən ibarət 900 cildlik kitabxana ortaya çıxar.

Burada çox maraqlı dilemma da var: DNT ancaq bir sıra xüsusi zülalların (fermentlərin) köməyi ilə qoşalaşa bilər. Amma bu fermentlər də ancaq DNT-dəki informasiya əsasında sintezlənir. Bir-birlərindən asılı olduqlarına görə, DNT-nin qoşalaşması üçün ikisi də eyni anda mövcud olmalıdır. Bu isə həyatın öz-özünə meydana gəlməsi ssenarisini çıxılmaz vəziyyətə salır. San Diyeqo Kaliforniya Universitetindən məşhur təkamülçü prof. Lesli Orcel "Scientific American" jurnalının 1994-cü il oktyabr sayında bu həqiqəti belə etiraf edir:

"Olduqca kompleks quruluşa malik olan zülalların və nuklein turşularının (RNT və DNT) eyni yerdə və eyni zamanda təsadüfən əmələ gəlmələri həddindən artıq ehtimaldan kənardır. Ancaq bunların biri olmadan digərini əldə etmək də mümkün deyil. Ona görə, insan məcburən həyatın kimyəvi yollarla meydana gəlməsinin tamamilə qeyri-mümkün olduğu nəticəsinə gəlir". *(Leslie E. Orgel, The Origin of Life on Earth, Scientific American, c. 271, Ekim 1994, səh. 78)*

Şübhəsiz ki, əgər həyatın kortəbii təsadüflərlə öz-özünə meydana gəlməsi mümkün deyilsə, onda həyatın yaradıldığı qəbul edilməlidir. Bu həqiqət əsas məqsədi yaradılışı inkar etmək olan təkamül nəzəriyyəsini açıq-aydın əsassız edir.

### Təkamülün xəyali mexanizmləri

Darvinin nəzəriyyəsini əsassız edən ikinci əsas cəhət nəzəriyyənin təkamül mexanizmləri kimi irəli sürdüyü iki anlayışın da, əslində, heç bir təkamül gücünə malik olmamasıdır.

Darvin irəli sürdüyü təkamül iddiasını tamamilə təbii seleksiya mexanizmi ilə əlaqələndirmişdi. Bu mexanizmə verdiyi əhəmiyyət kitabının adından da açıq şəkildə başa düşülür: "Növlərin mənşəyi, təbii seleksiya yolu ilə..."

Təbii seleksiya təbii seçmə deməkdir, təbiətdəki həyat uğrunda mübarizədə təbii şərtlərə uyğun və güclü canlıların həyatda qalacağı düşüncəsinə əsaslanır. Məsələn, yırtıcı heyvanlar tərəfindən təhlükəyə məruz qalan bir maral sürüsündə daha sürətlə qaçan marallar həyatda qalacaq. Beləliklə, maral sürüsü sürətlə qaçan və güclü fərdlərdən ibarət olacaq. Amma bu mexanizm maralların təkamül keçirməsinə səbəb olmaz, onları başqa bir canlı növünə, məsələn, atlara çevirməz.

Ona görə, təbii seçmə mexanizmi heç bir təkamül gücünə malik deyil. Darvin də bu həqiqəti anlamışdı və “Növlərin mənşəyi” adlı kitabında: **“Faydalı dəyişikliklər baş vermədikcə təbii seçmə heç bir şey edə bilməz”**, - demək məcburiyyətində qalmışdı. *(Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 184)*

**Lamarkın təsiri**

Bəs bu faydalı dəyişikliklər necə baş verə bilərdi? Darvin öz dövrünün ibtidai elm anlayışı çərçivəsində bu suala Lamarka əsaslanaraq cavab verməyə çalışmışdı. Darvindən əvvəl yaşamış fransız bioloq Lamarka görə, canlılar həyatları boyu keçirdikləri fiziki dəyişiklikləri sonrakı nəslə ötürürlər, nəsildən-nəslə toplanan bu xüsusiyyətlər nəticəsində yeni növlər meydana gəlir. Məsələn, Lamarkın fikrincə, zürafələr ceyranlardan törəyiblər, hündür ağacların yarpaqlarını yeməyə çalışarkən nəsildən-nəslə boyunları uzanmışdır.

Darvin də buna bənzər misallar çəkmiş, məsələn, “Növlərin mənşəyi” kitabında qida tapmaq üçün suya girən bəzi ayıların tədricən balinalara çevrildiyini iddia etmişdi. (B. G. Ranganathan, Origins?, Pennsylvania: The Banner Of Truth Trust, 1988.)

Lakin Mendelin kəşf etdiyi və XX əsrdə inkişaf edən genetika elmi ilə qəti şəkildə sübut edilən genetika qanunları qazanılmış xüsusiyyətlərin sonrakı nəsillərə ötürülməsi əfsanəsini məhv etdi. Beləliklə, təbii seçmə “təkbaşına” və tamamilə təsirsiz mexanizm olaraq qaldı.

**Neodarvinizm və mutasiyalar**

Darvinistlər isə bu vəziyyətə bir çıxış yolu tapmaq üçün 1930-cu illərin sonlarında müasir sintetik nəzəriyyəni və ya daha geniş yayılmış adı ilə neodarvinizmi ortaya atdılar. Neodarvinizm təbii seçmənin yanına faydalı dəyişiklik səbəbi kimi mutasiyaları, yəni canlıların genlərində radiasiya kimi xarici amillər və ya transkripsiya xətaları nəticəsində əmələ gələn pozulmaları əlavə etdi. Bu gün də elmi cəhətdən əsassız olduğunu bilmələrinə baxmayaraq, darvinistlər neodarvinist modeli müdafiə edirlər. Nəzəriyyə yer üzündəki milyonlarla canlı növünün, onların qulaq, göz, ağciyər, qanad kimi saysız-hesabsız mürəkkəb orqanlarının mutasiyalara, yəni genetik pozulmalara əsaslanan bir proses nəticəsində əmələ gəldiyini iddia edir. Amma nəzəriyyəni çarəsiz qoyan bir açıq elmi həqiqət var: mutasiyalar canlıları təkmilləşdirmirlər, əksinə, hər zaman canlılara zərər verirlər.

Bunun səbəbi çox sadədir: DNT çox mürəkkəb quruluşa malikdir. Bu molekula olan hər hansı təsadüfi təsir ancaq zərər verir. Amerikalı genetik B.G. Ranqanatan bunu belə açıqlayır:

“Mutasiyalar kiçik, təsadüfi və zərərlidirlər. Çox nadir meydana gəlirlər və ən yaxşı halda təsirsizdirlər. Bu üç xüsusiyyət mutasiyaların təkamül xarakterli təsir meydana gətirməyəcəyini

sübut edir. Yüksək dərəcədə xüsusiləşmiş orqanizmdə meydana gələn təsadüfi dəyişiklik ya təsirsiz, ya da zərərli olur. Bir qol saatında meydana gələn təsadüfi dəyişiklik qol saatını təkmilləşdirməz. Ona böyük ehtimalla zərər verər və ya ən yaxşı halda təsir etməz. Bir zəlzələ bir şəhəri daha yaxşı hala salmaz, onu məhv edər". *(Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 179)*

Bu günə qədər heç bir faydalı, yəni genetik məlumatı təkmilləşdirən mutasiya müşahidə edilməyib. Bütün mutasiyaların zərərli olması aşkar edilib. Aydın olmuşdur ki, təkamül nəzəriyyəsinin təkamül mexanizmi kimi göstərdiyi mutasiyalar, əslində, canlıları sadəcə məhv edən, şikəst edən genetik hadisələrdir (insanlarda mutasiyanın ən çox rast gəlinən təsiri xərçəngdir). Əlbəttə, məhvedici mexanizm təkamül mexanizmi ola bilməz. Təbii seçmə isə Darvinin də qəbul etdiyi kimi, tək başına heç bir şey edə bilməz. Bu həqiqət bizə təbiətdə heç bir təkamül mexanizminin olmadığını göstərir. Təkamül mexanizmi olmadığına görə, təkamül deyilən xəyali proses də baş verməyib.

**Fosillər: ara-keçid formalardan əsər-əlamət yoxdur**

Təkamül nəzəriyyəsinin iddia etdiyi prosesin baş vermədiyinin ən açıq göstəricisi isə fosillərdir.

Təkamül nəzəriyyəsinə görə, bütün canlılar bir-birlərindən törəyiblər. Əvvəlcədən mövcud olan bir canlı növü zaman ərzində digərinə çevrilmiş və bütün növlər bu şəkildə əmələ gəlmişlər. Nəzəriyyəyə əsasən, bu çevrilmə yüz milyon illər davam edən uzun dövrü əhatə etmiş və mərhələ-mərhələ irəliləmişdir. Bu təqdirdə iddia edilən uzun çevrilmə prosesi zamanı saysız-hesabsız ara növlər əmələ gəlməli və yaşamalıdırlar.

Məsələn, keçmişdə balıq xüsusiyyətlərini daşımalarına baxmayaraq, bir tərəfdən də bəzi sürünən canlı xüsusiyyətlərini qazanmış yarı-balıq, yarı-sürünən canlılar yaşamalıdır və ya sürünən xüsusiyyətlərini daşıyan, bir tərəfdən də bəzi quş xüsusiyyətləri qazanmış sürünən quşlar ortaya çıxmalıdır. Bunlar bir keçid prosesində olduqları üçün şikəst, yarımçıq, qüsurlu canlılar olmalıdır. Təkamülçülər keçmişdə yaşadığına inandıqları bu nəzəri məxluqları "ara-keçid forması" adlandırırlar.

Əgər, həqiqətən, bu cür canlılar keçmişdə yaşayıbsa, onların sayı və növü milyonlarla, hətta milyardlarla olmalıdır və bu əcaib canlıların qalıqlarına mütləq fosil izlərində rast gəlinməlidir. Darvin "Növlərin mənşəyi"ndə bunu belə açıqlamışdır:

“Əgər nəzəriyyəm doğrudursa, növləri bir-biri ilə əlaqələndirən saysız-hesabsız ara-keçid növləri keçmişdə mütləq yaşamalıdır... Onların yaşadığının dəlilləri də sadəcə fosil qalıqları arasında tapıla bilər”. *(Charles Darwin, The Origin of Species, səh. 172, 280)*

Ancaq bu sətirləri yazan Darvin ara-keçid formaların heç cür tapılmadığını bilir və bunun nəzəriyyəsi üçün böyük problem olduğunu görürdü. Ona görə, “Növlərin mənşəyi” kitabının “Nəzəriyyənin qarşısında duran çətinliklər” (Difficulties on Theory) adlı bölməsində belə yazmışdı:

“Əgər, həqiqətən, növlər digər növlərdən yavaş dəyişikliklərlə törəyibsə, nə üçün saysız-hesabsız ara-keçid formasına rast gəlmirik? Nə üçün bütün təbiət qarmaqarışıq vəziyyətdə deyil, məhz yerli-yerindədir? Saysız-hesabsız ara-keçid forması olmalıdır, bəs nə üçün yer üzünün çoxsaylı təbəqələrində onları tapmırıq?... Nə üçün hər geoloji forma və hər təbəqə belə qalıqlarla dolu deyil?” *(Charles Darwin, The Origin of Species, səh. 172, 280)*

**Darvinin puç olan ümidləri**

Ancaq XIX əsrin ortasından indiyə qədər dünyanın hər tərəfində qızğın fosil araşdırmaları aparılmasına baxmayaraq, ara-keçid formalarına rast gəlinməmişdir. Aparılan qazıntı işlərində və tədqiqatlarda əldə edilən bütün tapıntılar təkamülçülərin gözlədiklərinin əksinə, canlıların yer üzündə birdən-birə, tam və qüsursuz formada ortaya çıxdıqlarını göstərmişdir.

Məşhur ingilis paleontoloq Derek V. Eycer təkamülçü olmasına baxmayaraq, bu həqiqəti belə etiraf edir:

“Problemimiz budur: fosilləri hərtərəfli tədqiq etdikdə növlər və ya siniflər səviyyəsində belə daima eyni həqiqətlə qarşılaşırıq; mərhələli təkamüllə təkmilləşən deyil, birdən-birə yer üzündə əmələ gələn qruplar görürük”. (Derek A. Ager, “The Nature of the Fossil Record”, Proceedings of the British Geological Association, c. 87, 1976, səh. 133)

Yəni fosil qeydlərində bütün canlı növləri aralarında heç bir keçid forması olmadan, tam formada ani surətdə ortaya çıxırlar. Bu, Darvinin fikirlərinin tam əksidir. Habelə, bu, canlı növlərinin yaradıldıqlarını göstərən çox güclü dəlildir. Çünki bir canlı növünün heç bir əcdadı olmadan, bir anda və qüsursuz şəkildə ortaya çıxmasının tək açıqlaması var: o növ yaradılmışdır. Bu həqiqət məşhur təkamülçü bioloq Duqlas Futuyma tərəfindən də qəbul edilir:

“Yaradılış və təkamül yaşayan canlıların mənşəyi haqqında iki yeganə açıqlamadır. Canlılar dünyada ya tamamilə mükəmməl və tam formada ortaya çıxmışlar, ya da belə olmamışdır. Əgər belə olmamışdırsa, bir dəyişiklik prosesi nəticəsində özlərindən əvvəl mövcud olan bəzi canlı növlərindən təkamül keçirərək meydana gəlməlidirlər. Amma əgər tam və

mükəmməl formada ortaya çıxıblarsa, onda sonsuz güc sahibi olan bir ağıl tərəfindən yaradılmışlar". *(Douglas J. Futuyma, Science on Trial, New York: Pantheon Books, 1983. Səh. 197)*

Fosillər isə canlıların yer üzündə tam və mükəmməl formada ortaya çıxdıqlarını göstərir. Yəni "növlərin mənşəyi" Darvinin hesab etdiyinin əksinə, təkamül deyil, yaradılışdır.

### İnsanın təkamülü nağılı

Təkamül nəzəriyyəsinin tərəfdarlarının ən çox gündəmə gətirdikləri məsələ insanın mənşəyidir. Bununla bağlı darvinist iddia bu gün yaşayan müasir insanın meymunabənzər məxluqlardan törədiyini zənn edir. 4-5 milyon il əvvəl başladığı fərz edilən bu prosesdə müasir insan ilə əcdadları arasında bəzi ara-keçid formaların yaşadığı iddia edilir. Əslində, tamamilə fantastik olan bu ssenaridə dörd əsas kateqoriya var:

*Australopithecus*

*Homo habilis*

*Homo erectus*

*Homo sapiens*

Təkamülçülər insanların ilk "meymunabənzər əcdadları"na "cənub meymunu" mənasını verən "australopithecus" adını veriblər. Bu canlılar, əslində, nəsli kəsilmiş meymun növüdür. Lord Solli Zukerman və prof. Çarlz Oksnard kimi İngiltərə və ABŞ-dan iki məşhur anatomun *australopithecus* nümunələri üzərində apardığı hərtərəfli araşdırmalar bu canlıların sadəcə nəsli kəsilmiş meymun növünə aid olduqlarını və insanlarla heç bir bənzərlik təşkil etmədiklərini göstərmişdir. *(Charles E. Oxnard, "The Place of Australopithecines in Human Evolution: Grounds for Doubt", Nature, c. 258, səh. 389)*

Təkamülçülər insanın təkamülünün sonrakı mərhələsini də "homo", yəni insan kimi təsnif edirlər. İddiaya əsasən, homo sırasındakı canlılar *australopithecus*lardan daha çox inkişaf ediblər. Təkamülçülər bu fərqli canlılara aid fosilləri ardıcıl düzərək fantastik təkamül sxemi qururlar. Bu sxem xəyalidir, çünki bu fərqli siniflərin arasında təkamül xarakterli əlaqə olması əsla sübut edilə bilməmişdir. Təkamül nəzəriyyəsinin XX əsrdəki ən mühüm tərəfdarlarından biri olan Ernst Mayr: "*Homo sapiens*ə uzanan zəncir halqası, əslində, itib", - deyərək bunu qəbul edir. *(J. Rennie, "Darwin's Current Bulldog: Ernst Mayr", Scientific American, Aralık 1992)*

Təkamülçülər "*ausrtalopithecus* > *homo habilis* > *homo erectus* > *homo sapiens*" ardıcıllığını qurarkən bu növlərin hər birinin daha sonrakının əcdadı olmasını irəli sürürlər.

Lakin paleoantropoloqların son kəşfləri *australopithecus*, *homo habilis* və *homo erectus*un dünyanın müxtəlif bölgələrində eyni dövrlərdə yaşadıqlarını göstərir. *(Alan Walker, Science, c. 207, 1980, s. 1103; A. J. Kelso, Physical Antropology, 1. baskı, New York: J. B. Lipincott Co., 1970, s. 221; M. D. Leakey, Olduvai Gorge, c. 3, Cambridge: Cambridge University Press, 1971, səh. 272)*

Habelə, *homo erectus* sinfinə aid olan insanların bir qismi çox müasir dövrlərə qədər yaşayıblar, *homo sapiens neandertalensis* və *homo sapiens sapiens* (insan) ilə eyni mühitdə birlikdə mövcud olmuşlar. *(Time, noyabr 1996)*

Bu isə, əlbəttə, bu siniflərin bir-birilərinin əcdadı olduqları iddiasının əsassızlığını açıq şəkildə ortaya qoyur. Harvard Universitetinin paleontoloqlarından Stiven Cey Quld, təkamülçü olmasına baxmayaraq, darvinist nəzəriyyənin düşdüyü bu çıxılmaz vəziyyəti belə açıqlayır:

"Əgər bir-biri ilə paralel şəkildə yaşayan üç müxtəlif hominid (insanabənzər) sxemi varsa, onda bizim soy ağacımıza nə oldu? Aydındır ki, bunların biri digərindən törəyə bilməz. Habelə, biri digəri ilə müqayisə edildikdə təkamül xarakterli inkişaf meyli göstərmirlər". *(S. J. Gould, Natural History, c. 85, 1976, səh. 30)*

Qısaca desək, KİV-də və ya dərsliklərdə verilən bir cür fantastik yarı-meymun yarı-insan canlıların rəsmləri ilə, yəni sırf təbliğat yolu ilə dirçəldilməyə çalışılan insanın təkamülü ssenarisi heç bir elmi əsası olmayan nağıldan ibarətdir. Bu mövzunu uzun illər tədqiq edən, xüsusilə *australopithecus* fosilləri üzərində 15 il araşdırma aparan İngiltərənin ən məşhur və hörmətli elm adamlarından biri olan Lord Solli Zukerman təkamülçü olmasına baxmayaraq, meymunabənzər canlılardan insana uzanan nəsil ağacı olmadığı nəticəsinə gəlmişdir.

Zukerman maraqlı elm şkalası da qurmuşdur. Elmi hesab etdiyi elm sahələrindən elmdən kənar qəbul etdiyi elm sahələrinə qədər şaxəli cədvəl çəkmişdir. Zukermanın bu cədvəlində ən elmi, yəni konkret faktlara əsaslanan elm sahələri kimya və fizikadır. Cədvəldə bunlardan sonra bioloji elmlər, daha sonra sosial fənlər gəlir. Şaxələnmənin ən kənar ucunda, yəni elmdən kənar hesab edilən hissədə isə Zukermanın fikrincə telepatiya, altıncı hiss kimi hissin fövqündə olan qavrama anlayışları və bir də insanın "təkamülü" yerləşir! Zukerman şaxələnmənin bu ucunu belə açıqlayır:

"Obyektiv reallıq sahəsindən çıxıb bioloji elm fərz edilən bu sahələrə, yəni hissin fövqündə olan qavramaya və insanın fosil tarixinin şərh edilməsinə daxil olduqda, təkamül nəzəriyyəsinə inanan bir şəxs üçün hər şeyin mümkün olduğunu görürük. Belə ki, nəzəriyyələrinə qəti şəkildə inanan bu şəxslərin ziddiyyətli bəzi rəyləri eyni anda qəbul etmələri belə mümkündür". *(Solly Zuckerman, Beyond The Ivory Tower, New York: Toplinger Publications, 1970, səh. 19)*

İnsanın təkamülü nağılı da nəzəriyyələrinə kor-koranə inanan bir sıra insanların tapdıqları bəzi fosillər haqqında qabaqcadan rəy verərək şərh etmələrindən ibarətdir.

**Darvin formulu!**

İndiyə qədər təhlil etdiyimiz bütün dəlillərlə yanaşı, istəyirsinizsə, təkamülçülərin necə cəfəng inanca malik olduqlarına bir də uşaqların belə anlayacağı qədər açıq misalla baxaq.

Təkamül nəzəriyyəsi canlıların təsadüfən əmələ gəldiyini iddia edir. Ona görə, bu iddiaya əsasən, cansız və şüursuz atomlar birləşərək əvvəlcə hüceyrəni əmələ gətirmiş və sonra eyni atomlar birləşərək digər canlıları və insanı meydana gətirmişlər. İndi düşünək, canlıların əsasını təşkil edən karbon, fosfor, azot, kalium kimi elementləri birləşdirdikdə bir yığın əmələ gəlir. Bu atom yığını hansı prosesdən keçirilsə də, bircə canlı belə əmələ gətirməz. İstəyirsinizsə, bununla bağlı bir təcrübə keçirək və təkamülçülərin, əslində, müdafiə etdikləri, amma ucadan söyləyə bilmədikləri iddianı onların adından "Darvin formulu" adı ilə nəzərdən keçirək:

Təkamülçülər çoxlu sayda böyük çənin içinə canlıların əsasını təşkil edən fosfor, azot, karbon, oksigen, dəmir, maqnezium kimi elementlərdən bol miqdarda qoysunlar. Hətta normal şərtlərdə mövcud olmayan, ancaq bu qarışığın içində lazımlı bildikləri maddələri də bu çənlərə əlavə etsinlər. Qarışıqların içinə istədikləri qədər amin turşusu, istədikləri qədər də zülal doldursunlar. Bu qarışıqlara istədikləri nisbətdə temperatur və rütubət versinlər. Bunları istədikləri ən yaxşı texnoloji cihazlarla qarışdırsınlar. Çənlərin başında nəzarətçi kimi dünyanın qabaqcıl elm adamlarını qoysunlar. Bu mütəxəssislər atadan oğula, nəsildən-nəslə ötürülərək növbə ilə milyardlarla, hətta trilyonlarla il fasiləsiz çənlərin başında gözləsinlər. Bir canlının əmələ gəlməsi üçün hansı şərtlərin mövcud olmasını lazım bilirlərsə, hamısını tətbiq etsinlər. Ancaq nə etsələr də, o çənlərdən əsla bir canlı çıxara bilməzlər. Zürafələri, aslanları, arıları, bülbülləri, tutuquşuları, atları, delfinləri, gülləri, səhləb çiçəklərini, zanbaqları, qərənfilləri, bananları, portağalları, almaları, xurmaları, pomidorları, qovunları, qarpızları, əncirləri, zeytunları, üzümləri, şaftalıları, tovuz quşlarını, qırqovulları, rəngarəng kəpənəkləri və bunlar kimi milyonlarla canlı növündən heç birini əmələ gətirə bilməzlər. Nəinki burada sadaladığımız bir neçə canlını, bunların bircə hüceyrəsini belə əldə edə bilməzlər.

Qısaca desək, **şüursuz atomlar birləşərək hüceyrəni əmələ gətirə bilməzlər.** Sonra yeni qərar verərək bir hüceyrəni iki yerə bölüb, sonra ardıcıl başqa qərarlar verib elektron mikroskopunu icad edən, sonra öz hüceyrə quruluşunu bu mikroskop altında tədqiq edən professorları əmələ gətirə bilməzlər. **Maddə ancaq Allah'ın üstün yaratması ilə həyat qazanır.** Bunun əksini iddia edən təkamül nəzəriyyəsi isə ağıla tamamilə zidd cəfəngiyatdır.

Təkamülçülərin ortaya atdığı iddialar üzərində bir az düşünmək yuxarıdakı misalda göstərildiyi kimi, bu həqiqəti üzə çıxarar.

### Göz və qulaqdakı texnologiya

Təkamül nəzəriyyəsinin qətiyyən açıqlaya bilmədiyi digər məsələ isə göz və qulaqdakı üstün duyğu keyfiyyətidir.

Gözlə bağlı mövzuya keçməzdən əvvəl "Necə görürük?" sualına qısaca cavab verək. Bir cisimdən gələn şüalar gözdə tor qişaya tərsinə düşür. Bu şüalar buradakı hüceyrələr tərəfindən elektrik siqnallarına çevrilir və beyinin arxa hissəsindəki görmə mərkəzi adlanan kiçik nöqtəyə ötürülür. Bu elektrik siqnalları bir sıra ardıcıl proseslərdən sonra beyindəki bu mərkəzdə görüntü kimi şərh edilir. Bu məlumatdan sonra düşünək: beyin işığa qapalıdır. Yəni beyinin içi qapqaranlıqdır, işıq beyinin yerləşdiyi yerə girə bilməz. Görmə mərkəzi adlanan yer qapqaranlıq, işığın düşmədiyi, bəlkə, heç qarşılaşmadığınız qədər qaranlıq yerdir. Ancaq siz bu zülmət qaranlıqda işıqlı, aydın dünyanı izləyirsiniz.

Üstəlik, bu, o qədər aydın və keyfiyyətli görüntüdür ki, XXI əsrin texnologiyası belə hər cür imkanı olmasına baxmayaraq, bu aydın görüntünü əldə edə bilmir. Məsələn, hal-hazırda oxuduğunuz kitaba, kitabı tutan əllərinizə baxın, sonra başınızı qaldırın və ətrafınıza baxın. Hal-hazırda gördüyünüz aydın və keyfiyyətli görüntünü başqa bir yerdə görmüsünüzmü? Bu qədər aydın görüntünü sizə dünyanın qabaqcıl televizor şirkətlərinin istehsal etdiyi təkmilləşdirilmiş televizor ekranı belə verə bilməz. 100 ildən bəri minlərlə mühəndis bu aydın görüntünü əldə etmək üçün çalışır. Bunun üçün fabriklər, böyük müəssisələr qurulur, tədqiqatlar aparılır, planlar və dizaynlar edilir. Bir televizor ekranına baxın, bir də hal-hazırda əlinizdə tutduğunuz bu kitaba. Arada böyük aydınlıq və keyfiyyət fərqi olduğunu görəcəksiniz. Həm də televizorun ekranı sizə iki ölçülü görüntü göstərir, lakin siz üç ölçülü, dərin perspektivi olan görüntü izləyirsiniz.

Uzun illərdən bəri on minlərlə mühəndis üç ölçülü televizor icad etməyə, gözün görmə keyfiyyətini əldə etməyə çalışırlar. Bəli, üç ölçülü televizor kimi sistem istehsal edə bildilər, amma onu da eynəksiz üç ölçülü görmək mümkün deyil, həm də bu, süni üçölçülü görüntüdür. Arxa tərəf daha bulanıq, ön tərəf isə kağız dekorasiya kimi görünür. Heç bir zaman gözün gördüyü qədər aydın və keyfiyyətli görüntü əmələ gəlmir. Kamerada da, televizorda da mütləq görüntü itkisi olur.

Təkamülçülər bu keyfiyyətli və aydın görüntünü əmələ gətirən mexanizmin təsadüfən əmələ gəldiyini iddia edirlər. İndi birisi sizə otağınızdakı televizorun təsadüflər nəticəsində

əmələ gəldiyini, atomların birləşib bu görüntünü əmələ gətirən aləti meydana gətirdiyini desə, nə düşünərsiniz? Minlərlə insanın birlikdə edə bilmədiyini şüursuz atomlar necə etsin?

Gözün gördüyündən daha bəsit görüntünü əmələ gətirən alət təsadüfən əmələ gəlmirsə, gözün və gözün gördüyü görüntünün də təsadüfən meydana gəlməyəcəyi çox açıqdır. Eyni vəziyyət qulağa da aiddir. Xarici qulaq ətrafdakı səsləri qulaq seyvanı vasitəsilə toplayıb daxili qulağa ötürür; daxili qulaq da bu titrəyişləri elektrik impulslarına çevirərək beyinə göndərir. Eynilə görmədə olduğu kimi, eşitmə prosesi də beyindəki eşitmə mərkəzində həyata keçir.

Göz üçün dediklərimiz qulağa da aiddir, yəni beyin işıq kimi səsə də qapalıdır, səs keçirmir. Ona görə, xarici aləm nə qədər səs-küylü olsa da, beyinin içi tamamilə səssizdir. Buna baxmayaraq, ən aydın səslər beyində eşidilir. Səs keçirməyən beyninizdə orkestr simfoniyaları dinləyir, ətraf mühitin bütün səs-küyünü eşidirsiniz. Ancaq həmin anda həssas bir cihazla beyninizin içindəki səs səviyyəsi ölçülsə, burada səssizliyin hakim olduğu məlum olacaqdır. Aydın görüntü əldə etmək ümidi ilə texnologiyadan necə istifadə edilirsə, səs üçün də eyni səylər on illərdən bəri davam etdirilir. Səsyazma cihazları, musiqi mərkəzləri, bir çox elektron alət, səs qəbul edən musiqi sistemləri bu fəaliyyətlərin nəticələrindən bəziləridir. Ancaq bütün texnologiyaya və bu sahədə minlərlə mühəndis və mütəxəssis işləməsinə baxmayaraq, qulağın əmələ gətirdiyi qədər aydın və keyfiyyətli səs əldə edilməmişdir. Ən böyük musiqi sistemi şirkətinin istehsal etdiyi ən keyfiyyətli musiqi mərkəzini düşünün. Səsi qeyd etdikdə mütləq səsin bir hissəsi itir, az da olsa təhrif olur və ya musiqi mərkəzini işə saldıqda hələ musiqi çalmazdan əvvəl mütləq bir cızıltı eşidirsiniz. Ancaq insan orqanizmindəki texnologiyanın məhsulu olan səslər olduqca aydın və qüsursuzdur. İnsan qulağı heç vaxt musiqi mərkəzində olduğu kimi cızıltılı və ya təhrif olunmuş şəkildə səs eşitmir; səs necədirsə, tam və aydın şəkildə onu eşidir. Bu, insan yaradıldığı gündən bəri belədir. İndiyə qədər insanın istehsal etdiyi heç bir görüntü və səs cihazı göz və qulaq qədər həssas və keyfiyyətli qəbuledici olmamışdır. Ancaq görmə və eşitmə hadisəsində bütün bunların fövqündə duran çox böyük həqiqət də var.

### Beyinin içində görən və eşidən şüur kimə aiddir?

Beyinin içində parlaq, rəngli dünyanı izləyən, simfoniyaları, quşların civiltilərini dinləyən, gülü qoxulayan kimdir?

İnsanın gözlərindən, qulaqlarından, burnundan gələn siqnallar elektrik impulsu kimi beyinə ötürülür. Biologiya, fiziologiya və ya biokimya kitablarında bu görüntünün beyində necə əmələ gəlməsinə dair bir çox şey oxuyursunuz. Ancaq bu mövzu haqqında ən mühüm həqiqətə

heç bir yerdə rast gələ bilməzsiniz: beyində bu elektrik impulslarını görüntü, səs, qoxu və hiss kimi qavrayan kimdir? Beyinin içində gözə, qulağa, buruna ehtiyac hiss etmədən bütün bunları qavrayan bir şüur var. Bu şüur kimə aiddir?

Əlbəttə, bu şüur beyini təşkil edən sinirlər, yağ təbəqəsi və sinir hüceyrələrinə aid deyil. Elə buna görə, hər şeyin maddədən ibarət olduğunu zənn edən darvinist-materialistlər bu suallara heç cür cavab verə bilmirlər. Çünki bu şüur Allah'ın yaratdığı ruhdur. Ruhun görüntünü izləmək üçün gözə, səsi eşitmək üçün qulağa ehtiyacı yoxdur. Eyni zamanda, düşünmək üçün beyinə də ehtiyacı yoxdur.

Bu açıq və elmi həqiqəti oxuyan hər insan beyinin içindəki bir neçə $sm^3$-lik, qapqaranlıq yerə bütün kainatı üçölçülü, rəngli, kölgəli və işıqlı şəkildə sığışdıran uca Allah'ı düşünüb, Ondan qorxub Ona sığınmalıdır.

**Materialist inanc**

Bura qədər təhlil etdiklərimiz təkamül nəzəriyyəsinin elmi kəşflərə zidd iddia olduğunu göstərir. Nəzəriyyənin həyatın mənşəyi haqqındakı iddiası elmə ziddir, irəli sürdüyü təkamül mexanizmlərinin heç bir təkamül gücü yoxdur və fosillər nəzəriyyənin iddia etdiyi ara keçid formalarının yaşamadığını göstərir. Bu təqdirdə, əlbəttə, təkamül nəzəriyyəsi elmə zidd fərziyyə kimi bir kənara qoyulmalıdır. Belə ki, tarix boyu dünya mərkəzli kainat modeli kimi bir çox düşüncə tərzi elmin gündəmindən çıxarılmışdır. Ancaq təkamül nəzəriyyəsi təkidlə elmin gündəliyində saxlanılır. Hətta bəzi insanlar nəzəriyyənin tənqid edilməsini elmə təcavüz kimi göstərməyə çalışırlar. Axı niyə? Bunun səbəbi təkamül nəzəriyyəsinin bəzi kütlələr üçün əl çəkilməz doqmatik inanc olmasıdır. Bu kütlələr materialist fəlsəfəyə kor-koranə bağlıdırlar və darvinizmi də təbiət haqqında yeganə materialist açıqlama olduğu üçün mənimsəyiblər. Bəzən bunu açıq şəkildə etiraf edirlər. Harvard Universitetindən məşhur genetik və eyni zamanda, qabaqcıl təkamülçülərdən olan Riçard Levontin əvvəlcə materialist, sonra elm adamı olduğunu belə etiraf edir:

"Bizim materializmə bir inancımız var, bu "a priori" (əvvəlcədən qəbul edilmiş, doğru fərz edilmiş) inancdır. Bizi dünya haqqında materialist açıqlama verməyə məcbur edən şey elmi metodlar və qanunlar deyil. Əksinə, materializmə olan "a priori" bağlılığımız səbəbi ilə dünya haqqında materialist açıqlama verən tədqiqat metodları və anlayışlarını uydururuq. Materializm mütləq doğru olduğuna görə də İlahi açıqlamanın səhnəyə çıxmasına icazə verə bilmərik". *(Richard Lewontin, "The Demon-Haunted World", The New York Review of Books, 9 Ocak, 1997, səh. 28)*

Bu sözlər darvinizmin materialist fəlsəfəyə bağlılıq uğrunda davam etdirilən bir doqma olduğunun açıq ifadəsidir. Bu doqma maddədən başqa heç bir varlıq olmadığını qəbul edir. Bu səbəbdən də cansız, şüursuz maddənin həyatı əmələ gətirdiyinə inanır. Milyonlarla müxtəlif canlı növünün, məsələn, quşların, balıqların, zürafələrin, pələnglərin, həşəratların, ağacların, çiçəklərin, balinaların və insanların maddənin öz daxilindəki reaksiyalarla, yəni yağan yağışla, çaxan şimşəklə, cansız maddədən əmələ gəldiyini qəbul edir. Əslində isə bu, həm ağıla, həm də elmə ziddir. Amma darvinistlər Allah'ın açıq-aşkar varlığını qəbul etməmək üçün bu ağıldan və elmdən kənar fikri cahilliklə müdafiə etməkdə davam edirlər.

Canlıların mənşəyinə materialist düşüncə ilə baxmayan insanlar isə bu açıq həqiqəti görəcəklər: bütün canlılar üstün güc, bilik və ağıla malik olan Yaradanın əsəridir. Yaradan bütün kainatı yoxdan var edən, ən qüsursuz şəkildə nizama salan və bütün canlıları yaradan Allah'dır.

**Təkamül nəzəriyyəsi dünya tarixinin ən təsirli sehridir**

Burada bunu da bildirmək lazımdır ki, heç bir ideologiyanın təsiri altında qalmadan, sadəcə ağlını və məntiqini işlədən hər insan elm və mədəniyyətdən uzaq xalqların xurafatlarını xatırladan təkamül nəzəriyyəsinə inanmağın qeyri-mümkün olduğunu asanlıqla anlayacaqdır.

Yuxarıda da bildirildiyi kimi, təkamül nəzəriyyəsinə inananlar böyük bir çənin içinə bir çox atomu, molekulu, cansız maddəni dolduran və bunların qarışığından zaman ərzində düşünən, dərk edən, kəşflər edən professorların, universitet tələbələrinin, Eynşteyn, Habl kimi elm adamlarının, Frank Sinatra, Çarlton Heston kimi aktyorların, bununla yanaşı, ceyranların, limon ağaclarının, qərənfillərin çıxacağına inanırlar. Həm də bu cəfəng iddiaya inananlar elm adamları, professorlar, mədəniyyətli, təhsilli insanlardır. Bu səbəbdən, təkamül nəzəriyyəsi haqqında dünya tarixinin ən böyük və ən təsirli sehri ifadəsini işlətmək yerinə düşər. Çünki dünya tarixində insanların bu dərəcədə ağlını başından alan, ağıl və məntiqlə düşünmələrinə imkan verməyən, gözlərinin qarşısına sanki bir pərdə çəkib çox açıq olan həqiqətləri görmələrinə mane olan başqa inanc və ya iddia yoxdur. Bu, afrikalı bəzi qəbilələrin totemlərə, Səba xalqının Günəşə tapınmasından, hz. İbrahimin qövmünün düzəltdikləri bütlərə, hz. Musanın qövmünün qızıldan düzəltdikləri buzova tapınmalarından daha qorxulu və ağlasığmaz korluqdur. Əslində, bu vəziyyət Allah'ın Quranda işarə etdiyi ağılsızlıqdır. Allah bəzi insanların anlayışlarının bağlı olacağını və həqiqətləri görməkdən məhrum olacağını bir çox ayəsində bildirir. Bu ayələrdən bəziləri belədir:

**Həqiqətən, kafirləri əzabla qorxutsan da, qorxutmasan da, onlar üçün birdir, iman gətirməzlər. Allah onların ürəyinə və qulağına möhür vurmuşdur. Gözlərində də pərdə vardır. Onları böyük bir əzab gözləyir! (Bəqərə surəsi, 6-7)**

**... Onların qəlbləri vardır, lakin onunla anlamazlar. Onların gözləri vardır, lakin onunla görməzlər. Onların qulaqları vardır, lakin onunla eşitməzlər. Onlar heyvan kimidirlər, bəlkə də, daha çox zəlalətdədirlər. Qafil olanlar da məhz onlardır! (Əraf surəsi, 179)**

Allah "Hicr" surəsində də bu insanların möcüzələr görsələr də, inanmayacaq qədər sehrləndiklərini belə bildirir:

**Əgər onlara göydən bir qapı açsaq və oradan durmadan yuxarı dırmaşsalar yenə də: "Gözümüz bağlanmış, biz sehrlənmişik", - deyərlər. (Hicr surəsi, 14-15)**

Bu qədər geniş kütləyə bu sehrin təsir etməsi, insanların həqiqətlərdən bu qədər uzaq saxlanması və 150 ildən bəri bu sehrin pozulmaması isə sözlə ifadə edilməyəcək qədər heyrətli vəziyyətdir. Çünki bir və ya bir neçə insanın qeyri-mümkün ssenarilərə, cəfəng və məntiqsiz iddialara inanmalarını anlamaq olar. Ancaq dünyanın hər tərəfindəki insanların şüursuz və cansız atomların ani qərarla birləşib qeyri-adi mütəşəkkillik, nizam, ağıl və şüur nümayiş etdirərək qüsursuz sistemlə işləyən kainatı, həyat üçün uyğun hər cür xüsusiyyətə malik olan Yer planetini və saysız-hesabsız kompleks sistemdən ibarət canlıları meydana gətirdiyinə inanmasının sehrdən başqa heç bir açıqlaması yoxdur.

Allah Quranda inkarçı fəlsəfənin tərəfdarı olan bəzi şəxslərin etdikləri sehrlərlə insanlara təsir etdiklərini hz. Musa ilə firon arasında baş verən bir hadisə ilə bizə bildirir. Hz. Musa firona haqq dini təbliğ etdikdə firon hz. Musaya öz bilici sehrkarları ilə insanların toplaşdığı bir yerdə qarşılaşmasını söyləyir. Hz. Musa sehrkarlarla qarşılaşdıqda əvvəlcə onların bacarıqlarını göstərməsini əmr edir. Bu hadisənin danışıldığı ayə belədir:

**(Musa:) "Siz atın", - dedi. Onlar (əsalarını yerə) atdıqda, adamların gözlərini bağlayıb (sehrləyib) onları qorxutdular və böyük bir sehr göstərdilər. (Əraf surəsi, 116)**

Göründüyü kimi, fironun sehrkarları hz. Musa və ona inananlardan başqa insanların hamısını sehrləyə bilmişdilər. Ancaq onların atdıqlarına qarşı hz. Musanın ortaya qoyduğu dəlil onların bu sehrini, ayədəki ifadə ilə uydurduqlarını udmuş, yəni təsirsiz etmişdir:

**Biz də Musaya: "Əsanı tulla!" - deyə vəhy etdik. Bir də (baxıb gördülər ki,) əsa onların uydurub düzəltdikləri bütün şeyləri udur. Artıq haqq zahir, onların uydurub düzəltdikləri yalanlar isə batil oldu. (Sehrbazlar) orada məğlub edildilər və xar olaraq geri döndülər. (Əraf surəsi, 117-119)**

Ayələrdə də bildirildiyi kimi, əvvəllər insanlara sehrləyərək təsir göstərən bu şəxslərin etdiklərinin saxtakarlıq olmasının başa düşülməsi ilə sözügedən şəxslər alçalmışlar. Dövrümüzdə də bir sehrin təsiri ilə elmilik adı altında olduqca cəfəng iddialara inanan və bunları müdafiə etmək üçün həyatlarını qurban verənlər əgər bu iddialardan əl çəkməsələr,

həqiqətlər tam mənası ilə üzə çıxdıqda və sehr pozulduqda alçalacaqlar. Belə ki, təqribən 60 yaşına qədər təkamülü müdafiə edən və ateist filosof olan, ancaq sonradan həqiqətləri görən Malkolm Maqeric təkamül nəzəriyyəsinin yaxın gələcəkdə düşəcəyi vəziyyəti belə açıqlayır:

**“Mən özüm təkamül nəzəriyyəsinin xüsusilə tətbiq edildiyi sahələrdə gələcəyin tarix kitablarındakı ən böyük yumor hədəflərindən biri olacağına inandım.** Gələcək nəsillər bu qədər çürük və qeyri-müəyyən hipotezin inanılmaz saflıqla qəbul edilməsini heyrətlə qarşılayacaqlar”. *(Malcolm Muggeridge, The End of Christendom, Grand Rapids: Eerdmans, 1980, səh. 43)*

Bu gələcək uzaq deyil, əksinə, çox yaxın gələcəkdə insanlar “təsadüf”lərin ilah olmasının mümkünsüzlüyünü anlayacaqlar və təkamül nəzəriyyəsi dünya tarixinin ən böyük yalanı və ən güclü sehri kimi tərif ediləcəkdir. Bu güclü sehr böyük sürətlə dünyanın hər tərəfində insanlar üzərində təsirini itirməyə başlamışdır. Təkamül yalanının sirrinin öyrənən bir çox insan bu yalana necə aldandığını heyrət və təəccüblə qarşılayır.

**...Sənin bizə öyrətdiklərindən başqa bizdə heç bir bilik yoxdur!**

**Həqiqətən, Sən bilənsən, müdriksən!**

**(Bəqərə surəsi, 32)**

Bu kitabın mövzusu olan "sədaqət", Quran əxlaqından uzaq yaşayan insanların tamamilə səhv baxış bucağıyla qiymətləndirdikləri, hətta bəzilərinin həqiqi mənasıyla heç bilmədiyi və yaşamadığı bir anlayışdır.

Cahil inancları mənimsəyən bəzi insanlar sədaqəti, “insanın mənfəət umduğu kəslərə bağlanması, hansı şərtlər altında olursa olsun, tamamilə o kəslərin istək və arzularını güdməsi” olaraq dəyərləndirərlər. Bu kəslərin sədaqət anlayışları, həqiqi mənasından çıxmış və müxtəlif dünyəvi maraqlara vasitə edilən sədaqət növü halına gəlmişdir.

İman etməyən bu kəslərin çox daha fərqli bir istiqamətdə yaşadıqları dərin bir sədaqət hissi var ki, bu, onların özlərinə və şeytana qarşı göstərdikləri sədaqətdir. Şeytanın və nəfsani arzularının ardınca qaçan bu kəslər, həyatlarını bu iki azdırıcıya son dərəcə sadiq qalaraq keçirər, hər an onları addım-addım izləyərlər. Halbuki, şeytana və nəfsə göstərilən sədaqətin axirətdəki qarşılığı əbədi əzabdır.

Möminlər isə, sədaqəti yer üzündəki ən doğru qaynaq olan Qurandan öyrənən, bu səbəblə, ən mükəmməl şəkildə yaşayan insanlardır. Onlar sədaqəti, sevgiyə, tərifə və sədaqətə əsil layiq olan Rəbbimizə göstərir, həyatlarının sonuna qədər Allaha qəlbən bağlılar olaraq qalırlar. Allaha olan sədaqətlərini, həyatlarının hər anında Rəbbimizi dərin bir hörmətlə ucaldaraq, Ona könüldən boyun əyib, töhfəsiz bir iman ilə təslim olaraq göstərirlər.

Uca Rəbbimiz Allah, bu gözəl davranışlarına qarşılıq, Allah qatında onlar üçün “bağışlanma və böyük mükafat” olduğunu bildirmişdir.